
SƏMAVİ
HƏDİYYƏLƏR
8-ci kitab

بسم الله الرحمن الرحيم

Bismillahir Rəhmanir Rəhim

# Səmavi hədiyyələr

Səkkizinci kitab

İslam təlim-tərbiyəsi

مَنْ عَمِلَ صَالِحًا مِنْ ذَكَرٍ أَوْ أُنْثَى وَهُوَ مُؤْمِنٌ
فَلَنُحْيِيَنَّهُ حَيَاةً طَيِّبَةً وَلَنَجْزِيَنَّهُمْ أَجْرَهُمْ بِأَحْسَنِ مَا كَانُوا يَعْمَلُونَ

**“Mömin olub yaxşı işlər görən (Allaha itaət edən) kişi və qadına (dünyada və axirətdə) xoş həyat nəsib edəcək və etdikləri ən yaxşı əməllərə görə mükafatlarını verəcəyik”.**

(Qurani-Kərim, Nəhl surəsi, 97-ci ayə)

Uca Yaradanımız tərəfindən həzrət Muhəmməd Peyğəmbərə (s) göndərilmiş İslam dini özündə etiqadlar, əxlaq, şəriət hökmləri və qayda-qanunları ehtiva edir. İnsan gözəl həyat yaşayıb Allaha yaxınlaşmaq üçün məhz bunlara ehtiyac duyur. İslam təlimlərinin əsas mənbəyi Quran, həzrət Peyğəmbərin (s) və onun həqiqi davamçıları sayılan məsum İmamların (ə) sünnəsi və sağlam ağıla əsaslanır. Bunu nəzərə alaraq, İslam maarifini öyrənmək hər bir müsəlman üçün zəruridir.

Əlinizdə olan bu kitabın hazırlanmasında başlıca məqsəd yeniyetmələrin müqəddəs İslam təlimləri əsasında ağıl, iman, elm, əməl və əxlaq baxımından düzgün şəkildə yetişdirilməsidir. Belə ki, bunun sayəsində onlar öz mövqelərini həm özlərinə, həm Allaha, həm bəndələrə, həm də yaradılışa qarşı düzgün şəkildə anlayıb cəmiyyətdə fərdi, o cümlədən ictimai mövqe nümayiş etdirməyi bacarsınlar.

Uca Allahdan dini vəzifələrin yerinə yetirilməsində hamıya uğurlar arzu edirəm.

**Professor Ərafi**

## Bismillahir Rəhmanir Rəhim
## Bağışlayan və mehriban Allahın adı ilə.

**O, insana Quranı, öyrətdi. Həqiqət axtarmaq nemətini və Özünü tanımaq nemətini bəxş etdi.**

O Allahın adı ilə ki, həqiqətarama, öyrənmə və özünütanıma kimi bir neməti bizə təqdim etmişdir. Həmçinin İslamı təlim və tərbiyə sahəsində müdirlər, müəllimlər, şagirdlər və valideynlərinə xidmət göstərmək nemətini bizə nəsib etmişdir.

Bu kitabın ərsəyə gəlməsinin əsas qayəsi böyük alimlərin rəhbərliyi altında təhsil standartlarını təmin etməklə yanaşı, İslam məktəbləri üçün əhatəli təlim proqramını təmin etməkdir.

Onun perspektivası İslami təlim və tərbiyəyə giriş sahəsində bü günkü nəslin inkişafı, kamiliyyə doğru hərəkəti və gələcək üçün qərarverici qabiliyyətə malik olması istiqamətində müəllim, valideyn və şagirdlərlə birgə işləməkdir.

Əziz oxucular, bu kitabın ərsəyə gəlməsində əsas məqsəd cəmiyyətin ilkin dini biliklərlə tanış olması və İslami təhsil ocaqlarının təlim və təhsil fənn və sahələri ilə tanışlıqdır. Eyni zamanda bizim digər amal və məqsədimiz aşağıdakılardan ibarətdir:

Məktəblərdə İslam təhsili üçün aydın və etik hədəfin müəyyən edilməsi;

Təxəssüs və təcrübə resurslarının mübadiləsi üçün geniş bir şəbəkənin təqdim edilməsi;

Mənəvi, fiziki, emosional və mental dirçəlişə hərtərəfli yanaşmanın təşviq edilməsi;

Düzgün İslami bilik və interaktiv metodologiya əsasında kadr və müəllim hazırlığının təmin olunması;

Tədqiqatçılar, hövzə və seminariya mərkəzləri ilə ünsiyyətin yaradılması;

İslami təlim və təhsil üçün kursların tərtibatı, məzmunu, metodları və dəyərləndirmə sistemi üçün güclü zəminin yaradılması.

Bu kolleksiyanın əsas hədəfi İslam təlimini ehtiva edən mükəmməl dizaynlı kitablar toplusunu təqdim etməkdir. Allaha şükürlər olsun ki, bir qrup mütəxəssislərin əməkdaşlığı ilə belə böyük bir əsər ərsəyə gəlib.

Bu dərsliklər silsiləsi dolayı və cəlbedici üsullardan istifadə etməklə, əsasən İslam təlim və gündəlik məktəb proqramının metoduna uyğun olaraq tərtib edilmişdir. Elmi vəsait, mötəbər İslam mənbələrinə əsaslanaraq ümumi əqidə, əxlaq və əhkam əsaslarının öyrədilməsi üçün təlif edilib.

Bu kolleksiya əsasən İslam perspektivinin əsas prinsiplərinə - rasionallıq, mənəviyyat, mötədillik, ədalət və sülhə əsaslanır.

Yeri gəlmişkən bu böyük layihədə əməkdaşlıq edən bütün mütəxəssislərə, xüsusən də professor Ərafi, cənab İmanipur və cənab Fəyaziyə təşəkkür edir, minnətdarlığımızı bildiririk.

**Gürcüstan Müsəlmanları İdarəsi**

# Mündəricat


**Birinci fəsil:** Allahı tanıma 13

**Birinci dərs:** Güzəşt və bağışlama 14

**İkinci dərs:** Hər şey öz yerində gözəldir 22

**İkinci fəsil:** Yol və azuqə 27

**Üçüncü dərs:** Bəndəlik şərəfi 28

**Dördüncü dərs:** Dəstəmaz və təyəmmüm 34

**Beşinci dərs:** Namazı batil edən amillər 40

**Üçüncü fəsil :** Cəmiyyət 45

**Yeddinci dərs:** Müdafiə 46

**Dördüncü fəsil:** Məad 51

**Səkkizinci dərs:** Qiyamət günü 52

**Beşinci fəsil:** Bələdçi tanıma 57

**Doqquzuncu dərs:** Sonuncu peyğəmbər və sonuncu mesaj 58

**Onuncu dərs:** Sarsılmaz bağlılıq 65

**On birinci dərs:** İslam dininin kamilləşməsi 70

**On ikinci dərs:** Qeyb dövründə rəhbərlik 78

**Altıncı fəsil:** Əxlaq 81

**On üçüncü dərs:** Dua və münacat 82

**On dördüncü dərs:** Əməlin nəticəsi 88

**On beşinci dərs:** Şeytanın əskərləri 96

**On altıncı dərs:** Dostluq 104

**İstifadə olunmuş ədəbiyyat 113**

## Allahın adı ilə

**Hörmətli müəllimlər!**

Məlum olduğu kimi, bütün Peyğəmbərlərin (ə) missiyası gələcək nəsillərə yol göstərməkdir. Bu dəyərli vəzifəni öz öhdənizə götürdüyünüzüə görə Sizləri təbrik edirik! Şübhəsiz, bu işi saf niyyətlə və səmimi şəkildə yerinə yetirmək dünyada ölçüyə gəlməyən bir missiyadır və onun mükafatını təbiət aləmində ödəmək mümkünsüzdür.

Cəmiyyətdə heç bir peşə bu məqama çatmaz, çünki dünyada heç bir varlıq insan qədər şərafətli deyil və insan müəllimin əlində əmanətdir. Müəllimin rolu insanları azğınlıq zülmətindən çıxarıb hidayət nuruna və doğru yola yönəltməkdir. Müəllim yaxşı və pisin ilk eskizlərini şagirdlərin ağappaq və yazılmamış zehin lövhəsinə yaza bilən bir kəsdir və beləcə, müəllimin bacarıqlı əlləri gələcək perspektivin rəsmini çəkir. Müəllim cəmiyyəti cəsur və ya qorxaq, səxavətli və ya xəsis, fədakar və ya eqoist, elm əhli və ya elmdən qaçan, ismətli və ya əxlaqsız edə bilər. Buna görə də əgər cəmiyyət islah olunmalı və düzəlməlidirsə, bu düzəliş məktəbdən başlanmalıdır.

Əmirəl-möminin Əli (ə) buyurur: **"Hidayət edən və öyrədən şəxs başqalarına öyrətməkdən çox özünü islah etməlidir və onun rəftarı ilə öyrətdikləri söz ilə öyrətdiklərindən çox olmalıdır".**[1] Müəllimin sinifdəki bütün hərəkətləri, baxışı, işarəsi, gülümsəməyi, qaşqabağı, geyimi və ... şagirddə iz buraxır və hər bir kəs öz həyatında ən dərin hissləri və duyğuları öz müəllimindən öyrənir. Buna görə də həzrət Peyğəmbərin (s) İmam Əliyə (ə) buyurduğu aşağıdakı cümlə daim qulağımızda sırğa olmalıdır: **"Ya Əli! Əgər Allah sənin vasitənlə bir insanı hidayət etsə, sənin üçün günəşin üzərinə saçdığı hər bir şeydən yaxşıdır".**[2]

---

1 Vəsailuş-şiə, c.16, səh. 150.
2 Kafi, c.5, səh. 28; Əl-mustədrək ələs-səhiheyn, c.3, səh.691, hədis: 6537

**Hörmətli həmkarlar!**

Qarşınızda olan bu kitab müxtəlif dini və tərbiyəvi sahələrdə çoxsaylı ekspertlərin çoxillik zəhmətinin nəticəsidir ki, siz dəyərli müəllimlərin rəyləri əsasında ərsəyə gəlmişdir. Ümid edirik ki, bu kitabda sizin fədakar səylərinizlə müsəlman övladlarımızın İslami təlim-tərbiyəsində daha çox təsirə malik olacaqdır.

Gördüyünüz kimi, "Səmavi hədiyyələr" kitabı məzmun və yazı üslubu baxımından fərqli olmaqdan əlavə yeni növ təlim-tərbiyə yanaşmalarına malikdir. Aydındır ki, bu kitabın hədəflərinə çatmaq siz əziz həmkarların tədris mərhələlərində bu yanaşmalara diqqət yetirməyinizdən asılıdır.

Şagirdləri fəal iştiraka cəlb etmək və tədris mərhələlərində onların payını artırmaq bu kitabın əsas yanaşmalarındandır. Buna əsasən kitabın ən yaxşı tədris metodu aktiv tədris metodudur ki, burada hər bir dərsin ən az iyirmi dəqiqəsi şagirdin bəhslərdə aktiv iştirakına və öz fikrini bildirməsinə ayrılır. Yaxşı olar ki, hörmətli müəllimlər bu vaxtı yalnız şagirdləri doğru səmtə yönəltməyə və onların öz fikirlərini bildirərkən yol verdikləri mümkün səhvlərini düzəltməyə sərf etsinlər. Sinifdəki şagirdlərin qruplara bölünməsi, onların suallarını cavablandırmaq üçün münasib zamanın ayrılması, şagirdlərin öz aralarında müzakirə aparmaları və bir-birinin fikirlərini dəyərləndirmələri üçün münasib şəraitin yaradılması bu metodun tələblərindəndir.

Tədrisi yalnız mühazirə ilə məhdudlaşdırmaq və şagirdi sırf dinləyiciyə çevirmək dini tərbiyənin hədəflərinə ziddir və bu metod şagirddə əzbərçilik bəlasının yaranması ilə nəticələnə bilər.

Hazırkı kitab "İslam mədəniyyəti və dini təlimlər" kitabının və onun qiymətləndirmə metodologiyasının təhlili əsasında yeni bir yanaşma ilə hazırlanmışdır. Burada "Orta təhsil dövrü dini təlim-tərbiyə proqramının bələdçisi"ndən götürülmüş qiymətləndirmə metodologiyasının ən mühüm bəndləri təqdim olunur və bu mövzular daha geniş şəkildə yuxarıda qeyd olunan bələdçidə mövcuddur:

**Qiymətləndirmə metodologiyasının əsasları**

Dərs proqramının və öyrənmə prosesinin ən mühüm sütunlarından biri qiymətləndirmədir. Bu, iki məqsəd üçün yerinə yetirilir:

1. Öyrətmək və öyrənmək hədəflərinin gerçəkləşmə dərəcəsini təyin etmək;
2. Öyrənilənləri möhkəmləndirmək.

Buna görə də qiymətləndirmə öyrənmə prosesinin bir hissəsidir və onun müxtəlif mərhələlərində keçirilir. Müəllim və şagird də davamlı olaraq onunla əlaqədədirlər. Qiymətləndirmə öyrənmənin hədəflərinə diqqət yetirir və hədəflərin gerçəkləşmə dərəcəsini ölçdüyü qədər bu hədəfin gerçəkləşməsinə də kömək edir, yəni şagirdləri elə fəaliyyətlərə sövq edir ki, bu fəaliyyətlər ona hədəfə çatmaqda yardım edir.

Dini təlim-tərbiyə aşağıdakı üç məqsədi güdür və şagirdlərin bu məqsədlərə çatmasına çalışır:

1. Dinin əsasları, maarifi və vəzifələri haqqında məntiqi bilik əldə etmək;
2. Bu əsaslara, maarifə və vəzifələrə iman gətirmək;
3. Vəzifə və məsuliyyətlərə əməl etmək.

Hərçənd bu üç məqsəd arasında bir növ ardıcıllıq mövcuddur, lakin bir-birinə təsir göstərirlər. Bu üç məqsəd arasında insanın rəftarına və əməlinə aid olan fəaliyyətlər qiymətləndirmə dairəsində yerləşmir. Lakin bu, sözügedən fəaliyyətlərin təhsil mühitində nəzərə alınmaması mənasında deyil. Şagirdlərin camaat namazında, xeyriyyə və xilasetmə fəaliyyətlərində iştirak etməsi, başqalarını yaxşı işlərə dəvət etmək və pis işlərdən çəkindirmək və bu kimi digər fərdi və ictimai dini fəaliyyətləri dərs proqramında nəzərdə tutula və şagirdlər öz istəyi ilə bu işləri yerinə yetirməyə dəvət oluna bilərlər. Buna görə də dini təlim-tərbiyədə şagirdin qiymətləndirilməsi aşağıdakı fəaliyyət sahələrində olmalıdır:

1) Ağıl və təfəkkürü inkişaf etdirən fəaliyyətlərin qiymətləndirilməsi;

2) İman və dini hissi gücləndirən fəaliyyətlərin qiymətləndirilməsi.

Orta təhsil dərəcəsində dini təlim-tərbiyə dərsinin qiymətləndirilməsi "Summativ qiymətləndirmə" və "Yekun qiymətləndirmə" olaraq iki formada keçirilir və son qiymət bu iki qiymətləndirmənin cəmindən əldə olunur.

Summativ qiymətləndirilmədə daha çox bacarıqlara diqqət yetirilməli, keyfiyyət və təsviri xarakter daşımalıdır. Belə ki, summativ qiymətləndirilmə öyrənmənin keyfiyyətinə xidmət edə biləcək səmərəli bir qiymətləndirmədir.

Müəllim qiymətləndirmə vərəqində hər şagirdin öyrənmə səviyyəsini və onun təhsil fəaliyyətini yerinə yetirməsini yazır və öz rəyini qeyd edir. Bundan əlavə, görülmüş fəaliyyətlərə uyğun olaraq şagirdin öyrənmə səviyyəsini kəmiyyət vasitəsinə çevirərək müəyyən olunmuş bal şkalası ilə qiymətləndirir.

Yekun qiymətləndirmə yazılı imtahan formasında keçirilir. Bu sınaqda dərsin məzmununun öyrənilməsi qiymətləndirilir. Sınaq sualları tədrisin bütün səviyyəsini müvafiq şəkildə əhatə etməli və yuxarı səviyyələrə daha çox diqqət yetirilməlidir. Məfhumları dərk etmək, onları işlətmək, analiz qabiliyyəti, tərkib, müqayisə, tətbiq, düşünmə və mühakimə bacarığı diqqət yetiriləsi ən mühüm səviyyələrdir.

**Qiymətləndirmə metodologiyasının icra forması**

1. Summativ qiymətləndirmə (istər yazılı, istər şifahi) 12 ballıq şkala ilə, yekun yazılı qiymətləndirmə isə 8 ballıq şkala ilə hesablanır.

2. Birinci rübün yekun qiymətləndirməsi elə həmin rüb ərzində tədris olunmuş mövzular, ikinci rübün yekun qiymətləndirməsi isə kitabın bütün mövzuları əsasında həyata keçirilir.

3. Hər rübün summativ qiymətləndirməsinin qiymət cədvəli (12 bal) aşağıdakı kimidir:

a) Müəllimin kitabdakı mətndən çıxardığı suallara cavab: 4 bal;

b) Kitabın mətnində olan sinif işlərinin yerinə yetirilməsi: 3 bal;

c) Hər dərsin sonundakı suallara cavab vermək: 3 bal;

d) Tədris prosesində fəal olmaq və iştirak etmək: 2 bal.

4. Hər rübün yekun qiyməti həmin rübün summativ (12 bal) və yekun qiymətləndirmə (8 bal) ballarının cəmidir.

5. “Səmavi hədiyyələr” dərsinin yekun qiymətləndirmə nəticələrini şagirdlərin qiymət kitabçasında aşağıdakı iki formada yazmaq olar:

a) Summativ qiymətləndirmənin (12) və yekun qiymətləndirmənin (8) nəticələri 20 ballıq şkala ilə hesablanaraq müvafiq sütunlara qeyd edilir;

b) Summativ qiymətləndirmə (12) və yekun qiymətləndirmənin (8) hər birinin nəticələri toplanaraq summativ və yekun qiymətləndirmə sütunlarında qeyd edilir.

6. Bütün qiymətləndirmələrdə (summativ və ya yekun) əsas meyar məfhum və anlayışın dərk edilməsidir. Buna görə də şəxs adları, tarix, məkan və daha çox əzbərçiliyə söykənən bu kimi sualların tərtib edilməsi məqsədəuyğun deyil.

7. Şagirdlərin Quran ayələri və hədislərin ərəb dilində olan mətnlərini, eləcə də onların tərcümələrini əzbərləməsi məcburi deyil və qiymətləndirmələrdə yalnız ayə və hədislərin məzmunu, məfhumu və mesajı soruşula bilər.

8. “Sinif işi” bölməsi şagirdlərin tədris prosesində iştirakını artırmaq üçün nəzərdə tutulub və şagirdin qiymətləndirilməsində mühüm rol oynaya bilər.

9. Hər dərsdə olan “Daha çox bilək” bölməsi yalnız şagirdlərin məlumatını artırmaq məqsədini daşıyır. Müəllim dərsi izah etmək üçün bundan istifadə edə və ya bu bölmə üçün həvəsləndirici qiymətləndirmə balı nəzərdə tuta bilər. Lakin summativ və yekun qiymətləndirmədə bu hissəyə aid sual verilə bilməz.

10. Dərslərin “Təklif” bölməsi şagirdlərə nəzərdə tutulan hədəflərə çatmaqda kömək edə bilər. Bu hissədə müəllim, yaxud şagird tərəfindən təklif olunan fəaliyyətlərin yerinə yetirilməsi tamamilə könüllüdür və buna görə şagirdə yalnız

həvəsləndirici qiymət verilə bilər. Belə ki, 12 ballıq summativ qiymətləndirməyə maksimum 2 bal əlavə oluna bilər və summativ qiymətləndirməni tamamlamaq üçün istifadə olunmalıdır. Bu, yekun qiymətləndirmə balına əlavə oluna bilməz.

11. Bəzi dərslərin sonunda olan "İlahi" adlı bölmə həmin dərsə yekun vurmaq üçün nəzərdə tutulub; summativ və yekun qiymətləndirmədə bu hissədən sual salına bilməz.

**Əziz şagirdlər, salam!**

Keçən ilki təhsil ilini uğurla başa vurduğunuza və təhsil həyatınızda yeni bir mərhələyə qədəm qoyduğunuza görə əhsən sizə!

Uca Allaha bu uğura görə şükür edirik!

Mehriban Allah gözəl Cənnətini sənin üçün, onu sevən və onu əldə etmək üçün çalışan hər bir kəs üçün yaradıb.

O, bütün varlıqları insanın xoşbəxtliyi üçün xəlq edib. Onları insanın doğru yolu tapması və kamala çatması yolunda qərar verib ki, dünyada və axirətdə xoşbəxt olsun və sonu Onun gözəl Cənnəti olan səadət yolunu qət etsin.

Bu kitab sizin bir neçə mühüm sualınıza cavab tapmağa çalışır:

- Haradan gəlmişəm?
- Haraya gedəcəm?
- Doğru yolu kimdən soruşmalıyam?
- Bu yolda mənə kim yoldaşlıq edə bilər?
- Məqsədə sağ-salamat çatmaq üçün yol azuqəsi olaraq özümlə nə götürməliyəm?

Ümid edirik ki, bu mərhələni də əvvəlki mərhələlər kimi başıuca keçəcək və öyrəndiklərinizə əməl etməklə hər an qarşınızda olan gözəl məqsədə daha da yaxınlaşacaqsınız.

Dərslərinizi yaxşı öyrənməyə çalışın. Öyrəndikləriniz haqqında düşünün və onların barəsində sinif yoldaşlarınızla danışın. Əgər təklifiniz olsa, hökmən onu bildirin. Bilin, Allah sizə elə bir güc verib ki, istəsəniz, hər bir işin öhdəsindən gələ bilərsiniz. Elə isə Uca Allahdan kömək istəyin və çalışmağa başlayın. Daha bir uğur üçün çalışın...

# Birinci fəsil: Allahı tanıma

Daha öncə Allahın bir sıra ad və xüsusiyyətləri ilə tanış olmuşuq. Öyrəndik ki, bütün varlıqları O yaradıb. Hər şeyi heyrətamiz bir hikmət və inanılmaz dəqiqlik əsasında xəlq edib. O, bütün yaratdıqlarını görür, onlara kömək edir. Onların duasını qəbul edir, şükür edənlərin nemətini daha da artırır.

Əvvəlki kitablarda olduğu kimi, bu kitabın da birinci fəsli Allahı tanıma mövzusuna həsr edilib.

Birinci dərsdə ("Güzəşt və bağışlama") Allahın bağışlayan olmasından danışılıb Onun sonsuz mərhəmətindən nümunələr qeyd olunur. Bu dərs onu da öyrədir ki, bizim başqalarına qarşı güzəştə getməyimiz bizi Allahın mərhəmətinə daha da yaxınlaşdırır.

İkinci dərsdə ("Hər şey öz yerində gözəldir") varlıqların yaradılışının bir-birindən fərqləndiyi qeyd edilir. Bildirilir ki, hikmət sahibi olan Allah bütün varlıqları eyni cür yaratmamışdır. Bu dərsdə həçinin də insanlar arasındakı bəzi fərqlərə də toxunulur.

# Birinci dərs

## Güzəşt və bağışlama

**Günahların üstünü örtən, bağışlayan**

Uzun zaman idi ki, daha yağış yağmırdı. Hər tərəfdə quraqlıq hökm sürür, əhalinin vəziyyəti getdikcə pisləşirdi.

Bütün çətinliklərinin səbəbinin günahlarında olduğunu artıq başa düşmüş camaat öz Peyğəmbərlərinin (ə) yanına gedib deyir:

- Ey Allahın peyğəmbəri, əgər yağış yağmasa, hamımız acından və susuzluqdan qırılacağıq. Biz nə edək?

- Kişili-qadınlı, böyüklü-kiçikli, qocalı-cavanlı hamınız toplaşın, şəhərin kənarına gedib Allahdan bağışlanmanız və yağış yağdırması üçün dua edək...

Camaat şəhərin kənarında açıq bir sahədə dua ilə məşğul olduğu bir vaxtda Allahın vəhy mələyi Peyğəmbərə (ə) nazil olub dedi: "Bu camaatın arasında böyük günahlar edən bir nəfər var. O hələ tövbə etməyib. Nə qədər ki o, camaatın arasındadır, onların duası qəbul olunmayacaq".

Sanki Allah bütün insanların tövbə edib günahlardan təmizlənməsini istəyirdi. Peyğəmbər (ə) vəziyyəti camaata izah etdi.

Həmin günahkar insan çox çətin anlar keçirməyə başladı. Camaat şəxsin kim olduğunu bilmək istəyirdi. Həmin adam camaatın arasından çıxıb getsəydi, abır-həyası gedəcək, hamı onun günahkar olduğunu biləcəkdi. Ondan sonra isə o, bir daha həmin şəhərdə yaşaya bilməyəcəkdi. Özünü çox yalnız hiss etdi. Başını aşağı salıb göz yaşı tökməyə başladı. Ürəyində Allaha dua edərək dedi: "Allahım, indi mənim səsimi təkcə Sən eşidirsən, ürəyimdən keçəni də bilirsən. Allahım, mən Səndən üzr istəyirəm. Söz verirəm ki, bir daha həmin günahları təkrar etməyəcəyəm".

Camaat hələ də günahkar şəxsin kim olduğunu öyrənməyə çalışdığı bir vaxtda birdən göy gurultusu səsini eşitdilər. Göy gurultusunun səsi onları sanki ayıltdı. Axı camaatın arasından heç kim ayrılıb getməmişdi! Bəs onda həmin günahkar şəxs kimdir?

Peyğəmbər Allahdan də eynilə bu sualı soruşdu. Allah tərəfindən ona belə cavab gəldi:

- Ey peyğəmbərimiz, həmin insan artıq günahkar deyil. Bəndəmiz tövbə edib Bizə tərəf döndü.

- Ey Allahım, onun kim olduğunu mənə bildir, heç olmasa mən onu tanıyım.

- O hələ günahkar olduğu zaman onun abır-həyasını qoruyub aradan aparmadıq, indi isə tövbə edib Bizə doğru döndüyü haldamı onun abır-həyasını aparaq?

## Sinif işi

1. Sizcə, Allahın yağış yağdırmasını yubatmasının ardınca hansı müsbət nəticə gələcəkdi?
2. Allahın bağışlamasına dair digər nümunələr qeyd edin.

Oxuduğumuz bu əhvalat sizə Allahın hansı adını xatırladır?

Uca Allahın adlarından biri "Qəffar"dır. Mənası "bağışlayan" deməkdir.

Yəqin, nə vaxtsa sizə də kimsə təsadüfən, ya da bilmədən bir pislik edib, haqqınızı tapdalayıb. Belə olan halda, siz ona qarşı hansı reaksiya nümayiş etdirmisiniz?

Bəzi insanlar başqalarının səhvini qətiyyən bağışlamaq istəmirlər. Bəziləri də var ki, başqalarının yalnız kiçik səhvlərinə göz yumurlar, böyük xətalarını isə bağışlaya bilmirlər.

Bağışlayan və mehriban olan Allah isə bəndələrin təkcə kiçik səhvlərini deyil, həm də böyük günahlarını, hətta dəfələrlə təkrar edilən günahlarını da bağışlayır. Sadəcə yetər ki, bəndə etdiyi pis əməlinə görə peşman olub bir daha həmin günaha bulaşmamaq qərarına gəlsin.[1]

1. Məlum məsələdir ki, əgər insanın boynunda qul haqqı vardırsa, belə olan halda tövbə etmək üçün təkcə peşmançılıq kifayət etməz. Belə ki, insan peşman olmaqla yanaşı camaatın haqqına düşəni sahiblərinə qaytarmalıdır.

Mehriban olan Allah bəndələrinin günahından keçdiyi kimi, bəndələrindən istəyir ki, onlar da başqalarının səhvlərinə göz yumsunlar.

*"Əfv edib (cəzalandırmaqdan) vaz keçsinlər! Məgər siz (bu yaxşılıq müqabilində) Allahın sizi (günahlarınızı) bağışlamasını istəmirsiniz? Allah (bəndələrini) bağışlayandır, rəhm edəndir!"* [1]

...وَلْيَعْفُوا
وَ لْيَصْفَحُوا
اَلا تُحِبّونَ اَن يَغفِرَ اللّٰهُ لَكُم
وَ اللّٰهُ غَفورٌ رَحيمٌ.

## Sinif işi

Heç kimin başqalarının səhvlərinə göz yummaq istəmədiyi bir cəmiyyətdə hansı vəziyyət yaranar?
Sinif yoldaşlarınızla söhbət edin. Gündəlik həyatda başqalarının səhvlərini bağışlayan insanlarla bağışlamayan insanların rəftarı arasında müqayisə aparın.

1. Nur surəsi, 22-ci ayə.

# Böyük güzəşt

Hündür boylu, iri sümüklü idi. Kufə bazarında mətin və qətiyyətli yeriyir, eyni zamanda addımlarını kiçik ataraq gedirdi. Günəşin yandırdığı üzündə əvvəlki döyüşlərdən yadigar qalmış çapıq onu daha da əzəmətli göstərirdi.

Bazarın adam çox olan hissəsində bir neçə nəfər bir-birilə söhbət edirdi. Bu zaman işi başqalarını güldürməkdən ibarət olan bir nəfər yerdən bir ovuc zibil götürüb gözünə sataşan və yaxınlığından keçən ilk adamın üstünə atdı. Yanındakıların uca səslə onun bu hərəkətinə gülməsi ətrafdakıların da diqqətini cəlb etdi.



Zibil ucaboylu kişinin çiyninə düşüb paltarını və üst-başını bulaşdırdı. Qaşlarının çatılması, geniş alnının qırışlanması onun möhkəm əsəbləşməsindən xəbər verirdi. Yerində dayanıb yumruqlarını bərk sıxdı. Hamının böyük bir qarşıdurmanın baş verəcəyini gözlədiyi halda, çox çəkmədi ki, ucaboylu kişi heç camaata tərəf baxmadan yoluna davam edərək onlardan uzaqlaşdı.

Orada olanlardan biri zibili atan şəxsə dedi: - Allahın sənə yazığı gəldi. Əgər o sənin üstünə gəlsəydi...

- O tək idi, biz isə bir neçə nəfər. Əgər aramızda qarşıdurma yaransaydı da, axırda özü peşman olacaqdı.

Uzaqdan bu hadisəni izləyən bazar satıcılarından biri tələsik özünü həmin adamların yanına çatdırıb dedi: - Heç bilirsiniz, kimə qarşı hörmətsizlik etdiniz!

- O da hər gün bu bazardan gəlib keçən minlərlə adi insandan biri idi. Sadəcə başqalarından bir qədər ucaboylu idi.

- Əgər onu tanısaydınız, belə gülməzdiniz. O, İslam ordusunun sərkərdəsi Malik Əştər idi.

Qəflətən gülüş səsləri kəsildi, hamının rəngi saraldı.

- Adı gələndə şirin də ürəyinə lərzə düşən Malik idi?! Adı gələndə düşmən pəhləvanların bədəni lərzəyə düşən Malik?! - Azacıq sükut etdikdən sonra dedi: - Vay mənim halıma! Mən necə böyük axmaqlıq etdim! O indi göstəriş verəcək ki, məni tutub möhkəm cəzalandırsınlar. Gərək gedib ondan üzr istəyəm. Lazım gələrsə, hətta əl-ayağına da düşüb yalavararam..."

Malik Əştərin ardınca getdi. Malik məscidə daxil oldu. O da yavaşca, qorxa-qorxa, titrəyərək məscidə girdi. Malik Əştər namaz qılmağa başlayanda həmin adam rahat bir nəfəs alıb onun namazını bitirməsini gözlədi.

O, utancaq halda başını aşağı salıb Malikin yanında oturdu. Titrək səslə dedi: "Mən bazarda sizə qarşı hörmətsizlik edən adamam. Sizdən üzr istəyir və xahiş edirəm ki, məni cəzalandırmaq fikrindən daşınasınız".

Malik cavabında dedi: "Yanlış düşünürsən. And olsun Allaha, mən məscidə sadəcə sənin üçün dua etməyə gəldim! Mən sənin səbəbsiz yerə insanları incitdiyini görəndə sənə görə narahat oldum. Buna görə də məscidə gəldim ki, dua edib Allahdan səni doğru yola yönəltməsini istəyim".

Bu, Əmirəl-möminin Əlinin (əleyhissəlam) gözəl İslam əxlaqı ilə tərbiyə almış dostlarından birinin davranışı idi.[1]

❀❀❀

Başqalarının səhvini bağışlayıb güzəştə getmək təkcə Allahın bəyənib razı qaldığı bir əməl deyil. Eyni zamanda, insan həmişə başqaları tərəfindən sevilib hörmət sahibi olur. Əgər insan başqalarının səhvini bağışlayıb güzəştə getmək əvəzinə intiqam almaq fikrinə düşərsə, onda belə bir üstünlüyü əldən vermiş olacaq. Deməli, əsəbləşdiyi zaman başqalarının səhvlərinə onlardan intiqam almaqla cavab verərək özünü sakitləşdirən insan yalnız öz ziyanına hərəkət edib Allahın böyük mükafatından məhrum olur.

---

1. Məcmuətul-vəram, c. 1, səh. 2.

Həzrət Muhəmməd Peyğəmbər (səlləllahu əleyhi və alih) buyurub:

"Güzəştə gedən olun! Şübhəsiz ki, güzəştə getmək bəndəni ucaldıb. hörmətli edər. Elə isə bir-birinizə qarşı güzəştə gedin ki, Allah sizi ucaldıb hörmət sahibi etsin!"[1]

Nəzərə almaq lazımdır ki, heç də həmişə başqalarının səhvlərinə göz yumulmamalıdır. Yalnız o yerdə başqasının səhvini bağışlamaq lazımdır ki, qarşı tərəf öz səhvini başa düşüb etdiyi işə görə peşman olsun. Bir daha həmin işi təkrarlamaq fikrinə düşməsin. Belə olan halda, bizim onun səhvinə göz yummağımız onun islah olunması ilə nəticələnir. Lakin səhvini qəbul etməyən, öz yanlış əməlinə davam etmək fikrində israrlı olan şəxsə qarşı isə güzəştə gedilməməlidir. Belə ki, ona güzəştə getmək onu daha da cəsarətləndirər və səhvlərini aradan qaldırmaq fikrindən daşındırar.

## Sinif işi

Aşağıdakı cədvəli verilmiş nümunəyə uyğun şəkildə doldurun:

| **Başqalarının səhvinə göz yummağın bəyənildiyi yerlər** | **Başqalarının səhvinə göz yumulmayan yerlər** |
|---|---|
| Səhv edən insan öz səhvini başa düşmüşdür. | |
| | |
| | Ümumiyyətlə, etdiyi işin səhv olduğunu bilmir. |
| Səhvinə göz yummaq onu doğru yola yönəldir. | |
| | Səhvinə göz yummaq digər nadan insanların da səhv etməsinə səbəb olur. |

## Özünü sına

1. "Qəffar nə deməkdir? Nə üçün mehriban olan Allaha "Qəffar" deyilir?
2. Başqalarının səhvini bağışlamağın nə kimi faydası olduğunu izah edin.

1. Kafi, c. 2, səh. 108.

# İlahi!

***Allahım!***

*Ey istək və arzularımın sonu!*

*Səhvlərim mənə zillət libası geyindirmişdir!*

*Günahlar qəlbimi öldürmüşdür. Tövbə ilə Sən Özün mənim qəlbimi dirilt!*

*Allahım, günahlarımı Səndən başqa bağışlayan tapmadım.*

*Çatışmazlıqlarımı Səndən başqa aradan qaldıran görmədim.*

*Əgər Sən məni qapından qovsan, mən kimə sığınaram?!*

*Sən məni Özündən qovsan, mən kimin üstünə gedərəm?!*

*Allahım, Səndən istəyirəm!*

*Ey böyük günahları bağışlayan!*

*İnsanı məhv edən günahlarımı bağışla!*

*İnsanı rüsvay edən gizli xətalarımın üstünü ört!*

*Ey mehribanların ən mehribanı!..*

---

1. İmam Səccadın "Təvvabin" münacatından seçmələr, Biharul-ənvar, c. 91, səh. 143

# İkinci dərs

## Hər şey öz yerində gözəldir

Müxtəlif növ rənglər arasında hansı daha gözəldir?

Mavi? Yaşıl? Çəhrayı? Yoxsa ...?

Təsəvvür edin ki, dünyadakı bütün dənizlər, bütün dağlar yaşıl rəngdədir. Torpaqlar, səma, yer, evlər, paltarlar, hətta bütün insanların və heyvanların dərisinin rəngi də yaşıldır. Belə olan halda, deyə bilərikmi ki, dünya daha gözəldir?

Dünyada hər şey yeknəsəq olsa, onda bu, insanları yorar, heç kimə xoş görünməz, cəlbedici olmaz. Yeknəsəqlik təkcə rənglərə aid deyil. Təsəvvür edin ki, yer kürəsi başdan-başa yalnız meşədən ibarətdir. yaxud yeməklərin hamısı eyni daddadır və ya hava həmişə isti, ya da həmişə soyuq olur. Bu halların heç birində həyat gözəl ola bilməz.

## Sinif işi

Sizcə, ətraf mühitimizi bu qədər gözəl və cəlbedici göstərən nədir?

**Hikmətli fərqliliklər**

Sənin başının üzərindəki nədir belə? Necə də pis görünür! Doğrudan da sənin kimi heyvanlar bu meşənin gözəlliyini pozur ...

Bu, meşədə ilk dəfə böyük bir maral görmüş gözəl tovuzquşunun dediyi sözlərdir. O, dayanmadan maralın qarşısında o tərəf-bu tərəfə geçərək quyruğundakı lələklərin gözəlliyini nümayiş etdirirdi. Arada da maralın başındakı buynuzlara və iri ayaqlarına işarə edərək ona rişxənd edirdi.



Tovuzquşu maralı o qədər pislədi ki, axırda maral özü də inanmağa başladı ki, o eybəcərdir. Öz-özünə dedi: "O, düz deyir. Kaş bu eybəcər və iri buynuzlarımın və böyük ayaqlarımın əvəzinə mənim də gözəl və rəngarəng görünüşüm olaydı!.."

Bu vaxt bir ovçunun gözü onların hər ikisinə sataşdı. Əlində tutduğu torla yavaş-yavaş onlara yaxınlaşdı. Ovçu öz-özünə dedi: "Mən bu torla onların ikisini də birlikdə tuta bilmərəm. Buna görə də onlardan birini seçməliyəm. Maral! Bəli, məhz onu seçməliyəm, çünki o böyükdür, əti də çoxdur. Ancaq yox, onun iri buynuzlarına bax. Əgər iri buynuzları ilə qəflətən mənə bir zərbə vursa, mütləq məni zədələyər. Bundan əlavə, əgər mən onu tora sala bilməsəm, o, böyük və qüvvətli ayaqları ilə dərhal qaçıb məndən uzaqlaşar, mən isə onun heç tozuna da çata bilmərəm. Ona görə də yaxşısı budur ki, onu tutmaq fikrimdən daşınım ...

## Sinif işi

1. Bu əhvalatda maralı ölüm təhlükəsindən qurtaran nə oldu?
2. Maralla tovuzquşunun əhvalatından hansı nəticəyə gəlmək olar?

**Hikmət sahibi olan Allah buyurur:**

"Bəzən xoşlamadığınız bir şey sizin üçün xeyirli, bəzən də xoşladığınız bir şey sizin üçün zərərli ola bilər. (Onu) Allah bilir, siz bilməzsiniz".[1]

عَسىٰ اَنْ تَكرَهوا شَيئًا
وَ هُوَ خَيرٌ لَكُم
وَ عَسىٰ اَن تُحِبّوا شَيئًا
وَ هُوَ شَرٌّ لَكُم
وَاللّٰهُ يَعلَمُ
وَ اَنتُم لا تَعلَمُونَ.

Biz insanlar öz bacarıqlarımızı başqaları ilə müqayisə etdikdə, adətən özümüzdəki dəyərli imkanları nəzərə almır, yalnız başqalarında olub özümüzdə olmayanlara fikir veririk. Lakin əgər həqiqəti nəzərə alsaq, görərik ki, bütün insanların zəif cəhətləri ilə yanaşı başqalarında olmayan güclü cəhətləri də vardır. İndi ixtiyarımızda olanlarınmı, yoxsa arzuladıqlarımızın həyatımız üçün daha faydalı olduğunu anlamağımız üçün azacıq düşünməyimiz yetər.

## Sinif işi

**Dostlarınızın köməyi ilə aşağıdakı cədvəli tamamlayın:**

| Xoşlamasaq da, əslində, bizim xeyrimizə olan şeylər | Xoşlasaq da, əslində, bizim ziyanımıza olan şeylər |
|---|---|
| | |
| | |
| | |

Oxuduğumuz biz insanların yaradılışındakı fərqliliyin səbəblərindən biridir. Bu fərqliliyin başqa səbəbləri də vardır. İndi onlardan bəzisini qeyd edirik:

1. Bəqərə surəsi, 216-cı ayə.

## Çətinliklər arasında möhkəmlənmə

Şübhəsiz ki, indiyədək bir çox yarışlarda qalib gəlmiş qəhrəmanların boynundan asılmış parıldayan qızıl medalları siz də görmüsünüz. O medalın qalib gələn şəxsin boynundan asılması üçün hansı mərhələləri keçdiyini heç düşünmüsünüzmü?

Qızılı min illər boyunca qaldığı mədənlərdən çox çətinliklə yığırlar. Mədəndən toplanıldıqdan sonra onu zavoda aparıb çoxlu zərbələr endirməklə onu parçalayırlar. Sonra onu isti od kürəsinə salırlar. Od kürəsində onu o qədər qızdırırlar ki, bütün qarışıqları ondan ayrılır, bunun ardından parlaq metal üzə çıxır. Yalnız bütün bu proseslərdən sonra onu mahir bir zərgərə verirlər ki, kiçik çəkicin yüngül zərbələri ilə onu döyəcləyərək gözəl və parlaq bir medal hazırlasın.

İndi özünüz deyin, əgər qızıl daşı o qədər çətin mərhələlərdən keçməsəydi, özünə elə dəyər qazana bilib qaliblərin boynundan asıla bilərdimi?!

Həzrət Peyğəmbər (s) buyurub:

"İnsanlar qızıl və gümüş mədənləri kimidirlər".[1]

Deməli, həyatın çətinlikləri də bizim daxilimizdəki dəyərli gövhəri üzə çıxarıb onu qatqılardan saflaşdırır, bizi bəşəriyyət tarixinin qəhrəmanları, yəni Peyğəmbərlər və övliyalarla yoldaşlıq etmək şərəfinə çatdırır.

Allah insanlar arasındakı fərqlilik barəsində buyurur:

"Əgər Allah istəsəydi, sizi (eyni şəriətə tabe) vahid bir ümmət edərdi. Lakin (bu müxtəliflik) Allahın verdikləri ilə sizi imtahan etməsi üçündür. Elə isə yaxşı işlər görməkdə bir-birinizi ötməyə çalışın (bir-birinizlə yarışın). Hamınızın axır dönüşü Allahadır. (Allah) aranızda ixtilaf doğuran məsələlər barəsində sizə xəbər verəcəkdir!"[2]

1. Mən la yəhzuruhul-fəqih, c. 4, səh. 380.
2. Maidə surəsi, 48-ci ayə.

**Damı hündür olanın ...**

İnsanların bacarıqlarını bir-birilə müqayisə etdikdə görürük ki, onların bəzisi üçün yaxşı işləri yerinə yetirmək başqaları ilə müqayisədə daha asandır. Məsələn, maddi vəziyyəti yaxşı olan insan çox asanlıqla onlarla yoxsula yardım edə, dəfələrlə həcc ziyarətinə gedə, ramazan ayında oruc tutmuş bir çox insana iftar qonaqlığı verə bilər. Bunlar yaxşı və bəyənilmiş işlər olsa da, onları həyata keçirmək hamı üçün mümkün deyil.

Sizcə, deyə bilərikmi ki, başqa insanlar bu cür gözəl işlərin savabından məhrum olurlar?

Hikmət sahibi olan Allah Qurani-kərimdə buyurur:

لا يُكَلِّفُ اللَّهُ نَفساً إلا وُسْعَها...

"Allah hər kəsi yalnız qüvvəsi yetdiyi qədər yükləyər".

(Bəqərə surəsi, 286-cı ayə)

Bu ayədən məlum olur ki, Uca Yaradanımız hamıdan eyni səviyyədə iş istəmir. İnsanın Allah qarşısındakı məsuliyyəti ixtiyarındakı nemətlər və şəxsi bacarığı miqdarındadır.

Rəbbimiz heç kimdən bacardığından artığını tələb etmir. Məsələn, Allah istəmir ki, insanlar bütün vaxtlarını yalnız namaz qılmağa sərf etsinlər. Yaxud həcc o vaxt insana vacib olur ki, ora gedə bilmək üçün onun maddi və fiziki imkanı olsun. Oruc o insana vacibdir ki, onu tutmaq üçün səhhəti ona imkan versin və hər hansı bir ziyanı olmasın. Bir çox belə misallar çəkə bilərik.

## Özünü sına

1. Hikmət sahibi olan Allahın insanların hamısını eyni cür yaratmamasının səbəbini izah edin.
2. Biri digərindən daha dərrakəli olan iki qardaşı təsəvvür edin. Deyə bilərikmi ki, onların yaradılışı ədalətli olmayıb? Niyə?
3. Allah insanlar arasındakı fərqliliyin hikmətini nədə görür?

# İkinci fəsil: Yol və azuqə

Alim və mehriban olan Allah bizi yaxşı işlər görüb pis işlərdən çəkinərək öz cənnətimizi qurmaq üçün yaratmışdır. Əvvəlki kitablarda Allahın Cənnət səfərinə doğru aparan yolda gözəl azuqə ola biləcək bəzi işlərlə tanış olmuşuq. Ata-anaya yaxşılıq etmək, namaz qılmaq, oruc tutmaq, övliyaları ziyarət etmək, elm öyrənmək, doğru danışmaq belə gözəl azuqələrdəndir.

Üçüncü dərs (**"Bəndəlik şərəfi"**) bizə insanı Cənnətə doğru aparan əsas hərəkətin nə vaxtdan başladığını göstərir. Bizə "həddi-büluğ dövrü" adlandırılan bu müddət ərzində hansı işləri görməli, hansı işlərdən çəkinməli olduğumuzu öyrədir. Bu dərs eyni zamanda dinin əsas öndərlərini və onların əsas xüsusiyyətlərini də bizə tanıtdırır.

Dördüncü dərs (**"Dəstəmaz və təyəmmüm"**) dəstəmazın doğru alınması qaydalarını və onun şərtlərini bizə izah edir. Burada həm də dəstəmaz əvəzinə təyəmmüm alınmasına da toxunulur, təyəmmümün alınma qaydası izah edilir.

Beşinci dərs (**"Namazı batil edən amillər"**) bizə hansı işlərin namazı batil etdiyini öyrədir.

# Üçüncü dərs

## Bəndəlik şərəfi

### Yadda qalası bir gün



- Oğlum, bugünkü münasibətlə əlaqədar olaraq bu hədiyyəni məndən və anandan qəbul et!

Öz-özümə dedim ki, axı bu gün nə günüdür?! Hədiyyəni alıb böyük maraqla açmağa başladım. Qırmızı əqiq qaşlı gözəl bir gümüş üzük idi.

- Çox sağ olun. Düzünü deyim ki, mən hələ bu günün nə günü olduğunu və hədiyyənin hansı münasibətlə verildiyini bilmirəm.

- Bu gün sənin həyatında olduqca əlamətdar və yadda qalası bir gündür. Sən bu gün həddi-büluğ yaşına çatırsan!

- Axı mənim həddi-büluğ yaşına çatmağıma hələ bir neçə ay qalıb.

- Əgər miladi təqvimi ilə hesablasan, bəli, hələ bir neçə ay qalıb. Ancaq həddi-büluğ dövrü hicri-qəməri təqvimi ilə hesablanır. Bu gün artıq sən uşaqlıq dövrünü başa vurub həyatının önəmli bir mərhələsinə qədəm qoyursan. Bu mərhələdə sənin öhdənə yeni məsuliyyət və öhdəliklər düşür.

Öz-özümə dedim: "Doğrudur. Bu gün üzərimə düşən öhdəliklərimi ciddi şəkildə yerinə yetirməliyəm. Vaxtı-vaxtında namazlarımı qılmalıyam. Bu gündən etibarən Allah məni Öz bəndələri sırasında görür".

Olduqca gözəl hisslər keçirirdim. Üzüyümü barmağıma taxıb baxdım. Hiss edirdim ki, daha da önəmli olmuşam və şəxsiyyətim rəsmi olaraq qəbul edilib. Dodağımın altında üzüyümə dedim: "Səni qoruyub saxlayacağam. Sən çox əlamətdar bir günün yadigarısan. Səni saxlayacağam ki, bu günü heç vaxt unutmayım, nə bu günü, nə də üzərimə düşən öhdəliklərimi!.."

Şəriət baxımından həddi-büluğa çatmaq dini öhdəliklərin başlanğıcıdır, yəni hər bir oğlan və qız həddi-büluğa çatdıqdan sonra böyüklər kimi namaz, oruc, hicab və bu kimi dini göstərişlərə əməl etməlidir.

Dini öhdəliklərin icrası əvvəldə bir qədər çətin görünə bilər:

- Hər gün dan yeri söküldükdə sübh namazını qılmaq üçün yuxudan oyanmaq lazımdır;
- Ramazan ayında səhərdən başlayaraq axşama qədər oruc tutmaq lazımdır;
- Naməhrəmlə qarşılaşdıqda baxışlarımızı onlardan yayındırmalıyıq və ...

Əgər Allah bizi sevirsə (bizi sevdiyinə qətiyyən şübhə etmirik), bəs onda nə üçün bu cür dini öhdəlikləri bizə vacib etmişdir?

Rəqiblərinə qalib gələrək qızıl medal qazanması üçün məşqçisi tərəfindən ağır məşqlər etməyə məcbur edilmiş bir idmançını təsəvvür edin. Həmin idmançı məşqlərin çətinliyinə görə məşqçisinə etiraz edir? Yoxsa yarışda qələbə qazanmaq üçün ağır məşqlərin vacib olduğunu başa düşərək onları yerinə yetirib məşqçisinə də təşəkkür edir?

Biz insanlar da şeytanın vəsvəsələri qarşısında tab gətirib Allahın bizim üçün nəzərdə tutduğu mükafata çata bilək deyə, Allah bizə dini öhdəlikləri vacib etmişdir. O bizi yaratmış, güclü və zəif cəhətlərimizi də bizim özümüzdən daha yaxşı bilir. İkinci dərsdə oxuduğumuz kimi, nələrin bizim xeyrimizə, nələrin isə bizim ziyanımıza olduğunu Allah daha yaxşı bilir. Bizim nəyisə xoşlayıb, nəyisə xoşlamamağımız həmin şeyin yaxşı və ya pis olmasının göstəricisi ola bilməz.

## Sinif işi

Sinif yoldaşlarınızın köməyi ilə yerinə yetirilməsi çətin, lakin insanın inkişafına səbəb olan digər işləri sadalayın.

### Həddi-büluğa çatmağın əlamətləri

Dini baxımdan həddi-büluğa çatmağın üç əlaməti vardır. Bu üç əlamətdən hər hansı biri insanda görünərsə, o, həddi-büluğa çatmış sayılır:

1. Bədənin bəzi hissələrində tük çıxması;
2. İnsanda bəzi hormonların fəallaşması. Bunun əlamətləri oğlanlarla qızlarda fərqli olur.
3. Həddi-büluğ yaşına çatmaq. Bu yaş oğlanlarda hicri-qəməri tarixi ilə on beş[1], qızlarda isə doqquz yaşın[2] tamamlanmasıdır.

Həddi-büluğa yetişmək nəticəsində insanda fiziki dəyişikliklə yanaşı, bir sıra digər dəyişikliklər də baş verir. Məsələn:

- Səsin dəyişilərək daha da qalınlaşması;
- Yuxu və yemək rejiminin dəyişilməsi;
- Çəkinin dəyişilməsi;
- Boyun gözlənilmədən artması. Bu proses adətən ayaq sümüyünün sürətli inkişaf etməsi ilə başlayır.
- Üz və bədənin dərisində güclü səpgilərin əmələ gəlməsi;
- Üzdə və digər nahiyələrdə dəyişikliklərin baş verməsi.

Əslində bu dəyişikliklər ötəri xarakter daşıyır və qısa müddət ərzində bədən öz təbii formasına qayıdır. Həyatın bu mərhələsini arxada qoymağın ən gözəl yolu dini və tibbi göstərişlərə əməl etməkdir.

Həddi-büluğ dövrünün çatması ilə insanda fiziki dəyişikliklərlə yanaşı, psixoloji dəyişikliklər də əmələ gəlir. Məsələn:

- İnsanın beynində yeni suallar yaranır. Bu mərhələdə yeniyetmələr əvvəlki bilgiləri ilə bağlı tərəddüd edirlər, bütün məlumat və inanclarını yeni bir məntiq üzrə tənzimləməyə çalışırlar. Məhz bu xüsusiyyətə görə İslam dini tövsiyə edir ki, bütün insanlar dinin təməl prinsiplərini öz idrak və düşüncələrinə əsasən formalaşdırmalı və belə məsələlərdə təqliddən uzaq olmalıdırlar.

---

1. Miladi təqvimi ilə bu yaş oğlanlarda on dörd yaş altı ay on beş gündür.
2. Miladi təqvimi ilə bu yaş qızlarda səkkiz yaş, səkkiz ay iyirmi bir gündür.

- Sərbəstlik hissi daha da artır. Yeniyetmələr belə hesab edirlər ki, artıq düşüncələrini müstəqil şəkildə ifadə edə bilərlər. Buna görə də istəyirlər ki, hamı onların fikrinə hörmət qoyub sözlərinə əhəmiyyət versinlər.

Bu məqamda ailələr yeniyetmələrə daha artıq diqqət göstərməli, onların da fikirlərinə önəm verməlidirlər. Əks təqdirdə yeniyetmələr başqaları ilə öz ailələrinədən daha çox ünsiyyət quracaqlar.

- Bu mərhələdə yeniyetmələrin məsuliyyət hissi daha da artır. Bu vaxta qədər özünü başqalarının himayəsində hiss edən yeniyetmə artıq özü başqalarını himayəsi altına alıb məsuliyyət hiss etmək istəyir.

Bütün bunlar Allahın insanlara verdiyi və onların şəxsiyyətini formalaşdıran təbii və fitri xüsusiyyətlərdir. Bu xüsusiyyətlərə qarşı düzgün davranmasaq və ya ifrata varsaq, bir çox ideoloji və əxlaqi problemlərlə qarşılaşa bilərik. Məsələn, əgər bəzi dini suallara cavab tapmaqdan ötrü bilgisi olmayan və ya yanlış inanc sahibi olan insanlara müraciət edilərsə, azğınlıqdan başqa nəticə əldə edilməyəcək.

## Sinif işi

Həddi-büluğ dövründəki dəyişiklikləri nəzərə alaraq, müəllim və dostlarınızın köməyi ilə bu yaranan dəyişikliklərlə bağlı düzgün davranış tərzini qeyd edin.

| Həddi-büluğ dövrünün dəyişiklikləri | Bu dəyişikliklə bağlı düzgün davranış |
|---|---|
| 1. Üzdə yaranan dəyişikliklər | |
| 2. Üz və bədənin dərisində səpgilərin əmələ gəlməsi | |
| 3. İnsanın beynində yeni sualların yaranması | |
| 4. Sərbəstlik istəyinin daha da artması | |
| 5. Daha çox məsuliyyət hiss etmək | |

**Dini öhdəlikləri yerinə yetirmək üçün hazırlıq**

Həddi-büluğa çatmazdan qabaq dini öhdəlikləri yerinə yetirmək vacib deyil. Ancaq yaxşı olar ki, insan hələ həddi-büluğa yetişməzdən öncə ata-ananın köməyi ilə dini öhdəliklərini öyrənsin, bu öhdəlikləri icra etməyi məşq edib savab qazanmaqla yanaşı, eyni zamanda, həmin işləri görmək üçün lazımi şəkildə hazır olsun.

Həddi-büluğa çatmazdan qabaq dini öhdəliklərin təkrar edilməsi o qədər önəmlidir ki, Əhli-beyt (əleyhimussəlam) öz övladlarını hələ uşaq yaşlarından dini öhdəliklərlə tanış edir, onlardan istəyirdilər ki, həmin öhdəliklərə bacardıqları qədər əməl etsinlər.[1]

İmam Sadiq (ə) yeniyetməlik dövründə edilən ibadətin əhəmiyyətinə toxunaraq buyurmuşdur:

*"Allah dərgahında məxluqatın ən dəyərlisi gəncliyini Allaha itaət yolunda sərf edən yetkin gəncdir. Belə bəndəsi ilə Allah mələklər qarşısında fəxr edərək buyurur ki, budur Mənim əsl bəndəm!"*[2]

## Özünü sına

1. Nə üçün həddi-büluğa çatmağı əlamətdar bir hadisə kimi qeyd edirik?
2. Həddi-büluğa çatmağın əlamətlərini qısaca olaraq izah edin.
3. Dini öhdəlikləri nə vaxtdan öyrənməyə başlamaq lazımdır? Nə üçün?

1. Kafi, c. 3, səh. 409.
2. Əlamuddin, səh. 120.



# Dördüncü dərs

## Dəstəmaz və təyəmmüm



Həzrət Muhəmməd Peyğəmbər (s) öz səhabələrindən birinə belə buyurmuşdur:

*“Çox dəstəmaz al ki, Allah ömrünü uzatsın. Əgər mümkün olarsa, gecə-gündüz dəstəmazlı ol. Gecəni dəstəmazlı yatan şəxsin yatağı səhərə qədər onun üçün məscid, yuxusu isə ibadət sayılar”.*[1]

1.Vəsailüş-şiə, c. 1, səh. 383; Müstədrəkül-vəsail, c. 1, səh. 297.

- ✓ Namaz qılmaq istədikdə
- ✓ Əlimizi Quranın yazısına vurmaq istədikdə
- ✓ Həccə gedib Kəbə evinin vacib təvafını yerinə yetirmək istədikdə
- ✓ Allahın adlarından birinə (hansı dildə olur olsun) əl vurmaq istədikdə.

Sadalanmış bütün bu hallarda dəstəmazlı olmaq vacibdir.

Sadalanmış hallardan başqa bir çox hallarda isə dəstəmazlı olmaq müstəhəbdir. Məsələn, Quran oxuyarkən, üzərimizdə Quran gəzdirərkən, məsum İmamların (ə) ziyarətində olarkən, məscidə gedərkən, qəbristanlıq ziyarətinə gedərkən, hətta yatarkən dəstəmazlı olmaq müstəhəb və böyük savabdır.

**Düzgün dəstəmazın şərtləri hansılardır?**

Dəstəmaz almaq istəyən şəxs dəstəmaz almağın düzgün qaydasını bilməklə yanaşı, bir sıra məsələlərə də diqqət yetirməlidir. Bunlar "Düzgün dəstəmazın şərtləri" adlanır. Həmin şərtlər aşağıdakılardır:

**1. Dəstəmaz suyunun pak olması:** Dəstəmaz alacağımız su mütləq pak olmalıdır. Əgər dəstəmaz aldığımız suyun murdar olduğunu bilməsək və ya unutsaq, aldığımız dəstəmaz batil olur.

**2. Dəstəmaz suyunun xalis olması:** Bu məsələni izah etməzdən öncə bilməliyik ki, sular iki hissəyə bölünür: xalis su və qarışıq su.

Xalis su o suya deyilir ki, heç nəyə qarışmasın və yaxud heç nədən alınmasın. Məsələn, yağış suyu, bulaq suyu, çay suyu, dəniz suyu və borular vasitəsilə evlərə çəkilmiş sular xalis su hesab edilir.

Qarışıq su isə o suya deyilir ki, xalis olmayıb başqa şeydən alınsın (məsələn, meyvə suyu və ya gül suyu kimi), yaxud başqa bir şeylə qarışıq olsun (məsələn, artıq "su" adlanmayacaq qədər çoxlu duzla və ya torpaqla qarışmış su).

Dəstəmaz yalnız xalis su ilə alındıqda düzgün sayılır.

**3. Dəstəmaz suyunun və ya su qabının mübah olması:** Dəstəmaz aldığımız su mütləq mübah olmalıdır.

Daha dəqiq desək, su öz şəxsi malımız olmalıdır. Əgər başqasınındırsa, dəstəmaz almağımıza razılıq verməlidir. Deməli,

qəsb edilmiş sudan istifadə etmək haram, həmin su ilə alınan dəstəmaz isə batil sayılır. Ümumi yerlərdə istifadəyə verilmiş su ilə dəstəmaz almaq olar.

Qeyd etmək lazımdır ki, dəstəmaz aldığımız suyun qabı da qəsbi olmamalıdır. Yəni, əgər dəstəmaz almaq üçün hər hansı bir qabdan istifadə ediriksə, qabın sahibi buna razılıq verməlidir. Əgər sahibinin razılıq vermədiyi qab ilə dəstəmaz alınarsa, bu dəstəmaz batil hesab olunar.

**4. Dəstəməz üzvlərinin pak olması:** Əgər dəstəmaz alarkən insanın üz, əllər, baş və ayaqların üstü - bunlardan hər hansı biri murdar olarsa, əvvəlcə murdar olan üzv paklanmalı, yalnız ondan sonra dəstəmaz alınmalıdır. Murdar olan üzvü paklamadan dəstəmaz alınarsa, dəstəmaz batil sayılar.

**5. Dəstəmaz üzvlərində hər hansı bir maneənin olmaması:** Dəstəmaz alarkən dəstəmaz üzvlərinə nə isə yapşıb suyun həmin hissəyə dəyməsinə mane olarsa (məsələn, dəriyə hopan həddən artıq yağlı kremlər və yaxud dırnağın üzərinə vurulan dırnaq boyası kimi kimi), dəstəmaz batil olar.

**6. Ardıcıllıq: Dəstəmaz bütün mərhələləri ardıcıllıqla yerinə yetirilməlidir.**

Belə ki, dəstəmaz almaq üçün niyyət etdikdən əvvəl üz, sonra dirsəkdən barmaqların ucuna qədər yuxarıdan aşağıya doğru sağ əl, sonra isə eyni qaydada sol əl yuyulmalıdır. Bundan sonra əlin nəmliyi ilə başa məsh çəkilməlidir. Ondan sonra sağ əlin nəmliyi ilə sağ ayağın üzərinə, sol əlin nəmliyi ilə də sol ayağın üzərinə məsh çəkilməlidir.

**7. Fasiləsizlik:** Dəstəmaz alarkən bir üzvlə digər üzv arasında fasilə verilməməlidir. Əgər bir üzvlə digər üzv arasında, sanki başqa işlə məşğul oluruq görüntüsü yaradacaq qədər fasilə yaranarsa, məsələn, dəstəmaz alarkən kimsə telefonla danışmağa başlayarsa, dəstəmaz batil sayılar.

**8. Allaha yaxınlaşmaq niyyəti:** Dəstəmaz yalnız Allaha yaxınlaşmaq niyyəti ilə alınmalıdır. Dəstəmazın hamısı və yaxud bir hissəsi də Allaha yaxınlaşmaqdan başqa bir niyyətlə alınarsa, dəstəmaz batil sayılar. Dəstəmaz alarkən niyyəti dildə demək vacib deyil, sadəcə ürəkdən keşirilməsi kifayət edir.

## Bir neçə mühüm məsələ

**1)** Qadınlar elə yerdə dəstəmaz almalıdırlar ki, naməhrəm kişilər onların bədənini görməsinlər. Hərçənd bu iş dəstəmazı batil etmir.

**2)** İnsanın dırnağı təbii ölçüdən artıq uzun olarsa, dırnağın altına yığılmış çirk dəstəmaz almazdan qabaq təmizlənməlidir.

**3)** Xəstəlik və yaxud hər hansı bir başqa problem üzündən özü dəstəmaz ala bilməyən şəxs bir nəfərdən bu işdə ona kömək etməsini istəməlidir. Belə olan halda, insan özü dəstəmaz niyyəti etməli və hər hansı dəstəmaz üzvünə aid əməli özü yerinə yetirə bilərsə, onu etməlidir.

**4)** Dəstəmaz başa çatmazdan qabaq yuyulmuş və ya məsh çəkilmiş üzv murdar olarsa, dəstəmaz doğrudur. Lakin namaz üçün murdar olmuş həmin üzvü paklamaq lazımdır.

**5)** Dəstəmaz aldıqdan sonra insan dəstəmaz üzvlərində suyun yetişməsinin qarşısını alan bir maneə görərsə və onun dəstəmaz alarkənmi, yoxsa dəstəmazdan sonra meydana gəldiyini bilməzsə, dəstəmazı doğrudur.

**6)** Allahın, yaxud Peyğəmbərlərdən və ya İmamlardan (ə) birinin adının yazıldığı boyunbağı və ya bu kimi zinət əşyalarının bədənə təmas edəcəyi təqdirdə dəstəmazlı olmaq vacibdir.

## Təyəmmüm

Elə hallar vardır ki, dəstəmaz və ya qüsl əvəzinə təyəmmüm edilməlidir. Həmin hallar aşağıdakılardır:

1.Su tapmaq mümkün olmadıqda; məsələn, kimsə susuz bir çöldə və yaxud dağda olduqda.

2. Sudan istifadə etmək zərərli olduqda;

3. Su qəsbi, yaxud murdar və ya həddən artıq torpaqla qarışıq olduqda;

4. Su həddən artıq az olduqda və onunla dəstəmaz alınacağı təqdirdə insanın susuzluqdan çətinliyə düşəcəyi halda;

5. Dəstəmaz almaq üçün kifayət qədər vaxt olmadıqda və dəstəmaz alınacağı təqdirdə namazın qəzaya gedəcəyi halda.

İlk dörd halda insan yalnız o vaxt təyəmmüm edə bilər ki, namaz vaxtının başa çatacağına qədər mövcud vəziyyətin onun üçün dəyişməyəcəyinə əmin olsun.

Təyəmmümə başlamazdan öncə niyyət etməliyik ki, Allah rizası üçün dəstəmaz və ya qüsl əvəzinə təyəmmüm edirik.

Sonra hər iki əlin ovucunu barmaqlarla birlikdə pak torpağa vururuq.

Sonra əlləri alnın yuxarı hissəsinə qoyub qaşların və burunun üstünə qədər aşağı çəkirik.[1]

Sonra sol əlin içəri hissəsini sağ əlin üstünə qoyub biləkdən barmaqların ucuna qədər çəkirik.

Nəhayət, sağ əlin içəri hissəsini sol əlin üstünə qoyub biləkdən barmaqların ucuna qədər çəkirik.




1.Təyəmmümdə burnun üstünə əl sürtmək vacib deyil.

## Sinif işi

A) Aşağıda verilmiş hallardan hansında dəstəmazın doğru, hansında batil olduğunu qeyd edərək əsaslandırın.
* İsti yay günündə insan Allah rızası üçün dəstəmaz alır, eyni zamanda sərinləyir.
* İnsan başqalarının gözü qarşısında dəstəmaz alır ki, onu tərifləsinlər.
* İnsan səfərdə olduğu zaman axar çayın suyu ilə dəstəmaz alır.
* İnsan dəstəmaz alarkən başına məsh çəkmək istədikdə qəflətən burnundan qan açılıb üzünə axır.
* İnsan bel ağrısı səbəbindən əyilib ayaqlarına məsh çəkə bilmədiyi üçün qardaşından xahiş edir ki, dəstəmaz almaqda əvvəldən axıradək ona kömək etsin.
B) Müəlliminizin gözü qarşısında dəstəmaz alın və mümkün səhvlərinizə düzəliş verməsini istəyin.

Dəstəmaz və təyəmmümü batil edən bəzi əməllər aşağıdakılardır:
1. İnsandan sidik, nəcis və ya mədə qazının çıxması;
2. Yuxulamaq (gözün görməyib qulağın eşitməyəcəyi həddə);
3. Ağlın müvəqqəti, yaxud da həmişəlik başdan çıxması. Məsələn, dəlilik, məstlik və huşsuzluq kimi.[1]

## Özünü sına

1. Düzgün dəstəmazın beş şərtini sadalayıb izah edin.
2. Namaz üçün dəstəmaz əvəzinə təyəmmüm alınmalı hallardan üçünü qeyd edin.
3. Təyəmmüm almağın qaydasını qısaca olaraq izah edin.

## Təklif

Təqlid etdiyiniz müctəhidin "İzahlı şəriət məsələləri" kitabına müraciət edərək təyəmmümün torpaqdan əlavə daha nələrə edilməsinin düzgün olduğunu müəyyənləşdirin.

1. Sadalananlardan əlavə dəstəmazı batil edən başqa amillər də vardır. Gələcək dərslərimizdə bu barədə ətraflı məlumat veriləcək.

# Beşinci dərs

## Namazı batil edən amillər

O gün məktəbin namaz otağında başqa günlərlə müqayisədə daha çox adam var idi. Sadiq ilə Məhəmməd də namazxanının bir küncündə namaz qılırdılar. Birdən uşaqlardan biri pəncərədən içəri boylanaraq dedi: "Uşaqlar, tez olun, indi zəng vurulacaq."

Bir qədər sonra Sadiq namazını yarımçıq kəsdi. Bir neçə saniyə keçdikdə isə yenidən "Allahu əkbər" deyərək namaza başladı. Namazı qılıb qurtardıqdan sonra Məhəmməd ondan soruşdu: "Nə üçün namazını yarımçıq kəsdin? Məgər bilmirsən ki, namazı yarımçıq kəsmək haram işdr?!"

Sadiq cavabında dedi: "Namazı səbəbsiz yerə yarımçıq saxlamaq haramdır. Ancaq mən namazı səbəbsiz yerə yarımçıq saxlamadım. Belə ki, namazımı kəsməzdən qabaq onsuz da namazım batil olmuşdu".

Məhəmməd təəccüblənərək soruşdu: "Necə?!"

Sadiq dedi: "Mən təsbihati-ərbəəni deyərkən birdən hiss etdim ki, namazdan qabaq yediyim çörəyin qırıntıları ağzımda qalıb. Onları nə edəcəyimi fikirləşdiyim bir vaxtda özümdən ixtiyarsız olaraq qırıntıları uddum. Həmin vaxt kimsə də dedi ki, indi zəng vurulacaq. Bir tərəfdən, çörək qırıntılarını udduğuma görə namazımın doğru olub-olmadığında şəkk etdiyim üçün, digər tərəfdən də o oğlanın səsi fikrimi yayındırdı. Nə qədər fikirləşsəm də, üçüncü, yoxsa dördüncü rükətdə olduğumu xatırlaya bilmədim. Buna görə də batil olmuş namazımı yarımçıq kəsib təzədən qılmağa başladım".

Məhəmməd dedi: "Əvvəla, çörək və ya başqa bir şeyin xırda qırıntılarını udmaq namazı batil etmir. İkincisi, kim deyib ki, insan namazın hansı hissəsində şəkk etdisə, namazı batil olur? Deməli, sən namazını səbəbsiz yerə yarımçıq kəsmisən".

Sadiq soruşdu: "Sən mənim namazımın doğru olduğuna əminsən?"

Məhəmməd dedi: "Bəli. Bizim məhəllədəki məscidin pişnamazı neçə gündür ki, namazı batil edən hallar barəsində danışır. Mən bu məsələni ondan eşitmişəm. Əgər arxayın olmaq istəyirsənsə, bu axşam məscidə gəl, məsələni onun özündən soruş".

Əvvəlki kitablarda namazın bir sıra qaydaları ilə tanış olmuşuq. Öyrənmişik ki, qaydalarına düzgün şəkildə riayət olunaraq qılınan namaz Allahın namaz qılan şəxsdən razı qalmasına səbəb olur. Bu dərsdə isə namazla bağlı bir sıra digər məsələlərə toxunacağıq. Həmin məsələlərdən xəbərsiz olmaq namazın batil olması ilə nəticələnər..

**Namazı batil edən hallar**

Hansı işlərin namazı batil etdiyini bilirsinizmi? Müctehidlərin fitvalarına uyğun olaraq, on iki amil namazı batil edir. Onları qısaca olaraq qeyd edirik:

**1. Namazın şərtlərindən birinin pozulması:** Əvvəlki kitablarda namazın bir sıra şərtləri ilə tanış olmuşuq. Namaz qılan şəxsin bədəninin və ya paltarının pak olması, namaz qılan şəxsin dəstəmazlı olması, habelə namaz qılan şəxsin paltarının və yerinin qəsbi olmaması bu şərtlərdən idi.

**2. Dəstəmazın batil olması:** Əgər namaz qılan şəxsin dəstəmazı namaz əsnasında pozularsa, namaz batil olar.

**3. Üzü qiblədən çevirmək:** Əgər namaz qılan şəxs namaz əsnasında üzünü qiblədən (üzü qibləyə hesab edilməyəcək miqdarda) sağa və ya sola çevirərsə, namazı batil olar - istər üzünü qiblədən bilərəkdən çevirsin, istərsə də səhvən.

**4. Uca səslə gülmək:** Namaz qılan şəxs namaz əsnasında bilərəkdən uca səslə gülərsə, namazı batil olar. Lakin səssiz və ya bilmədən çox aşağı səslə gülmək namazı batil etməz.

**5. Namaz əsnasında danışmaq:** Əgər namaz qılan şəxs namaz əsnasında bilərəkdən danışarsa, hətta bircə kəlmə belə deyərsə (məsələn, “ah” deyərsə), namazı batil olar. Lakin bilərəkdən deyil, səhvən nəsə deyərsə, namazı doğrudur.

**6. Namaz halından çıxmaq:** Əgər namz qılan şəxs namaz əsnasında namaz halından çıxarsa, məsələn, əl çalarsa və yaxud havaya tullanarsa, namazı batil olar. Bu işin az, yaxud çox, bilərəkdən və ya səhvən olmasında heç bir fərq yoxdur. Lakin namazı adi halından çıxartmayan işlər, məsələn, əllə işarə etmək namazı batil etməz.

**7. Yemək və içmək:** Namaz əsnasında yemək və ya içmək də namazı batil edir. Lakin namaz qılan şəxs namaz əsnasında dişlərinin arasında qalmış qırıntıları udarsa, namazı batil olmaz.

**8. Namazın rüknləri və vacib əməllərini artırıb və ya azaltmaq:** Əvvəlki kitablarda namazın rüknləri və vacib əməlləri ilə tanış olmuşuq. Əgər namaz qılan şəxs namazın rüknlərindən hər hansı birini (məsələn, rükunu) istər bilərəkdən, istərsə də səhvən artırıb və ya azaldarsa, namazı batil olar. Lakin namazın rükn olmayan digər vacib əməllərini artırıb və ya azaltmaq yalnız o vaxt namazı batil edər ki, bilərəkdən edilsin.

**9. İki və ya üç rükətli namazın rükətlərinin sayında şəkk etmək:** Namaz qılan şəxs iki və ya üçrükətli namaz əsnasında namazın neçənci rükətində olduğu barədə şəkk edərsə və qısa müddət ərzində şəkki aradan getməzsə, namazı batil olar. Həmçinin, dördrükətli namazın da ilk iki rükətində neçənci rükətdə olması barədə şəkk edərsə, namazı batil olar.

**Namaz haqqında bir neçə önəmli məsələ**

* Namaz qılan şəxs namazın qunutunda istənilən dildə dua edə bilər.

* Namaz qılan şəxs namazın sözlərini tələffüzü düzgün olmayacaq səviyyədə tez-tez deyərsə, namazı batil olar.

* Vacib namazı bilərəkdən yarıda kəsmək haramdır. Lakin insanın özünə və ya malına dəyəcək ziyanın qarşısını almaqdan ötrü namazı yarıda kəsməyin eybi yoxdur.

* Əgər namaz qılan şəxs namazın vacib sözlərini hərəkət edə-edə, məsələn, rükunun sözlərinin bir hissəsini rükudan qalxa-qalxa deyərsə, namazı batil olar.

* Əgər namaz qılan şəxs namaz əsnasında kənardan baxanların “Bu, daha namaz qılmır” deyəcək qədər sakit dayanarsa, namazı batil olar.

* Namaz qılan şəxs namaz əsnasında başqalarına salam verə bilməz. Lakin başqaları ona salam verərlərsə, namaz əsnasında onların cavabını verməlidir. Səhvən verilən və salam sayılmayacaq, yaxud bilərəkdən istehza məqsədilə verilən salamın cavabını vermək vacib deyil.

* Namaz qılan şəxsin başqalarının salamına verdiyi cavab onların verdiyi salamla eyni formada olmalıdır. Məsələn, əgər kimsə namaz qılan şəxsə sadəcə “Salam” deyibsə, o da onun cavabını eynilə “Salam” deyə qaytarmalıdır. Əgər salam verən: “Salam aleykum” deyibsə, namaz qılan şəxs də eyni formada: “Salam aleykum” deyə cavab verməlidir.

* Öskürmək, asqırmaq və əsnəmək namazı batil etmir.

* Əgər namaz qılan şəxs namazı qılıb qurtardıqdan sonra namaz əsnasında namazı batil edən hər hansı bir iş görüb-görməməsində şəkk edərsə, namazı doğrudur.

## Sinif işi

Aşağıda verilmiş hallardan hər birində namaz qılan şəxsin namazının doğru, yoxsa batil olduğunu izah edin.

1. Namaz qılan şəxs çox tələsdiyi üçün namazın bəzi sözlərini hərəkət halında deyir.

2. Namaz qılan şəxs namaz qılarkən qardaşı velosipedlə gəlib ona dəyir. O da özündən asılı olmadan: "Ah!" – deyə qışqırır. Bir qədər sakit dayandıqdan sonra namazını qaldığı yerdən davam edir. Namazı qılıb qurtardıqdan sonra isə iki səcdeyi-səhv yerinə yetirir.

3. Namaz qılan şəxs namaz əsnasında həmd və surəni oxuyarkən arxadan səs eşidir və özündən ixtiyarsız olaraq çevrilib arxa tərəfə baxır. Sonra isə dərhal namazda olduğunu xatırlayıb üzünü qibləyə çevirərək həmd və surəni davam edir.

4. Namaz qılan şəxs televizorun qarşısında namaz qılarkən balaca bir uşaq televizoru işə salır. Namaz qılan şəxs də televizorda göstərilən səhnələrdən birini görüb gülməyi tutur. Çox çətinliklə də olsa, özünü gülməkdən saxlaya bilir, yalnız səssizcə bir qədər gülür.

5. Namaz qılan şəxs namazın üçüncü rükətində təsbihati-ərbəəni deyərkən televizordan önəmli bir xəbər eşidir. Xəbəri daha yaxşı eşidə bilsin deyə, bir neçə anlıq dayanıb gözləyir, xəbəri dinlədikdən sonra isə təsbihati-ərbəəni deməyə davam edir.

6. Namaz qılan şəxs namaz əsnasında olarkən mobil telefonu zəng çalır. Namazın sözlərini demədiyi halda sakitcə telefonunu cibindən çıxarıb söndürür, sonra isə namazına davam edir.

## Özünü sına

1. Namazı batil edən amillərdən beşini qeyd edin.
2. Namaz qılan şəxs namaz əsnasında hansı tərzdə ona salam vermiş insanın cavabını verməyə bilər?
3. Namaz qılan şəxs şam namazında iki, yoxsa üç rükət qıldığında şəkk edərsə, namazı doğrudur, yoxsa batil?

## Daha çox bilək

Əmirəl-möminin Əli (ə) buyurmuşdur:

"İnsan namaz qılmağa başladıqda Allahın mərhəməti onu əhatə etdiyi üçün şeytan ona paxıllıq edir".[1]

1. Xisal, səh. 632, 10-cu hədis.

# Üçüncü fəsil: Cəmiyyət

Yaşadığımız mühit yaxşı və ya pis olmasından asılı olmayaraq bizim düşüncə və davranışımıza bilavasitə təsir edir. Buna görə də əlverişli mühiti qoruyub saxlaya və ondan lazımi şəkildə faydalana bilməyimiz üçün onun xüsusiyyətlərini bilməliyik.

Yeddinci dərsdə (**“Müdafiə”**) İslamda müdafiənin dəyərindən və müdafiəyə nə dərəcədə hazır olmağın əhəmiyyətindən danışılır.

# Yeddinci dərs

## Müdafiə

### İslamda müdafiə

“Müdafiə” sözü “qorumaq”, “dəfetmək” və “qarşılaşmaq” mənalarını ifadə edir. Məzlumu müdafiə etmək İslam dininin dəyərlərindən biri olub Quran ayələri, həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) və məsum İmamların (ə) kəlamlarından əldə edilmişdir. Zalımın günahsız insanlara qarşı etdiyi haqsızlığa görə hamı məsuliyyət daşıyır. Müdafiənin əhəmiyyəti barədə Quranda kifayət qədər ayə vardır.

«... وَلَوْلَا دَفْعُ اللَّهِ النَّاسَ بَعْضَهُمْ بِبَعْضٍ لَفَسَدَتِ الْأَرْضُ وَلَٰكِنَّ اللَّهَ ذُو فَضْلٍ عَلَى الْعَالَمِينَ»

“Əgər Allah insanların bir qismini digər bir qismi ilə dəf etməsə idi, yer üzü fitnə-fəsada uğrayardı. Lakin Allah bütün aləmlərə qarşı lütfkardır”. (Bəqərə surəsi, 251-ci ayə)

Bildiyimiz kimi, Allah yolunda mübarizəyə qalxan insan istənilən halda qalibdir. Belə ki, düşməni məğlub edib özü sağ-salamat vətənə qayıdarsa, böyük iftixar qazanmaqla yanaşı Allahın da böyük savabını əldə etmiş olar. Yox, əgər düşmənlə mübarizədə şəhid olarsa, həm bu dünyada, həm də axirətdə Allah dərgahında heç bir məqamla müqayisə edilməyəcək böyük bir məqama çatıb Cənnətə gedər.

Vətən torpağı düşmən hücumuna məruz qaldıqda vətənini bacardığı qədər qoruyub düşməni geri otuzdurmaq kişili-qadınlı, qocalı-cavanlı hamıya vacibdir.

İslam dini xalqın düşmənə qarşı birlik olub səhlənkarlığa yol verməməsinə təkid edir. Bu baxımdan ölkənin müdafiəsi uğrunda xalqın məğlubiyyəti ilə nəticələnəcək azacıq səhlənkarlığa yol vermək də böyük və bağışlanılmaz günah hesab edilir.

İslamın ilk dövrlərində baş vermiş Uhud və Xəndək döyüşləri o dövrdə müsəlmanların müdafiəsindən nümunələrdir.

Nəzərə almaq lazımdır ki, düşmən xalqın müqavimətini qıra bilməkdən ötrü əlindən gələni edir. Eləcə də xalqın ruhiyyəsini zəiflətmək məqsədilə müsəlmanları yalandan sərtlik və radikallıqda, müharibə istəyində olmaqda ittiham edir. Halbuki İslam dini müharibəyə başlamağın tamamilə əleyhinədir.

**Müdafiə məqsədilə hazırlıq**

Buraya qədər öyrəndik ki, ölkəni qoruyub Allaha xatir müdafiə etmək hamının borcu olub dəyərli ibadət hesab edilir. Heç indiyədək fikirləşmisinizmi ki, əgər düşmənlər qəflətən ölkəmizə hücuma keçsələr, kimlər ölkənin müdafiəsinə qalxıb bu böyük ibadətə qatıla bilər?

Hazırlığı və qüdrəti olmayan insanlar düşmən qarşısında necə mübarizə aparıb onları məğlub edə bilərlər?!

Bu barədə hikmət sahibi olan Allah belə buyurur:

«وَأَعِدُّوا لَهُمْ مَا اسْتَطَعْتُمْ مِنْ قُوَّةٍ وَمِنْ رِبَاطِ الْخَيْلِ تُرْهِبُونَ بِهِ عَدُوَّ اللَّهِ وَعَدُوَّكُمْ وَآخَرِينَ مِنْ دُونِهِمْ لَا تَعْلَمُونَهُمُ اللَّهُ يَعْلَمُهُمْ ...»

“Ey möminlər!) Allahın düşmənini və öz düşməninizi, onlardan başqa sizin bilmədiyiniz, lakin Allahın bildiyi düşmənləri (münafiqləri) qorxutmaq üçün kafirlərə qarşı bacardığınız qədər qüvvə və (cihad üçün bəslənilən) döyüş atları tədarük edin”. (Ənfal surəsi, 60-cı ayə)

Bilirsinizmi, düşmən nə vaxt bizə qarşı hücuma keçməyə özündə cürət tapır?

Hər hansı bir ölkə hərbi baxımdan tam hazır vəziyyətdə olarsa, heç bir düşmən o ölkəyə hücum etmək fikrinə düşməz. Deməli, hərbi baxımdan hazır olmağın qələbədən əlavə, eyni zamanda, düşməni qorxutmaq və onun tərəfindən gözlənilən müharibənin başlanmasının qarsını almaq kimi bir faydası vardır..

«يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اصْبِرُوا وَصَابِرُوا وَرَابِطُوا وَاتَّقُوا اللَّهَ لَعَلَّكُمْ تُفْلِحُونَ»

"Ey iman gətirənlər! (Dində vacib olan hökmləri yerinə yetirməyin zəhmətinə, düçar olduğunuz bəlalara) səbir edin, (Allahın düşmənlərinə qələbə çalmaq uğrundakı müharibə və döyüşlərdə sizə üz verən müsibət və çətinliklərə) dözün, (sərhəd boyu növbədə ayıq-sayıq durub cihada) hazır olun və Allahdan qorxun ki, nicat tapasınız!" (Ali İmran surəsi, 30-cu ayə)

# Dördüncü fəsil: Məad

Bildiyimiz kimi, ölüm heç də həyatın sonu deyil, iki həyat (dünya həyatı ilə axirət həyatı) arasındakı bir körpüdür. Hər bir insan ölümdən sonra hansı hadisələrin baş verəcəyini bilmək istəyir.

Əvvəlki kitablarda ölümdən sonra baş verəcək bəzi hadisələrlə tanış olmuşuq. Bilirik ki, bizim əməllərimiz həm ölüm zamanı, həm də ölümdən sonrakı vəziyyətimizə təsir edə bilər.

Səkkizinci dərsdə (**"Qiyamət günü"**) Qiyamətin bir sıra başqa hadisələrinə toxunulur. Qiyamətdə sevinənlərdən ola bilmək üçün bu dünyada necə davranmalı olduğumuz izah edilir.

# Səkkizinci dərs

## Qiyamət günü

Parlaq günəşin yalnız soluxmuş dairəsindən başqa heç nə qalmayıb. Ulduzlar da daha işıq saçmır. Bir vaxt yerin mismarları rolunu oynayan uca dağlar indi buludlar kimi hərəkətdədir. Dənizlər od tutub yanır[1]. Bu hələ hadisənin başlanğıcıdır.

**İnsanlar yenidən diriləcəklər...**

Bir nəfərin əməl dəftərini sağ əlinə verirlər. Bir qədər baxdıqdan sonra üzündə bir arxayınlıq yaranır. Yavaş-yavaş üzü daha da açılıb dodaqlarına gülüş qonur. Heç nədən qorxub çəkinmədən əməl dəftərini oxumağa başlayır və birdən deyir:

- Alın, əməl dəftərimi oxuyun! Mən əvvəldən bilirdim ki, Qiyamətdə sorğu-sual olunacağam.[2]

Artıq indidən onun simasında Cənnət sevinci hiss olunmaqdadır. Əməl dəftərini hamıya göstərmək istəyir.

Digər bir tərəfdə isə başqa birisinin əməl dəftərini sol əlinə verirlər. Xəcalətindən başını aşağı salır. Artıq indidən onun aqibətinin necə olacağı məlumdur. Heç kim görə bilməsin deyə, sakitcə əməl dəftərini açır. Əməl dəftərinə baxan kimi, dərhal üzünə kədər çökür.

- Bu necə kitabdır?! Gördüyüm bütün işlər burada qeyd edilib!Kaş əməl dəftərimi mənə verməyəydilər! Kaş hesab-kitabımın nə olduğunu bilməyəydim!

Kaş ölməklə işim bitmiş olaydı! Var-dövlətimin mənə heç bir xeyri olmadı, qüdrətim də əlimdən çıxdı.[3]

Narahatlıqdan əllərini dişləməyə başlayır. Özünü qınadığı bir vaxtda qəflətən...[4]

1.Təkvir surəsi, 1-3-cü ayələrin məzmunu.
2. Əl-Haqqə surəsi, 25-29-cu ayələrin məzmunu
3. Əl-Haqqə surəsi, 19-20-ci ayələrin məzmunu.
4. Furqan surəsi, 27-ci ayənin məzmunu.

## Sinif işi

Qurani-kərimdə Qiyamət günü haqqında müxtəlif ifadələrdən istifadə edilmişdir: ayrılıq günü, peşmançılıq günü, insanların diriləcəyi gün, hesab günü.

Oxuduğumuz mətnə diqqət yetirərək bu adların hər birinin mətnin hansı hissəsinə uyğun gəldiyini müəyyən edin.

Qiyamət gününün yuxarıda qeyd etdiyimiz adlarından başqa digər adları da vardır. Bu adlardan bir neçəsini qeyd edirik: əbədiyyət günü, əməllərin qarşılığının veriləcəyi gün, haqq günü, məlum gün, böyük gün, toplanış günü və... Bu adların hər biri Qiyamət gününün müəyyən bir xüsusiyyətinə işarədir. İndi isə Qiyamət gününün adlarından ikisinin aid olduğu xüsusiyyətə işarə edirik.

**1. Hesab günü**

Qiyamət gününün adlarından biri "Hesab günüdür". O gün insanın böyük və yaxud kiçik olmasından asılı olmayaraq bütün əməlləri haqq-hesab olunacaq. Hamı öz gördüyü yaxşı və ya pis işin qarşılığını alacaq.

Qiyamət gününün sorğu-sualı elə aparılacaq ki, heç bir əməl nəzərdən qaçmayacaq. İnsanın həyatı boyunca gördüyü bütün böyük və kiçik işlərin hamısına baxılacaq.

Allah Qurani-kərimdə buyurur:

فَمَنْ يَعْمَلْ مِثْقَالَ ذَرَّةٍ خَيْرًا يَرَهُ و مَنْ يَعْمَلْ مِثْقَالَ ذَرَّةٍ شَرًّا يَرَهُ

*"Kim (dünyada) zərrə qədər yaxşı iş görmüşdürsə, onu (onun xeyrini) görəcəkdir (mükafatını alacaqdır). Kim də zərrə qədər pis görmüşdürsə, onu (onun zərərini) görəcəkdir (cəzasını çəkəcəkdir)".*

*(Zəlzələ surəsi, 7-8-ci ayələr)*

## Sinif işi

Qiyamət günündə bizim bütün əməllərimiz sorğu-sual olunacaqsa, bəs onda gördüyümüz işlər qarşısında bizim vəzifəmiz nədən ibarətdir?

**2. Ayrılıq günü**

Qiyamətin adlarından biri də "Ayrılıq günü"dür. Adından da göründüyü kimi, o gün bütün insanlar bir-birindən ayrılacaq və hər kəs işləri bir-biri ilə uyğun gələn dəstələrə qoşulacaq.

Sizcə, belə bir böyük əziyyətdən qurtulmaq üçün nə etmək lazımdır?

**Qiyamət gününün azuqələri**

الَّذينَ آمَنُوا وَ عَمِلُوا
الصَّالِحاتِ اولِئِكَ اصحابُ
الْجَنَّةِ هُم فيها خالِدُون

*"İman gətirənlər və yaxşı işlər görənlər isə behiştlikdirlər və orada əbədi qalacaqlar".*

*(Bəqərə surəsi, 82-ci ayə)*

Allahın Qiyamət günündə insanların xoşbəxt olması üçün qeyd etdiyi ən önəmli şey imandır. İman xoşbəxtliyin və ziyandan qurtulmağın başlıca şərtidir. İman olmadan heç bir yaxşı əməlin də nəticəsi olmaz. Bəs, görəsən, təkcə imanın olması Qiyamət günündə insanın qurtuluşu üçün kifayət edirmi?

Bu sualın cavabında qeyd etməliyik ki, iman yalnız o vaxt insanı səadətə çatdırıb xoşbəxt edə bilər ki, yaxşı əməllərlə müşayiət edilsin. Əslində, gözəl əməl imanın nişanəsidir. Yaxşı əməl olmadan iman da yavaş-yavaş insanın qəlbindən qopub gedər.

Bir neçə açıq pəncərəsi olan bir otağı təsəvvür edin. Siz otaqdan kənarda dayanmısınız. Gecənin zülmət qaranlığında həmin otaqda böyük bir projektor yandırılsa, otağın kənarından nə görünər?

Otağın pəncərələri açıq olduğu və içəridəki projektorun işığının eşiyə düşməsinin qarşısını alan heç bir maneə olmadığı halda, otaqdan eşiyə işıq düşməməsi mümkündürmü?

Göz, qulaq, dil və digər bədən üzvlərimiz, sanki qəlbimizin pəncərələridir. Əgər həqiqi iman nuru kiminsə qəlbində olarsa, şübhəsiz, bu nur onun qəlbindən ətrafa da sirayət edib insanın sözləri və rəftarında özünü göstərəcək.

Belə bir sual da meydana gələ bilər: Qiyamət günündə yaxşı əməllər arasında insan üçün daha faydalı olanı hansıdır?

**Qalarlı yaxşılıqlar**

İnsanların uzun illər boyunca istifadə edəcəyi hər hansı bir məscid və ya məktəbin tikintisinə kömək etmək;

Başqalarına yaxşı işlər öyrətmək, vəfat etdikdən sonra isə öyrətdiyi şəxslərin ondan öyrəndiklərinə əməl etməsi və həmin işləri başqalarına da öyrətməsi;

Bir ağac əkmək vəfat etdikdən sonra isə başqalarının həmin ağacdan uzun illər boyunca faydalanması;

Yaxşı övlad yetişdirmək və onların valideynlərini ölümündən sonra ata-anası üçün dua edib bağışlanmasını istəməsi və gözəl işlər görməsi;

Başqalarını pis işlərdən çəkindirərək onları yaxşı işlər görməyə dəvət etmək;

Uzun illər elmlə məşğul olub faydalı kitablar yazmaq və başqalarının faydalanması üçün onların istifadəsinə vermək.

Bu kimi işlər qalarlı yaxşılıqlar hesab olunur. Bu cür əməllər insan vəfat etdikdən sonra da öz sahibinin əməl dəftərinə savab olaraq yazılır. Lakin digər yaxşı əməllərin dəftəri insanın ölümü ilə bağlanır.

Yuxarıda deyilənləri nəzərə alaraq, özündən sonra qalarlı yaxşı əməl qoyub gedən insan, sanki öz ömrünü neçə il artırmış və bununla da əməl dəftərinə xeyli yaxşılıq əlavə etmiş olur.

## Sinif işi

Qalarlı yaxşı işlərdən daha bir neçəsinin adını çəkin.

## Özünü sına

1. Qiyamətin adlarından üçünü yazın və onlardan birinin adlanma səbəbini qeyd edin.
2. Qalarlı yaxşı əməllər nə deməkdir? Belə əməllərdən ikisini qeyd edin.
3. Xanalarda qarışıq şəkildə verilmiş hissələrin ardıcıllığını düzəltməklə aşağıda İmam Rzadan (ə) təqdim olunmuş hədisi tamamlayın.

**Əgər namazı qəbul edilməzsə,**

**Əgər bəndənin namazı qəbul edilərsə,**

**namazdır.**

**Qiyamət günündə soruşulacaq ilk şey**

**digər əməlləri də qəbul edilər.**

**digər əməlləri də qəbul edilməz.**

İmam Rza (ə) buyurmuşdur:[1]

*"Qiyamət günündə* ..........................................................................
.................................................................................................... ".

1. Biharul-ənvar, c. 80, səh. 20

# Beşinci fəsil: Bələdçi tanıma

Mehriban olan Allah bizi doğru yola yönəldib bizə kömək etmək məqsədilə bələdçilər göndərmişdir ki, insanlara düzgün yaşam tərzi, dünya və axirət səadətinə çatmağı öyrətsinlər. Peyğəmbərlər və İmamlar (ə) elə şəxsiyyətlərdir ki, onların rəftar və sözləri xoşbəxtlik üçün gözəl örnəkdir. Bu fəsildə bələdçilərlə daha yaxından tanış olacağıq:

**Doqquzuncu dərsdə ("Sonuncu peyğəmbər və sonuncu mesaj")** həzrət Muhəmmədin (səlləllahu əleyhi və alih) Allahın sonuncu peyğəmbəri, Quranın isə Onun əbədi möcüzəsi və Allahın bəndələr üçün ən mükəmməl kitabı olduğu bildirilir.

Onuncu dərsdə (**"Sarsılmaz bağlılıq"**) həzrət Peyğəmbərin Əhli-beyti ilə Quran arasındakı sarsılmaz bağlılığa toxunularaq onların Qurani-kərimin əsl müəllimləri olduğu, insanlar arasında Quran maarifini onlardan daha yaxşı bilənin olmadığı göstərilir.

On birinci dərsdə **("İslam dininin kamilləşməsi")** İslam tarixinin ən önəmli və yadda qalan hadisələrindən birinə – Qədir-xum hadisəsinə, yəni, həzrət Peyğəmbərin (s) canişinliyi məsələsinə toxunulur. Bildirilir ki, həzrət Muhəmməd Peyğəmbərdən (s) sonra müsəlmanlara rəhbərlik etməyə ən layiq olan insan Əmirəl-möminin Əlidir (ə).

On ikinci dərsdə **("Qeyb dövründə rəhbərlik")** isə İmamın (ə) qeybdə olduğu dövrdə insanların rəhbərliyinin kimlərin öhdəsində olması məsələsindən və həmin şəxslərin hansı xüsusiyyətlərə malik olmasından danışılır.

# Doqquzuncu dərs

## Sonuncu peyğəmbər və sonuncu mesaj



İlk dəfə məktəbə gedən altı yaşlı bir uşaq təsəvvür edin. Bu uşağın müəllimi riyaziyyat dərsini ona necə öyrətməyə başlayır? İlk günlərdən etibarən ona ədədlərin kökünü çıxartmağı, vurma və bölməni, kəsr saylarını öyrədirmi? Niyə?

**Peyğəmbərlərin sonuncusu**

Tarix boyunca insanların düşüncə və anlayışı nə qədər artırdısa, Allahın daha önəmli mesaj və göstərişlərini daha yaxşı qəbul etmək imkanı yaranırdı. Bunun nəticəsində Allah tərəfindən göndərilmiş peyğımbərlər insanlara elə təlimatları öyrədirdilər ki, onlardan əvvəl yaşamış insanlar həmin təlimatları başa düşməkdə aciz olmuşlar.

Əslində, bütün peyğəmbərlərin çatdırdığı təlimatlar məzmun etibarı ilə eyni olmuşdur. Əgər insanların qavrayış səviyyəsi ilk gündən bu təlimatları başa düşməyə imkan versəydi, uca Allah bütün təlimatlarını elə ilk göndərdiyi kitabda insanların doğru yola yönəlməsi üçün göndərərdi.

Deməli, peyğəmbərlərin hər biri öz dövrünün insanlarını sadə dillə doğru yola yönəltməklə yanaşı, onları Allahın digər təlimatlarını qəbul etməyə hazırlayır, bununla da özündən sonra gələcək peyğəmbərin gəlişi üçün münasib zəmin yaradırdı.

Bu vəziyyət Allahın ən mühüm və sonuncu təlimatını qəbul etmək üçün bəşəriyyətin hazırlıq səviyyəsinə gəlib çatana qədər beləcə davam etmişdir. Məhz belə bir vaxtda hikmət sahibi olan Allahın ən mühüm mesajını insanlara çatdırmaqdan ötrü Yaradanımızın sonuncu peyğəmbəri göndərildi.

## Sinif işi

Aşağıdakı beyti oxuyun. Onun ətrafında fikir mübadiləsi apararaq dərsin mövzusuna nə kimi aidiyyəti olduğunu bildirin:

*Əhməd adı cümlə ənbiyanındır,*
*Yüz varkən doxsan da əldə hazırdır.*

**Quran – sonuncu mesaj**

Sevimli Peyğəmbərimiz həzrət Mühəmmədin (səlləllahu əleyhi və alih) sonuncu peyğəmbər olduğunu nəzərə alsaq, deməli, onun gətirdiyi Quran da Allah tərəfindən göndərilmiş sonuncu və ən mükəmməl kitabdır. Ondan sonra daha insanlara göydən kitab nazil olmayacaq.

Qurani-kərimin böyük əhəmiyyətə malik olması bu səmavi kitabı oxumağın da ən gözəl işlərdən olmasına və Allah tərəfindən böyük savab verilməsinə gətirib çıxarmışdır.

Quran oxumağın fəziləti barədə İmam Sadiq (ə) belə buyurur:

*“Gənc insan Quran oxuduqda Quran onun ətinə və qanına qarışır. Allah onu böyük və gözəl əməl sahibi olan mələklərlə eyni sırada görür. Qiyamət günündə Quran onu qoruyaraq belə deyəcək: “İlahi, hamı gördüyü əməlin qarşılığını almışdır. Məndə deyilənlərə əməl edənlərə ən gözəl mükafatı ver!”*[1]

Yaxşı olar ki, Quran oxuyarkən onun ayələrində deyilənlər barədə düşünərək oxuyaq. Daha dəqiq desək, ayələrin mənası barədə düşünüb onları öz həyatımızda icra edək. Buna nail olmaq üçün günün müəyyən bir hissəsini Quran oxumağa sərf etmək lazımdır. Quran oxuyub onun ayələri barədə düşünmək o qədər önəmlidir ki, Allah onun üçün müəyyən bir hədd təyin etməyərək belə buyurmuşdur:

...فَاقْرَءُوا مَا تَيَسَّرَ مِنَ الْقُرْآنِ...

*“Qurandan sizə müyəssər olanı (bacardığınız qədər) oxuyun”.*

*(Muzzəmmil surəsi, 20-ci ayə)*

Allah Qurani-kərimdə Quran oxumağın qaydalarını və onun təsirini belə izah etmişdir:

“Möminlər Quranı layiqincə oxuyarlar. Quran oxumaq istədikdə (şeytanın şərindən) Allaha sığının (yəni: “əuzu billahi minəş-şeytanir-rəcim” deyin). Quranı aramla oxuyun. Quran oxunduqda ona qulaq asın. Quran oxumaq üçün ən yaxşı vaxt sübh çağıdır. Onda Quranın təsiri daha çox olur. Qurani-kərim insanları zülmətdən nura doğru aparır. Quran möminlər(in qəlbi) üçün şəfa və onlara mərhəmətdir. ”

İndi özümüzə belə bir sual verək: Nə üçün Quran oxunmasına bu

1. Kafi, c. 2, səh. 603.

qədər önəm verilir və necə ola bilər ki, bir kitab insanın xoşbəxtliyində bu qədər əhəmiyyət kəsb etsin?

Bu sualın cavabını Quranın özündə axtarıb tapmalıyıq. Qurani-kərim insanların ən vacib suallarına düzgün cavab verən yeganə səmavi və əbədi kitabdır. Bu suallar aşağıdakılardır:

- Məni yaradan kimdir və mən haradan gəlmişəm?
- Bu dünyada necə yaşamalıyam? Mənim bələdçilərim kimlərdir?
- Ölümdən sonra məni hansı aqibət gözləyir?

Bu suallar müəyyən bir dövrə aid deyil. İnsanlar həmişə bu suallara cavab tapmağa çalışmışlar.

*Fikrim gecə-gündüz budur ki, görən,*
*Niyə bəs qəlbimdən hali deyiləm?*
*Haradan gəlmişəm, məqsəd bəs nədir?*
*Haraya gedirəm, vətən haradır?*

Əmirəl-möminin Əli (ə) Quran barəsində belə buyurur:

“... Quran gözəl öyüd verəndir, insanı heç vaxt aldatmaz.

Düz yola yönəldər, heç vaxt düz yoldan azdırmaz. Doğru danışandır, heç vaxt yalan danışmaz.

Kim Quranla ünsiyyətdə olubsa, Quran onda ya nəyisə artırıb, ya da ondan nəyisə azaldıb. Onun doğru yola yönəlməsini artırmış, azğın yolda olmasını azaltmışdır.

Quran olmadan heç kim ehtiyacsız olmaz. Quranı öyrənin. O, kəlamların ən gözəlidir! Quranı anlayın. O, qəlblərin baharıdır! Muğayat olun ki, Qurana əməl etməkdə kimsə sizi qabaqlamasın.

İstəklərinizi Quran vasitəsilə Allahdan istəyin. Quranla dostluq edərək Allaha yaxınlaşın, çünki bəndələrin Allaha yaxınlaşması üçün Qurandan gözəl vasitə yoxdur!

Qurana əməl edənlərin sırasında olub ona tabe olun. Allahı Quranla tanıyın və özünüzə Quranla nəsihət verin!”[1]

1. Nəhcül-bəlağə, 176-cı xütbə.

## Sinif işi

Əmirəl-möminin Əlinin (ə) Quran barəsində buyurduqlarına əsasən deyin görək, Qurandan necə faydalanmaq olar? Buna əsasən aşağıda verilmiş cədvəli doldurun.

| Quranın xüsusiyyəti | Bu xüsusiyyət qarşısında bizim vəzifəmiz |
|---|---|
| Gözəl öyüd verəndir, insanı heç vaxt aldatmaz. | |
| Düz yola yönəldər, heç vaxt düz yoldan azdırmaz. | |
| Doğru danışandır, heç vaxt yalan danışmaz. | |
| Bizi doğru yola yönəldir. | |
| Biz insanlara öyüd-nəsihət verir. | |

**Quranın əsas mesajları**

Allahın Quranda göndərdiyi ayələrə diqqət yetirdikdə görürük ki, bu səmavi kitabdakı ayələrin əsas məzmunu bir neçə hissəyə bölünür:

1. Allahı tanıma, tək olan Allaha dəvət və çoxallahlılıqdan çəkindirmə.
2. Məad, insanın ölümdən sonrakı aqibəti, cənnət və cəhənnəmin vəsfi.
3. Peyğəmbərləri tanıtdırma və insanların onlardan örnək götürməyə dəvət olunması.
4. Əvvəlki xalqların taleyi və onların başına gələnlərdən ibrət götürməyə dəvət.
5. İnsanların bir-birinin üzərindəki hüquqları və başqaları ilə düzgün davranış tərzi.
6. Allahın nemətlərini xatırlatma və insanları bu nemətlər barəsində düşünməyə və verdiyi nemətlərə görə Allaha şükür etməyə dəvət.

Gördüyümüz kimi, Quran məzmun etibarı ilə insanları düşündürən ən əsas suallara dolğun şəkildə cavab verir. İnsanı yaratmış və hikmət sahibi olan Allah onu hamıdan daha yaxşı tanıyıb ehtiyaclarını da hamıdan daha yaxşı bilir.

## Sinif işi

Quranın əsas mesajlarına diqqət edərək aşağıdakı ayələrin hansı mesaja işarə etdiyini bildirin.

| | |
|---|---|
| وَأَنزَلْنَا مِنَ الْمُعْصِرَاتِ مَاءً ثَجَّاجًا.<br>“(Küləklərin sıxdığı) buludlardan şırıl-şırıl tökülən yağmur endirdik ki, ... ” (Nəbə surəsi, 14-cü ayə) | |
| يَوْمَ يُنفَخُ فِي الصُّورِ فَتَأْتُونَ أَفْوَاجًا.<br>“Sur çalınacağı gün (qəbirlərinizdən çıxıb) dəstə-dəstə (məhşərə) gələcəksiniz.” (Nəbə surəsi, 18-ci ayə) | |
| هَلْ أتَاكَ حَدِيثُ مُوسَى. إِذْ نَادَاهُ رَبُّهُ بِالْوَادِ الْمُقَدَّسِ طُوًى.<br>“(Ya Peyğəmbər!) Musanın hekayəti (söhbəti) sənə gəlib çatdımı? O zaman Rəbbi ona müqəddəs Tuva vadisində belə xitab etdi:...” (Naziat surəsi, 15-16-cı ayələr) | |
| وَيْلٌ لِّلْمُطَفِّفِينَ. الَّذِينَ إِذَا اكْتَالُواْ عَلَى النَّاسِ يَسْتَوْفُونَ.<br>وَإِذَا كَالُوهُمْ أَو وَّزَنُوهُمْ يُخْسِرُونَ.<br>“Vay halına çəkidə və ölçüdə aldadanların!<br>O kəslər ki, özləri insanlardan (bir şey) aldıqları zaman onu tam ölçüb alar,<br>Onlar üçün ölçdükdə və ya çəkdikdə isə (onu) əskild ərlər”. (Mutəffifin surəsi, 1-3-cü ayələr) | |
| الَّذِي لَهُ مُلْكُ السَّمَاوَاتِ وَالْأَرْضِ وَاللَّهُ عَلَى كُلِّ شَيْءٍ شَهِيد.<br>“O Allah ki, göylərin və yerin ixtiyarı Onun əlindədir. Allah hər şeyə şahiddir!” (Buruc surəsi, 9-cu ayə) | |
| هَلْ أَتَاكَ حَدِيثُ الْجُنُودِ. فِرْعَوْنَ وَثَمُودَ.<br>“(Ya Peyğəmbər!) Orduların xəbəri gəlib sənə çatdımı? Firon və Səmud (ordularının)?” (Buruc surəsi, 17-18-ci ayələr) | |

## Özünü sına

1. Nə üçün hikmət sahibi olan Allah Quran təlimlərini İslamdan əvvəlki xalqlara nazil etməmişdir?
2. Əmirəl-möminin Əlinin (ə) kəlamına əsasən, Quranla ünsiyyətdə olmğın insana nə kimi təsiri var?
3. İmam Sadiqin (ə) buyurduğu hədisə əsasən Quran gənc insana necə təsir göstərir?
4. Nəyə görə Qurani-kərim bütün insanlar üçün əbədi olaraq doğru yol göstərən bir kitab sayılır?

## Təklif

Quranın dərsdə qeyd etdiyimiz əsas mesajlarına diqqət yetirin. Hər mesaja aid iki ayə tapıb sinifdə tərcüməsi ilə birlikdə sinif yoldaşlarınız üçün oxuyun.

## Daha çox bilək

Böyük alimlərdən olmuş Ayətullah Ruhullah Musəvinin yaxınlarından biri deyir:

"Ayətullah Xomeyni hər gün bir qədər Quran oxuyardı. Bu onun gündəlik gördüyü iş idi. Digər işləri kimi bunun üçün də müəyyən bir vaxt ayırmışdı. Həmin vaxt heç kim onun yanına getməz, heç kimlə danışmazdı. Bütün diqqətini Qurana yönəldər, onun ayələrinə, ayələrin məna və məzmununa diqqət yetirərdi

O, bir gün belə demişdir: "Kim əsl insan olmaq istəyirsə, müntəzəm şəkildə Quran oxumalıdır".

# Onuncu dərs

## Sarsılmaz bağlılıq



İmam Sadiq (ə) öz evində dostlarına Quranın bəzi ayələrini öyrədirdi. Nahar vaxtı gəlib çatdıqda bir süfrə sərib hamı yeməyə başladı. Naharı yeyib qurtardıqdan sonra İmamın dostlarından biri dedi: "Quranın "ثُمَّ لَتُسْأَلُنَّ يَوْمَئِذٍ عَنِ النَّعِيمِ" (sonra da həmin gün (Allahın dünyada sizə əta etdiyi) nemətlər barəsində mütləq sorğu-sual olunacaqsınız!)[1] ayəsinə əsasən, Qiyamət günündə Peyğəmbər balasının evində yediyimiz bu yemək barəsində də bizdən sorğu-sual olunacaq".

Bu ayənin təfsiri ilə bağlı imam Sadiq (ə) buyurdu:

"Allah-taalaya yaraşmaz ki, bəndəsinə halal buyurduğu yeməyə görə onu sorğu-suala çəksin. Bu ayədəki "nemətlər" sözündə məqsəd Allahın sizə nemət olaraq əta etdiyi Muhəmməd və Ali-Muhəmməddir.[2] Qiyamət günündə biz Əhli-beytin rəhbərliyi barəsində sizdən mütləq sorğu-sual olunacaq".[3]

İmam Sadiqin (ə) yuxarıda qeyd etdiyimiz ayəyə verdiyi izah nəyi göstərir? Başqalarının da Quran ayələrini bu cür izah etmək bacarığı varmı? Əgər İmam Sadiq (ə), eləcə də digər məsum İmamlar camaata Quran ayələrinin təfsirini açıqlamasaydılar, nə baş verərdi?

1. Təkasur surəsi, 8-ci ayə.
2. Kafi, c. 6, səh. 280.
3. Təfsiri-bürhan, c. 4, səh. 502, 6-cı hədis.

Keçən dərsdə öyrəndik ki, insanın dünya və axirət səadəti üçün lazım olan bir şey Quranda öz əksini tapmışdır. Həzrət Peyğəmbərin (s) əbədi möcüzəsi sayılan Qurana diqqət yetirən hər bir kəs başa düşə biləcəyi qədər ondan faydalana bilər. Bəs, görəsən, hamı Qurandakı maarif və təlimləri düzgün şəkildə tam olaraq başa düşə bilərmi?

Hikmət sahibi olan Allah həzrət Peyğəmbəri (s) Quranın ilk müəllimi qərar vermişdir, çünki o, Quranın hansı ayəsinin nə zaman və hansı səbəbə görə nazil olduğunu, onun əsl mənasının nədən ibarət olduğunu hamıdan yaxşı bilirdi. Böyük peyğəmbərimiz öhdəsinə düşən böyük məsuliyyətə görə bütün varlığı ilə Quran maarifini insanlara çatdırmaqla məşğul olmuşdur.

Bəs Peyğəmbərin vəfatından sonra dünyaya gələn insanlar Quranın əsl maarifindən necə xəbərdar olmalıdırlar?

Sizcə, Allah digər insanların doğru yola yönəlməsi üçün hansı tədbiri görmüşdür?

## İmamın yetişdirilməsi

Həzrət Muhəmməd (s) peyğəmbər seçildiyi ilk gündən vəfatından sonra da insanların doğru yola yönləndirilməsi üçün dəqiq bir proqram hazırlamışdır. Belə ki, Allahın göstərişinə əsasən, insanların ən dəyərlisini seçib onu yetişdirməklə məşğul olmuşdur.

Mən uşaq yaşlarımdan Allahın peyğəmbərinin yanında olmuşam. O hər gün elm qapılarından birini mənim üçün açar, mənə gözəl ədəb öyrədərdi.

Peyğəmbər nazil olan hər bir ayəni mənim üçün oxuyardı. O oxuduqca mən də yazardım. Sonra da ayələrin təfsirini mənə öyrədərdi.

Allahın ona öyrətdiyi bütün halal və haramı, keçmişdə baş vermiş və gələcəkdə baş verəcək hadisələrin hamısını mənə öyrətdi. Mən onları əzbərlədim. Peyğəmbərin (s) duası nəticəsində onların bircə hərfini də unutmadım.[1]

1. Nəhcül-bəlağə, 187-ci xütbə; Kafi, c. 1, səh. 64.

Həzrət Peyğəmbər (s) Əmirəl-möminin Əliyə (ə) təfsir və Quran elmlərini öyrətdi ki, camaat İmam Əli və digər İmamların (ə) köməyi ilə Quran maarifindən faydalanıb əbədi səadət yolunda olsunlar.

Həzrət Əli (ə) buyurur:

"Bir gün həzrət Peyğəmbər mənə buyurdu: "Ey Əli, sənə deyəcəklərimi yaz." Dedim: "Ya Rəsuləllah, qorxursunuz ki, birdən sizin dediklərinizi unudaram?" Peyğəmbər (s) buyurdu: "Xeyr, sənin unudacağından qorxmuram, çünki Allah sənin din hökmləri və maarifini əzbər bilməyini istəmişdir. Ancaq deyəcəklərim təkcə sənin üçün deyil, səndən sonrakı imamlara da aiddir. Onlar üçün yaz".

Sonra Peyğəmbər oğlum Həsənə işarə edərək buyurdu: "Onların birincisi Həsəndir". Sonra Hüseynə baxıb buyurdu: "İkincisi də Hüseyndir. Qalanları isə Hüseynin nəslindəndir."[1]

Əmirəl-möminin Əli (ə) Quran maarifi, Allahın halal və haram hökmləri haqqında Peyğəmbərdən (s) öyrəndiklərinin hamısını oğlu İmam Həsənə (ə) öyrətdi ki, o da öz dövründə camaatın imamı və rəhbəri olsun. İmam Həsən (ə) də öz atası və babasından öyrəndiklərinin hamısını qardaşı İmam Hüseynə (ə) öyrətdi ki, o da Quran maarifindən istifadə edərək camaatı doğru yola yönəldib dini məhv olmaq təhlükəsindən qorusun. Beləliklə, Quranın təfsiri və digər din maarifi bir imamdan digərinə ötürüldü ki, hər dövrün insanları azğınlıq girdabından uzaq olmaq üçün Quran və eyni zamanda, imama tabe olsunlar.



2. Yənabiül-məvəddət, səh. 22.

Həzrət Muhəmmədin (s) səhabələri dəfələrlə Allah Rəsulunun belə buyurduğunu eşitmişdilər:

> *"Ey camaat, mən sizin aranızdan getsəm də, aranızda iki dəyərli əmanət qoyub gedəcəyəm. Siz o iki əmanətə sahib çıxsanız, heç vaxt yolunuzu azmayacaqsınız. Onlardan biri Allahın kitabı, digəri isə mənim Əhli-beytimdir. Bu iki şey Qiyamət günündə Kövsər bulağının başında mənə qovuşmayınca bir-birindən ayrılmayacaq. Elə isə məndən sonra onlara qarşı necə raftar edəcəyinizə diqqət edin!"*[1]

Həzrət Peyğəmbərin (s) bu kəlamı sonradan "Səqəleyn hədisi" adı ilə tanınmışdır. Səqəleyn hədisi onu göstərir ki, səadətə çatıb Allahın gözəl cənnətinə yetişməyin yeganə yolu Quran və Peyğəmbərin Əhli-beytinə sığınmaqdır. Allahın bu iki qiymətli əmanətindən hər hansı birini atmağın nəticəsi azğınlıqdan başqa bir şey olmayacaq.

## Sinif işi

Aşağıda verilmiş ayələri diqqətlə oxuyun:

*"Ona yalnız pak olanlar toxuna bilər!"*
*(Vaqiə surəsi, 79-cu ayə)*

لا يَمَسُّهُ إِلَّا الْمُطَهَّرُونَ

*"Ey Əhli-beyt! Həqiqətən, Allah sizdən (hər cur) çirkinliyi (pisliyi, günahı) uzaq tutmaq və sizi pakdan pak etmək istər!"*
*(Əhzab surəsi, 33-cü ayə)*

إِنَّما يُرِيدُ اللّٰهُ لِيُذْهِبَ عَنكُمُ الرِّجسَ أَهلَ الْبَيتِ وَ يُطَهِّرَكُم تَطهِيرًا

1. Sünəni-Tirmizi, c. 5, səh. 662-663; Müstədrəki-Hakim, c. 3, səh. 109, 110, 148, 533; Sünəni-İbn Macə, c. 2, səh. 432; Müsnədi-Əhməd ibn Hənbəl, c. 3, səh. 14, 17, 26, 59.

## Özünü sına

1. Nə üçün Allah Quranın ilk müəllimi olaraq həzrət Muhəmməd peyğəmbəri (s) seçmişdir?
2. Həzrət Peyğəmbər (s) özündən sonra insanların doğru yola yönəlməsi üçün hansı proqramı nəzərdə tutmuşdur?
3. Səqəleyn hədisinin tərcüməsini yazın.

## Təklif

"Kövsər" surəsi Quranın ən kiçik surəsi olub otuzuncu cüzdə yerləşir. Bu surənin mənası barədə təqdimat hazırlayıb sinifdə oxuyun.

Sizcə, "Kövsər" surəsinin dərsimizin mövzusu ilə nə əlaqəsi var?

## Daha çox bilək

Məsum İmamların hədis və kəlamlarının toplanıldığı kitablarda (məsələn, Kafi, Təhzib, İstibsar, Fəqih, Vəsailüş-şiə, Biharul-ənvar və s.) dəfələrlə İmamların (ə) belə buyurduğu nəql edilmişdir:

"Mənim dediyim hədis atamın buyurduğu hədisdir.

Atamın buyurduğu hədis babamın buyurduğu hədisdir.

Babamın buyurduğu hədis İmam Hüseynin buyurduğu hədisdir.

İmam Hüseynin buyurduğu hədis İmam Həsənin buyurduğu hədisdir.

İmam Həsənin buyurduğu hədis Əmirəl-möminin Əlinin buyurduğu hədisdir.

Əmirəl-möminin Əlinin buyurduğu hədis həzrət Peyğəmbərin (s) buyurduğu hədisdir.

Həzrət Peyğəmbərin (s) buyurduğu hədis isə Allahın buyurduğudur".[1]

Bu hədis İmam Sadiqdən (ə), eləcə də digər İmamlardan nəql edilmişdir. Buradan belə nəticəyə gəlmək olar ki, hər İmamın elmi özündən əvvəlki imamdan qaynaqlanır. Əmirəl-möminin Əlinin (ə) elmi isə həzrət Peyğəmbərin (s) elmindən qaynaqlanır. Həzrət Peyğəmbər (s) isə elmini Allahdan öyrənmişdir. Beləliklə, Peyğəmbərin elmi bir-birinin ardınca bütün İmamlara (ə) ötürülmüşdür. Deməli, hər hansı bir İmamdan (ə) bir hədis nəql edilirsə, sanki həmin hədis həzrət Peyğəmbərdən (s) nəql edilir. Peyğəmbərdən (s) nəql edilən isə, sanki Allahdan nəql edilir. Bunu nəzərə alaraq İmamların sözlərinə və etdiklərinə tabe olmaq eynilə həzrət Peyğəmbərin (s) sözlərinə və etdiklərinə və Allaha tabe olmaq deməkdir.[1]

1. Kafi, c. 1, səh. 53.

# On birinci dərs

## İslam dininin kamilləşməsi

Həzrət Muhəmməd peyğəmbər (s) nə vaxt hər hansı bir dəstəni bir iş ardınca göndərərdisə, içərilərindən bir nəfəri başçı təyin edərdi ki, aralarında fikir ayrılığı baş verməsin.

Özü iştirak etmədiyi döyüşlərdə ardıcıl olaraq bir neçə nəfəri orduya başçı təyin edərdi. Əgər biri şəhid olardısa, orduya ondan sonrakı başçılıq edərdi.

Peyğəmbər (s) nə vaxt Mədinə şəhərini tərk edərdisə, etimad edib inandığı bir nəfəri öz yerinə qoyardı ki, camaata rəhbərlik etsin.

Ən kiçik və müvəqqəti işlərdə belə müsəlmanları başçısız qoymayan Peyğəmbər (s) mümkündürmü ki, onların arasından həmişəlik ayrılarkən müsəlman cəmiyyətini rəhbərsiz qoyub özündən sonra bir başçı təyin etməsin?!

### Sinif işi

Dostlarınızın köməyi ilə insanların özlərindən sonra canişin təyin etməsinə dair başqa nümunələr tapıb onların barəsində sinif yoldaşlarınıza danışın.

**Ən önəmli mesaj**

Məkkə şəhəri insanla dolu idi. Təxminən yüz min nəfər adam var idi. Bütün müsəlmanlar sonuncu həcc səfərində həzrət Peyğəmbəri (s) müşayiət etmək şərəfinə nail olmaq istəyirdi.

Müsəlmanlar Mədinə, Yəmən, İraq və başqa yerlərdən gəlib həcc ziyarəti üçün özlərini Məkkəyə yetirmişdilər. Peyğəmbər (s) göstəriş vermişdi ki, imkanı olan hər kəs həcc ziyartində iştirak etsin.

Allah Rəsulu (s) özü ilə birlikdə ailəsini də Məkkəyə gətirmişdi.

Həcc ayinlərini yerinə yetirərkən bütün diqqətlər həzrətə (s) yönəlmiş, gözlər ona dikilmişdi. Hamı həcc əməllərinin necə yerinə yetirilməsini şəxsən Peyğəmbərin özündən öyrənmək istəyirdi.

Məkkə şəhəri o vaxta qədər belə bir hal görməmişdi. Bununla belə Allah Rəsulu (s) çox narahat idi. Allah tərəfindən camaata çatdırmalı olduğu çox vacib bir xəbərin narahatlığını keçirirdi...

Həcc ayinləri başa çatır. Digər şəhərlərdə yaşayan müsəlmanlar Məkkə şəhərini tərk edirlər. Bir neçə gün susuz və isti çöllərdə getdikdən sonra "Qədir-xum" adlı əraziyə çatırlar. Məhz orada müxtəlif şəhərlərə gedən yollar bir-birindən ayrılırdı. Artıq ayrı-ayrı şəhərlərə gedən müsəlmanlar öz sevimli peyğəmbərlərindən birdəfəlik, gözüyaşlı ayrılmalı idilər.

## Sinif işi

Sizcə, həzrət Peyğəmbər (s) Allah tərəfindən göndərilmiş vacib xəbəri camaata çatdırmaq üçün nəyə görə narahatlıq keçirirdi?

Müsəlmanlar hələ həzrət Peyğəmbərdən (s) çox aralanmamışdı ki, vəhy mələyi olan həzrət Cəbrail (ə) nazil olaraq belə bir ayə çatdırdı:

يا اَيُّهَا الرَّسولُ بَلِّغ ما اُنْزِلَ اِلَيْكَ مِن رَبِّكَ وَ اِنْ لَم تَفعَل فَما بَلَّغتَ رِسالَتَه وَ اللّهُ يَعصِمُكَ مِنَ النّاسِ اِنَّ اللّهَ لا يَهدِى القَومَ الكافِرينَ

*“Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni (insanlara) çatdır. Əgər (bunu) etməsən, (Allahın) risalətini (sənə həvalə etdiyi elçilik, peyğəmbərlik vəzifəsini) yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyacaq. Həqiqətən, Allah kafir camaatı düz yola yönəltməz!” (Maidə surəsi, 67-ci ayə)*

Görəsən, bu qədər önəmli olan xəbər nədir? Həzrət Peyğəmbər (s) Allahın dinini camaata əyər-əskiksiz çatdırmaq üçün iyirmi üç il hər bir çətinliyə dözmüşdü. Bu dinin təbliğ edilməsi yolunda ən yaxın adamlarını itirmişdi, cürbəcür əziyyət və işgəncələrə məruz qalmışdı, mühasirədə saxlanılmış, döyüşmək məcburiyyətində qalmış, yaralanmışdı. Bəs indi bu nə mesajdır ki, əgər onu camaata çatdırmazsa, bu illər ərzində çəkdiyi bütün zəhmətlər hədər gedəcək?!

Bu, neçə vaxtdan bəri həzrəti narahat edən xəbər idi; həzrət narahat idi ki, məbada bəzi insanlar inadkarlıq üzündən bu xəbərə qarşı çıxıb azğınlığa düşələr. İndi isə vəhy mələyi nazil olub həmin mesajı Allah tərəfindən camaata çatdırmalı olduğunu bildirir. Bundan sonra daha Peyğəmbərin (s) narahatlığı aradan qalxır.

Artıq Allahın mesajını camaata çatdırmağın vaxtı gəlib çatmışdı. Həzrət Muhəmməd peyğəmbər (s) göstəriş verir ki, karvandakıların hamısı dəvələrindən düşsünlər. Geridə qalanların da gəlib onlara çatması, irəlidə olanların isə geri qayıtması üçün bir qədər gözləməli olurlar.

Hamı başa düşür ki, çox vacib bir xəbər var. Ancaq xəbərin nə olduğunu heç kim bilmir. Bəziləri Peyğəmbərdən (s) nəyin baş verdiyini soruşur, həzrət isə zöhr namazından sonra danışacağını bildirir.

Günortaya yaxın hava çox isti idi. Hicazın qızmar günəşinin altında bəziləri öz əbalarını başlarına çəkib istidən qorunur, bəziləri də özlərini dəvələrin kölgəsinə vermişdilər.

Günorta namazının vaxtı çatdı. Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) namaza başlayır. Müsəlmanlar da həzrətin arxasında onunla birlikdə camaat namazı qılırlar.

Namaz başa çatan kimi Peyğəmbər (s) heç kimlə bircə kəlmə danışmadan hündür bir yerdə dayanır.

Hər tərəfi sükut bürüyüb. Minlərlə müsəlmanın gözü Peyğəmbərin (s) dodaqlarına zillənib...

Nəhayət, intizar başa çatır və Peyğəmbər (s) Allaha həmd-səna edərək danışmağa başlayır:

"... Ey camaat, ölüm hamının sorağına gələcək. Digər insanlar kimi mən də öləcəyəm. Bilin ki, həm mən, həm də siz Allah və Onun dini qarşısında məsuliyyət daşıyırıq. Mən öhdəmə düşən vəzifəmi yerinə yetirib Allahın buyurduqlarını sizə çatdıraraq sizi doğru yola yönəltdim.

Ey camaat, Allah mənə xəbər verib ki, ölümüm yaxınlaşmışdır. O məni Özünə tərəf çağırır. Mən tezliklə Onun dəvətini qəbul edib aranızdan ayrılacağam. Buna görə də sizinlə vidalaşıb çox mühüm bir vəsiyyətimi çatdırmaq istəyirəm.

Ey camaat, mən sizdən ayrılsam da aranızda iki dəyərli əmanət qoyub gedirəm. Siz o iki əmanətə sahib çıxsanız, heç vaxt yolunuzu azmayacaqsınız.

Onlardan biri Allahın kitabı, digəri isə mənim Əhli-beytimdir. Bu iki şey Qiyamət günündə Kövsər bulağının başında mənə qovuşmayınca bir-birindən ayrılmayacaq. Elə isə məndən sonra onlara qarşı necə rəftar edəcəyinizə diqqət edin!"

Həzrət Peyğəmbərin (s) sözü bura çatanda Əli ibn Əbu Talibi (ə) yanına çağırır. Onun əlindən tutaraq buyurur: "Ey camaat, bu vaxta qədər sizə rəhbərliyi mən edirdim. Mən Allah tərəfindən sizin başçınız və ixtiyar sahibiniz deyildimmi? Mən sizin rəhbəriniz deyildimmi?"

Hamı bir ağızdan: "Allahın peyğəmbəri, sən bizim başçımız və ixtiyar sahibimiz olmusan" - deyə cavab verirlər.

Bu vaxt həzrət Peyğəmbər (s) Əlinin (ə) əlini yuxarı qaldıraraq uca səslə belə buyurur:

"Bilin, mən kimin başçısı və ixtiyar sahibi olmuşamsa, bundan sonra bu Əli də onun başçısı və ixtiyar sahibidir! Allahım, kim Əlinin rəhbərliyini qəbul edərsə, Sən də onu Öz rəhbərliyin altına sal. Allahım, Əlinin dostları ilə dost, düşmənləri ilə düşmən ol!"[1]

Sözlərinin sonunda həzrət Peyğəmbər (s) belə buyurur: "Allahın bu xəbərini sizə çatdırdımmı?"

Camaat cavab verir: “Bəli, ey Allahın peyğəmbəri”.

Peyğəmbər (s) buyurur: “Elə isə burada olanlar bu xəbəri burada olmayanlara da çatdırsınlar!”

Həzrət Peyğəmbərin (s) sözləri başa çatan kimi müsəlmanlar dəstə-dəstə gəlib Əmirəl-möminin Əlini (ə) bu böyük şərəf münasibətilə təbrik edirlər. Peyğəmbərin səhabələri digər müsəlmanlardan daha öncə həzrət Əlinin (ə) rəhbər təyin edilməsi münasibətilə ona təbrik deyib Əlini (ə) öz mövlaları (başçıları) adlandırırlar.



1. Biharul-ənvar, c. 37, səh. 108-251.

## Sinif işi

Sizcə, Allahın və həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) özündən sonra Əmirəl-möminin Əlinin (əleyhissəlam) başçı və imam təyin edilməsinə bu qədər təkid etməsinin səbəbi nə idi?

Artıq Peyğəmbərin (s) üzündə heç bir narahatçılıq hiss olunmurdu. O, Allahın bu önəmli xəbərini on minlərlə müsəlmanın gözü qarşısında camaata çatdırmışdı ki, daha ondan sonra İmam Əlinin (ə) həzrət Peyğəmbərin (s) canişini təyin edilməsində heç kəsin zərrəcə şübhəsi qalmasın.

Hələ camaat həzrət Əlinin (ə) ətrafından dağılışmamışdı ki, vəhy mələyi həzrət Peyğəmbərə (s) başqa bir ayə çatdırır:

...اليَـومَ اَكـمَـلـتُ لَـكُم ديـنَـكُم وَ اَتـمَمتُ عَـلَـيكُم نِعـمَتـى وَ رَضيـتُ لَـكُـمُ الاِسـلامَ ديـنًا.

*"Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və sizin üçün din olaraq İslamı bəyənib seçdim".*
*(Maidə surəsi, 3-cü ayə)*

Müsəlman alimləri bu hadisəni yazdıqları məşhur hədis kitablarında qeyd etmişlər. Artıq məzhəbindən asılı olmayaraq heç bir müsəlman üçün bu hadisə və həzrət Peyğəmbərin (s) bu haqda buyurduqları barədə qətiyyən şübhə yeri qalmır.

## Yeganə seçim

Qədir-xum hadisəsində İmam Əlinin (ə) həzrət Peyğəmbərin (s) canişini təyin edilməsi bilavasitə Allah tərəfindən baş tutmuş, vəhy mələyi Cəbrail də bunu həzrət Peyğəmbərə (s) çatdırmışdır. Əgər bu seçim Allah tərəfindən həyata keçməsəydi və Peyğəmbər (s) özü bu seçimi etməli olsaydı, bu iş üçün hamıdan layiq kim ola bilərdi?

Şübhəsiz ki, Peyğəmbərdən sonra müsəlmanlara rəhbərlik etməyə hamıdan layiq olan şəxs Quranı və İlahi hökmləri hamıdan daha yaxşı bilən və bütün hökmləri Allah Rəsulundan öyrənmiş şəxs olmalı idi.[1] Bu isə Əmirəl-möminin Əli ibn Əbu Talibdən (ə) başqa birisi ola bilməzdi.

Qədir-xum günündə İmam Əlinin (ə) həzrət Peyğəmbərin (s) canişini təyin edilməsi müşrik və münafiqləri tamamilə məyus etdi. Çünki onlar elə fikirləşirdilər ki, Peyğəmbərin oğlu olmadığına görə kimsə onun işlərini davam etdirməyəcək, beləliklə, onun vəfatı ilə İslam dini də tamamilə unudulub aradan gedəcək. Lakin Qədir-xumda İmam Əlinin (ə) həzrət Peyğəmbərdən (s) sonra müsəlmanların rəhbəri təyin edilməsi ilə onların bütün arzu və ümidləri puç oldu.Bu seçimlə Allahın doğru yolu bütün insanlara aydın oldu.

## Özünü sına

1. İzah edin görək, əgər həzrət Peyğəmbər (s) bu mühüm mesajı camaata çatdırmasaydı, nə üçün, sanki heç bir iş görməmiş olardı?
2. Nə üçün kafirlər və münafiqlər Qədir-xum günündə İslamın aradan gedəcəyindən ümidlərini kəsdilər.
3. Nə üçün həzrət Peyğəmbərdən (s) sonra yalnız Əmirəl-möminin Əli (ə) müsəlmanlara rəhbərlik etməyə layiq idi?

---

1. Həm şiə, həm də sünni alimlərinin kitablarında oxuyuruq ki, Peyğəmbərin (səlləllahu əleyhi və alih) səhabələrinin hamısı həzrət Əlinin (əleyhissəlam) onların hamısından daha bilikli olduğunu etiraf etmişlər.

## Daha ətraflı bilək

### Ən böyük bayram

Müsəlmanlar Qədir-xum gününü böyük təntənə ilə qeyd edir. Həmin gün insanlar bu əlamətdar hadisənin xatirəsini qoruyub saxlamaq məqsədilə seyidlərin görüşünə gedir və bu böyük nemətə görə Allaha şükür edirlər. Bu əlamətdar gün hələ Əhli-beytin (ə) dövründən mmöminlər arasında bayram olaraq qeyd edilmişdir.

Bir nəfər İmam Sadiqdən (ə) soruşur: "Müsəlmanların Ramazan və Qurban bayramlarından başqa da bayramı varmı?"

İmam Sadiq (ə) cavab verir: "Bəli, bunlardan da böyük bir bayram var."

- Hansı bayramdır?

- Həzrət Peyğəmbərin (s) həzrət Əlini (ə) müsəlmanların başçısı təyin edərək: "مَنْ كُنْتُ مَوْلاهُ فَهذا عَلِيٌّ مِوْلاه" (Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır) – deyə buyurduğu gün.

- O hansı gündür?

- Zilhəccə ayının on səkkizinci günü.

- O gün hansı əməli etmək yaxşı olar?

- O gün oruc tutub ibadət etməklə, Muhəmməd və Ali-Muhəmmədin (əleyhimussəlam) fəzilətlərindən danışmaqla Allahı yad edin. Həzrət Peyğəmbər (s) İmam Əliyə (ə) tapşırmışdı ki, o günü bayram olaraq qeyd etsin...[1]

Qədir-xum hadisəsi və imam Əlinin (ə) həzrət Peyğəmbərdən (s) sonra müsəlmanların rəhbəri təyin edilməsi məsələsi o qədər böyük önəm kəsb etmişdir ki, bir çox alimlər bu mövzuya ayrıca kitablar həsr etmişlər.

Bu mövzuya dair yazılmış ən dəyərli kitablardan biri "Əl-Qədir" əsəridir. Əllamə Əmini tərəfindən yazılmış bu kitab on bir cilddən ibarətdir. Müəllif kitabın birinci cildində Qədir-xum hadisəsinin canlı şahidi olmuş yüzlərlə sünni və şiə ravisinin[2] adını qeyd etmişdir. Kitabın digər cildlərində müxtəlif əsrlərdə yaşayıb Qədir-xum hadisəsini qələmə almış yüzlərlə müəllifin adını çəkmişdir. Onlardan bəzisi bu hadisəyə ayrıca kitab həsr etmiş, bəzisi isə hər hansı əsərlərinin bir hissəsində həmin hadisə barədə ətraflı məlumat vermişdir.

Qədir-xum hadisəsinə bu və ya digər formada işarə edən ən önəmli sünni kitabları əsasən bunlardır: Sünəni-Tirmizi, Müsnəfi-İbn Əbu Şeybə, Əl-Möcəmül-kəbir, Təfsiri-Lübab, Əd-Durrul-mənsur ən Əbu Hüreyrə, Təfsiri-İbn Kəsir, Əl-Müstədrək, Məcməüz-zəvaid, Təfsiri-Razi və s.

1. Vəsailüş-şiə, c. 10, səh. 440
2. Hədis nəql edən şəxsə "ravi" deyilir.

# On ikinci dərs

## Qeyb dövründə rəhbərlik

Əvvəlki dərslərdə öyrəndik ki, həzrət Muhəmməd peyğəmbərin (s) vəfatından sonra müsəlmanlara rəhbərlik etmək vəzifəsi məsum İmamların (ə) öhdəsində olmuşdur.

**İndi bir qədər düşünək.**

Min ildən artıqdır ki, İmam Zaman (əccələllahu fərəcəh) qeybdə yaşadığı üçün insanlar onu görə və istədiyi sualları verə bilmirlər.

Deyə bilərikmi ki, bu müddət ərzində insanların rəhbər və başçıya ehtiyacları olmamışdır? Elə isə qeyb dövrü sayılan belə vaxtda insanlar nə etməlidirlər?

İmam Sadiqin (əleyhissəlam) səhabələrindən biri ondan soruşur: “Peyğəmbər balası, dostlarımızdan ikisi hansısa bir məsələyə görə bir-biri ilə mübahisə ediblər. Aralarındakı məsələni həll etmək üçün xəlifə və ya hakimə müraciət edə bilərlərmi?”

İmam Sadiq (ə) onun cavabında belə buyurur: “Xeyr. Zalım hakimə müraciət edərək onun verəcəyi hökmə əsasən nəyisə əldə edən şəxs, əslində, zalıma müraciət etmiş sayılır. Allah Quranda insanları zalım hökmdarlara müraciət etməkdən çəkindirmişdir”.

- Ey Peyğəmbər balası, bəs mübahisəli məsələlər yarandıqda biz nə etməliyik?

- Biz Əhli-beytin sözlərini deyəcək, halal və haramdan xəbərdar olan, din hökmlərini yaxşı bilən insanlara müraciət etməlisiniz. Onları mən sizin üçün hakim təyin etmişəm. İnsanlar da onların verəcəyi hökmə tabe olmalıdırlar. (Əslində, bizim hökmümüz sayılan) onların verəcəyi hökmü qəbul etməyən şəxs, şübhəsiz, Allahın hökmünü inkar edir. Belə ki, bizi qəbul etməyən insan Allahı inkar etmiş olur.[1]

1. Kafi, c. 1, səh. 67.

Bu hədis açıq şəkildə bildirir ki, İmamın qeybdə olduğu dövrdə haqq yolu göstərmək din alimlərinin öhdəsinə düşür. Elə isə din alimləri kimlərdir?

İmam Sadiq (ə) həqiqi din alimləri barəsində belə buyurmuşdur:

"İnsanların borcudur ki, təqvalı, dinini qoruyan, nəfsani istəklərinə qarşı çıxan və Alahın əmrlərinə tabe olan fəqihlərə tabe olsunlar".[1]

İmam Sadiqin (ə) bu hədisində fəqihlər üçün qeyd edilmiş dörd xüsusiyyətin hər biri onları insanların dünya və axirət səadətini təhlükəyə atan işlər görməkdən çəkindirir. Məsələn birinci xüsusiyyətə diqqət yetirin:

Sizcə, cəmiyyətə rəhbərlik təqvalı olmayan bir nəfərə tapşırılarsa, o da ürəyi istədiyi işləri görərsə, cəmiyyətdə nələr baş verər? Belə bir şəxs insanlar arasında ədalətlə davrana bilərmi? O, Allahın hökmlərini özünün və yaxınlarının xeyrinə dəyişməyə çalışmayacaqmı?

Həqiqi alim və fəqihlər o insanlardırlar ki, söz və davranışlarında Peyğəmbər (s) və məsum İmamların (ə) yolu ilə getsinlər, hər bir məsələdə onların fikrini çatdırsınlar. Deməli, fəqihin verdiyi fitvanı qəbul etmək, sanki Peyğəmbər və İmamların (ə) dediyini qəbul etməkdir. Çünki fəqihin fitvası Quran ayələri və hədislərə istinad edir. Buna görə də fəqihlər İmam Zamanın (ə) nümayəndəsi hesab olunur. Məsum İmamların dövründə şəri məsələlərin və hökmlərin öyrənilməsində onların nümayəndələrinə tabe olmaq insanların borcu olduğu kimi, İmamın (ə) qeybdə olduğu dövrdə də onun nümayəndələrinə, yəni fəqihlərə, müctəhidlərə tabe olmaq hamının borcudur.

1- Vəsailüş-şiə, c. 27, səh. 131

## Özünü sına

1. İmam Sadiqin (ə) buyurduğu hədisə əsasən İmamın (ə) qeybdə olduğu müddət ərzində müctəhid və fəqihin xüsusiyyətlərini izah edin.

2. İnsanlar nə üçün fəqihlərə tabe olmalıdırlar?

# Altıncı fəsil: Əxlaq

İslam dini insanın təkcə axirət səadətini deyil, eyni zamanda bu dünyadakı xoşbəxtliyinə də xüsusi önəm verir. Bu məqsədlə insanın dünyadakı həyatı daha gözəl olsun deyə, İslam dini öz dəyərli tövsiyələrini verir. Əvvəlki kitablarda bu dəyərli tövsiyələrin bəziləri ilə, o cümlədən doğru danışmaq, gözəl danışmaq, yaxşı dostlar seçmək, elm öyrənmək, tələskənlikdən və ifrat dərəcədə əyləncədən uzaq olmaq kimi məsələlərlə tanış olduq.

Bu fəsildə riayət edilməsi insanın həyatının daha da gözəlləşməsinə səbəb olan bir sıra başqa tövsiyələrə işarə olunur.

On üçüncü dərsdə **(“Dua və münacat ”)** həyatdakı çətinlik və problemlərin aradan qalxmasında duanın təsirindən danışılır. Bu dərsdə həm də duanın qəbul olunmasının qarşısını alan amillərə də toxunulur.

On dördüncü dərsdə **(“Əməlin nəticəsi”)** dünya həyatımızda öz təsirini göstərərək həyatımızı dəyişən bir neçə əməldən danışılır.

On beşinci dərsdə **(“Şeytanın əsgərləri”)** iki bəyənilməz xüsusiyyət (paxıllıq və ümidsizlik) haqqında söhbət edilir. Bildirilir ki, bu iki xüsusiyyət kimdə olarsa, onun həm bu dünyası, həm də axirəti təhlükəyə düşər. Bu dərsdə bu iki xüsusiyyətə qələbə çalmağın yolları izah edilir.

On altıncı dərsdə **(“Dostluq”)** dostluğun düzgün meyarları və başqalarına rəğbət bəsləmək haqqında söhbət açılır. Eyni zamanda, bəzi haram baxışların mənfi nəticələrindən bəhs edilir.

# On üçüncü dərs

## Dua və münacat

Əmirəl-möminin həzrət Əli (ə) sevimli oğlu İmam Həsənə (ə) yazdığı məktubda belə buyurur:

"... (Oğlum!) Bil ki, yerin-göyün xəzinələri ixtiyarında olan varlıq sənə Onun dərgahına dua etmək imkanı vermiş, sənin etdiyin duaya cavab verməyi isə Öz öhdəsinə götürmüşdür.

Sənə göstəriş verib ki, istəyini Ondan diləyəsən, O da versin, Onun mərhəmətindən istəyəsən, əta etsin! Nə vaxt Onu səsləsən, səni eşidər. O, onsuz da sənin sirrini bilir, elə isə ürək sözünü Ona de. İstəyini Ondan istə, dərdini Ona de ki, qəm-qüssəni aradan aparıb çətinliyini həll etsin. Onun mərhəmət xəzinələrindən elə şeylər istə ki, Ondan başqa kimsə onları sənə əta etmək iqtidarında olmasın. Ondan ömrünün uzanmasını, can sağlığını, ruzinin artmasını istə.

(Oğlum!) Sənə dua etmək icazəsi vermiş Allah (əslində) Öz xəzinələrinin açarını sənin ixtiyarına vermişdir. İstədiyin vaxt dua ilə Onun nemət qapılarını açıb mərhəmətini özünə doğru yönəldə bilərsən".[1]

### Sinif işi

Sizcə, din rəhbərləri nə üçün dua etmək məsələsinə bu qədər önəm vermişlər?

---

1. Kafi, c. 1, səh. 67.

## Həmişəyanar çıraq

Təsəvvür edin ki, təyyarə ilə səfər edirsiniz. Qəflətən təyyarədə ciddi silkələnmə baş verir və hər şey bir anda bir-birinə dəyir. Texniki nasazlıq səbəbindən təyyərinin pilotu idarəetməni itirir. Artıq heç kimin əlindən bir iş gəlmədiyi bu vəziyyətdə nə edərsiniz?

Tamamilə təbii haldır ki, insan böyük çətinlik və təhlükə ilə qarşılaşdıqda Allahı səsləyib Ondan yardım diləyir. Bəzi insanlar isə yanlış olaraq belə düşünürlər ki, ancaq bu cür çətin anlarda dua etmək lazımdır.

Quranın buyurduğuna əsasən, biz istənilən halda Allaha və Onun köməyinə möhtacıq. Onun istəyi və icazəsi olmadan, hətta ən xırda işləri belə həyata keçirə bilmərik. Buna görə də, din rəhbərləri bizə bir sıra dualar öyrətmişlər ki, onların vasitəsilə Allah ilə ünsiyyətdə olub Onun köməyindən faydalanaq.

Həftənin gündəlik duaları, yatarkən edilən dua, mütaliə vaxtı edilən dua, dəstəmaz alarkən, yuxudan oyanarkən, nəqliyyat vasitəsinə minərkən və s. vaxtlara aid minlərlə dua insanla Allah arasında ünsiyyət yaratmaq üçün vasitələrdir.

Dua etmək məsələsi o qədər önəm kəsb edir ki, Allah bəndələrinə öz istəklərini Ondan istəməsini tapşıraraq buyurmuşdur:

و قال ربُّكم اُدعونى اَستَجِب لَكُم...

"Rəbbiniz buyurdu: "Mənə dua edin, Mən də sizin dualarınızı qəbul edim!" (Ğafir surəsi, 60-cı ayə)

Bu ayə bizə başa salır ki, dua etmək Allahın xüsusi diqqətini bizə cəlb etmiş olur. Dua etməkdən üz döndərən insanlar, əslində, özlərini Allahın xüsusi mərhəmətindən məhrum edirlər.

## Sinif işi

Gündəlik qılınan beş vaxt namazın ümumi məzmununa diqqət yetirin və gün ərzində namazda etdiyiniz duaları bəyan edin.

Nəzərə almaq lazımdır ki, həzrət Peyğəmbər (s) və onun pak Əhli-beytinə (ə) salavat demək ən gözəl duadır.

### Dua və münacatın faydaları

Öyrəndik ki, dua etməklə biz Allahın diqqətini cəlb etmiş oluruq. Dua sayəsində Qiyamət günündə savab əldə etməklə yanaşı, bu dünyada da Allahın nemətlərini əldə etməyə daha layiq oluruq.

Duanın bu önəmli faydası barədə İmam Sadiq (ə) belə buyurur:

"Allah dərgahında elə bir məqam vardır ki, oraya yalnız dua etməklə yüksəlmək olar. Bəndə sakit dayanıb Allahdan heç nə istəməsə, ona heç nə verilməz. Buna görə də istəyin ki, sizə verilsin. Unutmayın ki, döyülən qapı gec-tez insanın üzünə açılacaq".[1]

Duanın daha bir faydası psixoloji rahatlıqdır. İnsanda o vaxt ümidsizlik və narahatlıq baş qaldırır ki, çətinliklər qarşısında özünü tənha hiss edir. Dərdini bölüşüb çətinliklərini danışmağa, ondan kömək istəməyə kimsəni tapmır.[2]

### Duanın ədəb qaydaları

Duanın ədəb qaydaları elə incə məsələlərdir ki, onlara riayət edilməsi Allahın daha çox diqqətini cəlb edib duanın daha tez qəbul olunmasına şərait yaradır.

1. Kafi, c. 1, səh. 67

2. Tanınmış doktor və psixoloq Aleksis Karrel "Dua" kitabında yazır: "Bir millət arasında dua anlayışının olmaması həmin millətin süqutu deməkdir. Dua ehtiyacını özündə hiss etməyən cəmiyyət heç vaxt məhv olmaq təhlükəsindən amanda qalmaz. Duanın nəticələrindən faydalanmaq üçün təbii ki, bu iş diqqətlə yerinə yetirilməlidir. Elə olmamalıdır ki, insan səhər tezdən günə başlayarkən dua ilə başlayıb sonra isə gün ərzində yırtıcı heyvanlar kimi rəftar etsin".

Bu ədəb qaydaları ilə daha yaxından tanış olmaq üçün həzrət Peyğəmbər (s) və məsum İmamlardan (ə) nəql edilmiş aşağıdakı hədislərə diqqət yetirin:

1. Nə vaxt Allahdan diləyini istəsən, əvvəlcə Peyğəmbərə (s) salavat deməklə başla, çünki Allaha yaraşmaz ki, salavatı qəbul edib ardını isə qəbul etməsin.

2. Dörd vaxtı dua etmək üçün qənimət bil: Quran oxuyan zaman, azan vaxtı, yağış yağan vaxtı və müsəlman ordusu ilə kafir ordusunun qarşılaşdığı vaxt.

3. İmam Muhəmməd Baqir (ə) nə vaxt Allahdan bir diləyini istəsəydi, əvvəlcə sədəqə verər, sonra ətirlənib məscidə gedər, zöhr azanı vaxtı dua edib diləyini istəyərdi.

4. Gizli dua etdiyi zaman əvvəlcə başqaları üçün dua edən şəxsin duası daha tez qəbul olar. Kim belə dua edərsə, Allah dərgahından deyilər: "Başqaları üçün istədiyinin min qatı sənin özün üçün olsun!"[1]

## Sinif işi

Yuxarıda verilmiş hədislərdə deyilənləri nəzərə alaraq, duanın ədəb qaydalarını əks etdirən bir cədvəl qurub sinif yoldaşlarınız üçün oxuyun.

Hazırlanmış ən yaxşı cədvəli sinifdən asa bilərsiniz.

Mümkündür ki, sizdə belə bir sual yaransın: Bəzi hallarda biz duanın ədəb qaydalarına riayət etsək belə, nə üçün dualarımız qəbul olunmur?

İmam Əlinin (ə) sevimli oğlu İmam Həsənə (ə) yazdığı məktubun aşağıda verilmiş hissəsi bu suala cavab verir:

"... (Oğlum!) Duanın gec qəbul olunmasına görə qətiyyən məyus olma! Belə ki, Allahın bəxşişi insanın niyyəti qədərində olur. Bəlkə də dua ona görə gec qəbul olur ki, dua edənin savabı daha çox olsun. Bəzi vaxtlar nəyisə istəsən də, istəyin sənə verilmir. Ancaq onun əvəzində istədiyindən daha yaxşısı ya bu dünyada, ya da o biri dünyada sənə verilir. Bəzi vaxtlar isə etdiyin dua ona görə qəbul olunmur ki, istədiyin şey sənə veriləcəyi təqdirdə sənin dinini korlayar. Buna görə də elə şeylər istə ki, yaxşılığı sənin üçün daha qalarlı olub sənin üçün pisliyi olmasın!"

1. Kafi, c. 4, səh. 465.

## Daha çox bilək

Bu dərsdə duanın bir sıra ədəb qaydaları ilə tanış olduq. Bundan əlavə, bir sıra amillər də vardır ki, etdiyimiz duaların mehriban olan Allah dərgahında daha tez qəbul olunmasına şərait yaradar.

Aşağıda verilmiş hədisə diqqət yetirin:

Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) buyurmuşdur:

"Cümə günü digər günlərin ağasıdır. Cümə günündə yaxşılıqlar ikiqat hesablanıb günahlar aradan gedir. Cümə günündə dualar qəbul olunub çətinliklər aradan qalxır, insanların istəkləri yerinə yetir. Cümə günü elə bir gündür ki, onda Allah başqa günlərlə müqayisədə cəhənnəmlikləri əzabdan daha çox azad edir.

Kim bu günün dəyərini bilərsə və həmin gün Allaha dua edərsə, şübhəsiz, uca olan Allah onu cəhənnəm odundan azad edər. Həmin gün və ya onun gecəsində ölərsə, şəhid sayılıb Qiyamət günündə Allahın pənahında qalar".

## Özünü sına

1. Nə üçün Allahı ancaq çətinliklər zamanı səsləməməliyik?
2. Dua etməyin nə kimi faydaları vardır? Onlardan ikisini qeyd edin.
3. Duanın ədəb qaydalarından dördünü sadalayın.
4. İmam Əlinin (ə) kəlamına əsasən, nə üçün bəzi dualar dərhal qəbul olunmur?

## Təklif

"Məfatihül-cinan" kitabında həftənin hər günü üçün məsum İmamlardan (ə) müəyyən dua nəql edilmişdir. Həmin kitaba müraciət etməklə həftənin gündəlik dualarından birinin tərcüməsini qeyd edib sinifdə yoldaşlarınız üçün oxuyun.

# İlahi!

رَبِّ اجعَلنی مُقیمَ الصَّلاةِ
وَ مِن ذُرِّیَّتی
رَبَّنا وَتَقَبَّل دُعاءِ.
رَبَّنَا اغفِر لی وَ لِوالِدَیَّ وَ لِلمُؤمِنینَ
یَومَ یَقومُ الحِسابُ.

*"Ey Rəbbim! Məni də, nəslimdən olanları da (vaxtlı-vaxtında, davamlı) namaz qılan et. Ey Rəbbimiz! Duamı qəbul buyur!*
*Ey Rəbbimiz! Haqq-hesab çəkilən gün (qiyamət günü) məni, ata-anamı və möminləri bağışla!"*

*(İbrahim surəsi, 40-41-ci ayələr)*

رَبَّنَا اغفِرلَنا وَ لِاِخوانِنَا الَّذینَ سَبَقونا
بِالایمانِ وَ لا تَجعَلْ فی قُلوبِنا غِلًّا لِلَّذینَ
آمَنُوا
رَبَّنا اِنَّکَ رَئوفٌ رَحیمٌ.

*"Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş (din) qardaşlarımızı bağışla. Bizim qəlblərimizdə iman gətirənlərə qarşı kinə (həsədə) yer vermə.*
*Ey Rəbbimiz! Sən, həqiqətən, şəfqətlisən, mərhəmətlisən!"*

*(Həşr surəsi, 10-cu ayə)*

# On dördüncü dərs

## Əməlin nəticəsi




Topu möhkəm zərbə ilə divara vurduqda nə baş verir?

Bu gün alimlər qəbul etmişlər ki, dünyada heç bir hadisə təsadüf nəticəsində baş verməmişdir. Ən kiçik hadisələr belə müəyyən və dəqiq qanunlar nəticəsində baş verir. Yaradılış aləmi də məhz həmin dəqiq qanunlar əsasında yaradılmışdır.

Əməl və onun nəticəsi bunun ən bariz nümunəsidir. Əvvəlki kitablarda bu barədə məlumat almışdınız.

### Sinif işi

1. Əməl və onun nəticəsi qanununu sinifdə izah edərək misal çəkin.
2. Sizcə, uca Allah bu qanunu təkcə maddi cisimlər üçün nəzərdə tutmuşdur, yoxsa bizim öz əməllərimiz də bu qanuna tabedir?

Məktəbdən çıxarkən görürsünüz ki, məktəb qapısının qarşısında yerə soyulmuş bir banan qabığı düşüb. Öz-özünüzdə fikirləşirsiniz ki, əgər bu banan qabığı məktəbdən çıxan hansısa şagirdin ayağının altında qalarsa, mütləq sürüşüb yıxılacaq.

Allah rizası üçün əyilərək banan qabığını yerdən götürüb zibil qutusuna tullayırsınız.

Bir neçə dəqiqədən sonra evinizin yaxınlığında yolun kənarında ehtiyacı olan bir nəfər görürsünüz. Siz onu tanıyırsınız və bilirsiniz ki, doğrudan da, köməyə ehtiyacı var. Üzərinizdə özünüz üçün saxladığınız bir qədər pulunuz var. Onu özünüz üçün xərcləməyi çox istəsəniz də, yenə Allah rizası üçün sidq ürəklə pulu ehtiyacı olan həmin insana verirsiniz.

İndi bir qədər fikirləşin, görün siz bu işlərinizlə hamıdan çox kimə yaxşılıq etmisiniz?

Əməl və onun nəticəsi qanununa görə, hər işin öz sahibinə qayıdan bir nəticəsi vardır. Deməli, siz gördüyünüz yaxşı işlərdə hamıdan çox məhz özünüzə yaxşılıq etmiş olursunuz. Təbii ki, bu qanun bəyənilməz işlərdə də qüvvədədir. Hər hansı bir iş görən şəxsin əməlinin acı nəticəsi ilk növbədə onun özünə gedib çatır.

Dərsimizin davamında elə işlərə toxunacağıq ki, onların nəticəsi nəinki Qiyamət günündə, hətta bu dünyada da gec-tez öz sahibinə gedib çatır.

**1. Sədəqə**

O gün hava çox isti idi. Nəzirimi yerinə yetirmək üçün Məkkədən Mədinə şəhərinə qədər olan məsafəni piyada getməli idim. Gedərkən yolda bir kəndə çatdım. Həddən artıq susamışdım. Bir qarpız alıb susuzluğumu yatırmaq üçün elə oradaca yeməyə başladım. Birdən gördüm ki, bir qədər aralıda bir nəfər dayanıb gözünün ucu ilə mənə baxır. Əyninə köhnə paltar geyinmiş bir qadın idi. Əvvəlcə elə bildim ki, o tərəflərin çobanlarındandır, qarpız qabığını qoyunlarına aparmaqdan ötrü mənim yeyib qurtarmağımı gözləyir.

Qarpızı yeyib yoluma davam etdim. Çox da uzaqlaşmamışdım ki, bir neçə uşağın səs-küyü diqqətimi cəlb etdi. Geri çevrilib baxdıqda

çox təsirli bir səhnə ilə qarşılaşdım; gördüm ki, bayaqkı qadın yeddi-səkkiz uşağın arasında qarpız qabıqlarını bölüşdürür.

Onlara tərəf gedib bu işin səbəbi barədə soruşdum. Qadın əvvəlcə cavab vermək istəməsə də, mənim israrlı olduğumu gördükdə məcbur qalıb dedi: "Bunlar mənim uşaqlarımdır. Bir neçə vaxt bundan əvvəl ataları vəfat edib. Ondan sonra bizim yaşayışımız həddən artıq ağırlaşıb. Bu gün məcbur olub evdən çıxmışam ki, bəlkə uşaqlar üçün yeməyə bir şey tapam. Bu qarpız qabıqları heç olmasa bir müddət onların başını qatar".

Üzərimdə üç yüz Səudiyyə Ərəbistanı rialı[1] var idi. Qərara gəldim ki, pulun hamısını o qadına verim. Lakin şeytan məni vəsvəsə etməyə başladı: "Sən özün bu ölkədə qəribsən, pulun hamısını ona versən, bəs özün nə edəcəksən?! Fikirləşdim ki, mənim nə qədər ehtiyacım olsa da, bu qadın və uşaqları qədər möhtac deyiləm. Mən bəlkə də özüm üçün bir çarə tapa bilərəm, ancaq o qadının əlindən heç bir çarə gəlmir.

Qərarımı qətiləşdirib pulun hamısını qadına verərək yoluma davam etdim...

O isti qızmar havada aqibətim barədə düşünərək getdiyim halda, qarşımda bir avtobus dayandı. Mədinəyə gedən zəvvarlar idilər. Onlar qizmar istidə mənim ayaqyalın piyada yol getdiyimi görüb halıma acıdıqları üçün avtobusu saxlatdırmışdılar ki, məni də mindirsinlər. Birdən avtobusdakı zəvvarlardan biri uca səslə: "Ağa Şeyx Məhəmmədtəqi, bu sizsiniz?!" – deyərək fəryad etdi. Tələsik avtobusdan düşüb bir kəlmə də demədən başladı məni öpməyə.

Öz-özümə dedim ki, ay Allah, bu səhralıqda bu kişi kimdir? O, məni haradan tanıyır?

Danışığından belə başa düşdüm ki, uzun illər bundan qabaq mənim şagirdlərimdən olub. Mənim avtobusa minməyimi israr etsə də, piyada gedəcəyimi nəzir etdiyimi bildirdikdə dedi: "Elə isə onda bir dəqiqə gözləyin".

Bunu deyib tələsik avtobusa mindi. Çox keçmədi ki, özü ilə xeyli pul gətirib dedi: "Bu, neçə vaxtdır sizə vermək istədiyim kiçik bir hədiyyədir. Ancaq sizi görə bilmirdim. Xahiş edirəm, bunu məndən qəbul edin!"

---

1. Səudiyyə Ərəbistanının pul vahididir.

Pulu qəbul etməmək üçün nə qədər çalışsam da, o, israrla pulu mənə verib getdi. Avtobus bir qədər aralandıqdan sonra pulu sayıb gördüm ki, düz üç min rialdır. Mənim kasıb qadına verdiyim pulun on qatı. Özümdən ixtiyarsız Allahın "..........................................................................................................................................................................................................................................." – deyə buyurduğu kəlamını xatırladım.[1]

## Sinif işi

Aşağıdakı ayələrə diqqət yetirin. Onlardan hansı yuxarıdakı mətndəki nöqtələrin yerinə daha uyğun gəlir?

"Kim (dünyada) zərrə qədər yaxşı iş görmüşdürsə, onu (onun xeyrini) görəcəkdir (mükafatını alacaqdır). Kim də zərrə qədər pis görmüşdürsə, onu (onun zərərini) görəcəkdir (cəzasını çəkəcəkdir)". (Zilzal surəsi, 7-8-ci ayələr)

فَمَن يَعمَل مِثقالَ ذَرَّةٍ خَيرًا يَرَه وَ
مَن يَعمَل مِثقالَ ذَرَّةٍ شَرًّا يَرَه

"(Allah yolunda) nə xərcləsəniz, Allah onun əvəzini verər. O, ruzi verənlərin ən yaxşısıdır!" (Səbə surəsi, 39-cu ayə)

وَما أَنفَقتُم مِن شَيءٍ فَهُوَ
يُخلِفُهُ وَ هُوَ خَيرُ الرّازِقينَ

"Kim yaxşı bir iş görərsə, ona həmin işin on qat əvəzi verilər". (Ənam surəsi, 160-cı ayə)

مَن جاءَ بِالحَسَنَةِ فَلَه عَشرُ
أَمثالِها

Gördüyümüz kimi, ehtiyacı olanlara əl tutmaq və sədəqə verməyin nəticəsi axirət dünyasından əlavə, bu dünyada da öz sahibinə gəlib çatır. Bu təsir təkcə sədəqə verməyə aid deyil. Bir sıra digər işlər də belə təsirə malikdir. Belə işlərdən biri də qohumluq münasibətlərini qoruyub saxlamaq, qohumlara baş çəkməkdir.

1. Mərhum Şeyx Məhəmmədtəqi Bəhlul adlı bir ruhaninin başına gəlmiş real hadisədir.

## 2. Sileyi-rəhm

Qohumluq əlaqələrinin möhkəmlənməsinə səbəb olan hər bir iş "sileyi-rəhm" adlanır. Qohumlarla salamlaşmağı, hal-əhval tutmağı, get-gəl etməyi, onları sevməyi, çətinliklərini aradan qaldırmaq üçün çalışmağı və onların sevincinə səbəb olacaq istənilən işi bu gözəl və bəyənilən əmələ nümunə göstərmək olar.

İmam Muhəmməd Baqir (əleyhissəlam) sileyi-rəhmin hələ bu dünyada insanın həyatında öz təsirini göstərməsinə dair belə buyurur:

> *"Sileyi-rəhm əməlləri yaxşılaşdırır, bəlaları insandan dəf edir, ömrü uzadır, ruzini artırır və qohumların sevgisini cəlb edir".*[1]

## 3. Valideynlərə yaxşılıq etmək

İslam dinində vacib buyurulmuş ən əsas məsələlərdən biri ata-anaya yaxşılıq etməkdir. Bu məsələ o qədər böyük önəm kəsb edir ki, Allah Quranda dəfələrlə Ona itaət edilməsinin ardınca valideynlərə yaxşılıq edilməsini əmr edərək buyurmuşdur: "Valideynlərinizə yaxşılıq edin".

Valideynlərə yaxşılıq etmək, onlara ehtiram göstərmək istisnası olmayan bir məsələdir. Hətta kiminsə ata-anası əməlisaleh insanlar olmasa belə, yenə də onlara yaxşılıq edilməli, ehtiramları qorunub saxlanılmalı, dediklərinə əməl edilməlidir. Lakin əgər ata-ana övladdan Allahın razı olmadığı bir işi görməsini istəsələr, belə olan halda onların sözünə əməl edilməməlidir.

Ata-anaya yaxşılıq etmək insanın axirət səadətinin təmin edilməsində böyük təsirə malik olduğu kimi, insanın hələ bu dünyadakı həyatına da ciddi təsir göstərir. İnsanın ruzisinin artmasını, bəla və çətinliklərin dəf olmasını, ömrün uzanmasını buna misal çəkmək olar.

Əmirəl-möminin Əli (ə) buyurur:

> *"Valideynlərinə yaxşılıq edən kəsin öz övladları da ona yaxşılıq edər".*[1]

---

1. Bəqərə surəsi, 83-cü ayə; Nisa surəsi, 36-cı ayə; Ənam surəsi, 151-ci ayə; İsra surəsi, 23-cü ayə.
2. Ğürərül-hikəm, səh. 407.

## Daha ətraflı bilək

*Əzmkarlığı ilə yanaşı böyük istedad sahibi olması onun parlaq gələcəyindən xəbər verirdi. Hələ on səkkiz yaşı tamam olmamış din elmlərinin ilkin mərhələsini müvəffəqiyyətlə bitirib təhsilini daha yüksək səviyyədə davam etdirmək məqsədilə Qum şəhərinə köçür.*

*Qum elmi hövzəsində Ayətullah Brucerdi, Ayətullah Xomeyni, Əllamə Təbatəbai və Şeyx Murtaza Hairi Yəzdi kimi böyük ustadlardan fiqh, üsul və fəlsəfə dərslərini öyrənir.*

*Bu gənc tələbəni tanıyanlar onun Qum şəhərini asanlıqla tərk edəcəyini heç vaxt təsəvvür etmirdilər. Ancaq bir gün ona gələn məktub həyatını tamamilə dəyişdi. Ailədən gəlmiş kədər dolu bir məktub!*

*"Mirvari suyu atanın bir gözünün görmə qabiliyyətini tamamilə əlindən alıb..."*

*Beynindəki suallar onu tərəddüdə salır. İndi o nə etməli idi? Bir tərəfdən, elm öyrənmək yolunda çox zəhmətlər çəkmiş və əziyyətlərinin bəhrəsini görməkdən ötrü elə də çox vaxt qalmamışdı. Sadəcə daha bir neçə il kifayət edərdi ki, o...*

*Digər tərəfdən isə atasının onun köməyinə ehtiyacı var idi. Olduqca çətin qərar idi. İkisindən birini seçməli idi. Elmi cəhətdən daha da irəli getmək, yoxsa atası?*

*Nəhayət, dostlarının bir çoxunun onun yerində olmağı arzuladığı bir halda, o, Qum şəhərini tərk edərək atasına qulluq etməkdən ötrü Məşhəd şəhərinə geri dönmək qərarına gəldi.*

*Həzrət Ayətullah əl-üzma Seyyid Əli Xamnei o günləri belə xatırlayır: "Məşhədə qayıtdım. Allah mənə böyük uğur nəsib etdi. Hər halda mən üzərimə düşən vəzifəmin ardınca getdim. Əgər həyatda nəsə bir uğur qazanmışamsa, belə hesab edirəm ki, atama, eyni zamanda, anama etdiyim yaxşılıq və xidmətin nəticəsində qazanmışam".*

*Qeyd etmək lazımdır ki, Ayətullah əl-üzma Seyyid Əli Xamnei Məşhəddə qoca və xəstə atasına qulluq etməklə yanaşı, Məşhəd şəhərinin böyük ustadlarının yanında təhsilini də davam etdirmişdir. Habelə özü təhsil almaqla yanaşı, gənclərə və tələbələrə din maarifini tədris etməklə də məşğul olmuşdur.*

Bu dərsdə öyrəndik ki, yaxşı və yaxud pis bir işin nəticəsi başqalarına çatmazdan qabaq həmin işi həyata keçirən şəxsin özünə yetişir. Belə deyə bilərik ki, bu dünyada hərə həyatını öz əməllərinin nəticəsi ilə yaşayır. Hikmət sahibi olan Allah bu barədə belə buyurur:

إِن أَحْسَنتُم
أَحْسَنتُمْ لأَنفُسِكُمْ
وَ إِن أَسَأْتُم فَلَهَا

"Yaxşılıq da etsəniz, özünüzə etmiş olursunuz, pislik də!"
(İsra surəsi, 7-ci ayə)

## Sinif işi

Bir nəfər Əbuzərə məktub yazaraq onu nəsihət etməsini istəyir. Əbuzər cavabında belə yazır: "Hamıdan çox istədiyin şəxsə pislik etmə!"

Məktubu yazan şəxs Əbuzərin cavabını oxuduqda təəccüblənərək öz-özünə belə deyir: "Heç ola bilərmi ki, insan kimisə hamıdan çox istəsin, eyni zamanda ona pislik də etsin?!" Yəqin ki, bu müdrik insanın bu sözü deməkdə başqa bir məqsədi vardır. Yaxşısı budur ki, ona başqa bir məktub yazıb nəyi nəzərdə tutduğunu öyrənim...

Yuxarıda verilmiş ayənin köməyi ilə Əbuzərin bu sözü deməkdə məqsədinin nə olduğunu izah edin.

## Özünü sına

1. Əməllərin nəticəsi qanununu bir misalla izah edin.
2. Nəticəsi hələ bu dünyada gəlib insanı tapan üç əməl qeyd edin.
3. Ata-anaya yaxşılıq etməyin nəticələrini sadalayın.

## Təklif

Əmirəl-möminin Əlinin (ə) ata-anaya yaxşılıq etməklə bağlı bu dərsdə oxuduğumuz hədisini ata, ana, baba və ya nənə kimi böyüklərinizlə birlikdə oxuyub onlardan istəyin ki, bu hədisdə deyilənlə bağlı hər hansı bir xatirələri varsa, sizə danışsınlar.

Siz bu xatirələri qeyd edib dərsdə sinif yoldaşlarınız üçün oxuya bilərsiniz.

# On beşinci dərs

## Şeytanın əsgərləri



- Nə üçün atamız onu bizdən daha çox istəyir?
- O, yanlış yoldadır. Biz güclü olduğumuz halda, o, Yusifi bizdən daha çox istəyir.
- Atanızın sizi daha çox sevməsini istəyirsinizsə, Yusifi ondan uzaqlaşdırmaqdan başqa yolunuz yoxdur.
- Gəlin, onu öldürək. Sonra tövbə edib yenidən əməlisaleh insanlar olarıq.
- Yox, onu çölə aparıb orada bir quyuya atarıq. Belə ki, yoldan keçənlərdən biri onu quyudan çıxarıb özü ilə uzaq bir yerə aparar...

### Sinif işi

Sizcə, Yusif peyğəmbərin (əleyhissəlam) qardaşlarının öz kiçik qardaşlarına qarşı belə mərhəmətsiz rəftar etmələrinin səbəbi nə idi?

Əvvəlki kitablarda tələskənlik, tənbəllik, bəyənilməz əyləncələrlə baş qatmaq, hövsələsizlik və simiclik kimi bəzi xoşagəlməz xüsusiyyətlərlə tanış olmuşuq. İndi isə şeytanın əsgərlərindən sayılan daha iki bəyənilməz xüsusiyyət və onlara qarşı mübarizə yolları barədə danışmaq istəyirik.

**1. Paxıllıq**

Paxıl insan Allahın başqalarına verdiyi nemətləri gördükdə narahat olur. İstəyir ki, başqasında olan həmin nemətlər tez onların əlindən çıxsın. Onun üçün fərq etmir ki, başqaları həmin nemətlərə layiqdir, ya yox. Sadəcə istəyir ki, bu nemətlər onların əlindən çıxsın.

Olimpiadaya hazırlaşan iki sinif yoldaşını təsəvvür edin. Şagirdlərdən biri olimpiadaya böyük həvəslə hazırlaşır və müəllimlərin tövsiyələrinə ciddi şəkildə əməl edir. Digər şagird isə məsələyə elə də ciddi yanaşmır. Hazırlıqlara gah qatılır, gah qatılmır. Dərsdə olduğu vaxt da gözü ancaq saatdadır ki, dərs nə vaxt bitəcək.

Sizcə, olimpiadanın vaxtı yaxınlaşıb məktəbi ciddi hazırlaşan şagirdin təmsil edəcəyi müəyyənləşdikdə digər şagird buna necə münasibət bildirəcək?

Ola bilər ki, o, olimpiadaya qatılacağına görə sinif yoldaşını təbrik edib ona müvəffəqiyyətlər arzulasın. Özü isə tənbəlliyi nəticəsində olimpiadaya qatıla bilmədiyindən nəticə çıxarıb növbəti olimpiadalara qatıla bilmək üçün daha ciddi hazırlaşsın.

Lakin elə insanlar vardır ki, belə vəziyyətdə başqa cür münasibət bildirirlər. Belə ki, onlar həqiqəti nəzərə almadan, çalışırlar ki, öz dostlarının layiq olduğunu inkar etməklə onu başqalarının gözündən salsınlar. Məsələn: “Onun nəyi məndən artıqdır? Mən müəllimin yerində olsaydım, heç vaxt onu seçməzdim” - deyə etiraz edirlər.

Birinci halda insan Allaha arxalanaraq, eyni zamanda, özü də çalışaraq özündə olmayan şeyi əldə etmək istəyir. Bu olduqca dəyərli və müsbət bir haldır. İkinci halda isə insan başqasının sahib olduğu şeyin əlindən çıxmasını arzulayır. Bu cür pis və bəyənilməz xüsusiyyətə “paxıllıq” deyilir.

Paxıl insan təkcə ətrafındakıların və dostlarının narahatlığına səbəb olmur, eyni zamanda, bəndələrə qarşı hiss etdiyi bəyənilməz xüsusiyyəti ilə Allahın mərhəmətindən də uzaq düşür.

## Sinif işi

Aşağıdakı hallara diqqət yetirərək hər birinə paxıl olan və paxıl olmayan insanların necə münasibət göstərəcəyini müəyyənləşdirin:
1. Sinif yoldaşlarından biri dərs ilini yüksək qiymətlərlə başa vurur.
2. Sinif yoldaşları onun dostlarından birinə çox hörmət edirlər.
3. Dostlarından birinə mükafat verilir.

**Paxıllıq imanı məhv edir**

Bəzi bəyənilməz xüsusiyyətlər özü böyük günah olmaqla yanaşı, həm də digər böyük günahlar üçün zəmin yaradır. Paxıllıq da belə günahlardan biridir.

Paxıl insan başqalarının uğurunu öz məğlubiyyəti kimi başa düşdüyünə görə onların uğuruna kölgə salmaqdan ötrü əlindən gələni edir. O kimisə başqalarının gözündən salmaq üçün onun barəsində pis sözlər danışır, yaxşı cəhətlərini inkar edir, ona böhtan atır, hətta ona qarşı müxtəlif planlar hazırlayır. Həmçinin başqalarının ixtiyarındakı nemətlərin əllərindən çıxması və onları gözdən salmaq üçün istənilən günahı etməyə hazır olur. Ardıcıl olaraq edilən böyük günahlar isə getdikcə imanı daha da zəiflədir.

İmam Sadiq (əleyhissəlam) buyurur:

“Alov odunu yandırdığı kimi, paxıllıq da imanı yandırır”.[1]

**Paxıllığın çarəsi**

Paxıllıq xəstəliyinə tutulmuş insan ilk növbədə Allahın ona verdiyi böyük nemətləri xatırlayıb buna görə Allaha şükür etməlidir. Özünün çox qiymətli nemətlərə sahib olduğunu və heç paxıllığını etmək istədiyi şəxsin də həmin nemətlərə malik olmadığını bildikdə heç vaxt öz dəyərini unutmaz, başqalarına paxıllıq etməz.

Paxıllıq xəstəliyindən xilas olmaq üçün atılması lazım olan növbəti addım ondan ibarətdir ki, paxıl insan anlamalıdır ki, başqalarının əlindəki nemətlərin onların əlindən çıxmasının onun özünə nə faydası dəyəcək?

Başqalarının məğlubiyyəti onu yüksəldə bilərmi? Sinif yoldaşının yüksək qiymət alması onun qiymətini aşağımı salacaq?

1. Kafi, c. 2, səh. 306

Paxıl insan başqalarının ixtiyarında olan nemətlərin onların əlindən çıxmasının ona heç bir faydası olmadığını bildikdə onların uğurlarına narahat olmaq əvəzinə Allahdan istəməlidir ki, onu da digərləri kimi uğura doğru yönəltsin. Bu bəyənilmiş xislətə "qibtə" deyilir. Təbii ki, insan Allaha dua etməklə yanaşı, uğur qazanması üçün də çalışmalı, başqalarının təcrübələrindən faydalanmalı, səylərini daha da artırmalıdır.

Paxıllıq hissindən qurtulmaq üçün atılacaq üçüncü addım başqalarına yaxşılıq etməkdir. Belə ki, insan özünü başqalarına hörmət qoyub yaxşılıq etməyə öyrəşdirdikdə paxıllıq hissi istər-istəməz aradan gedir. Eləcə də onun başqalarına hörmət etməsi başqalarının da ona hörmət qoyub xətrini çox istəməsinə gətirib çıxarır. Beləliklə də, insanın ürəyində daha paxıllıq etməyə yer qalmır.

## Sinif işi

Olimpiadaya hazırlaşan iki sinif yoldaşı barədə verilmiş mətni bir daha oxuyun və paxıllığın aradan qaldırılması üçün atılması lazım olan üç addımı atmaqla paxıl şagirdin öz davranışını necə düzəldə biləcəyini izah edin.

### 2. Məyusluq və ümidsizlik

Bəzi hallarda insanın inkişafının qarşısını alıb onu yoluna davam etməkdən saxlayan şeytanın ikinci əsgəri ümidsizlikdir. Ümidsizlik adətən hər hansı bir işdə uğursuzluqla qarşılaşdıqda və ya bir sıra nemətlər əldən çıxdıqda insana üz verən bir haldır.

Məlum məsələdir ki, heç kim işlərində uğursuzluğa düçar olmasını istəməz. Lakin həyat heç də həmişə istədiyimiz kimi davam etmir, istər-istəməz arada uğursuzluqlarla da qarşılaşırıq. Belə hallarda ən gözəl çıxış yolu odur ki, insan həqiqətlə barışmalı və hər məğlubiyyətdən bir nəticə çıxarıb özünü növbəti qələbələrə hazırlamalıdır.

Elə insanlar da vardır ki, uğursuzluqlardan nəticə çıxara bilmirlər. Hər hansı yeni bir işə başlamaq istədikdə əvvəlki uğursuzluğu yadına salıb ruhdan düşürlər. Bir daha uğursuzluğa düçar olacağından qorxub yeni işə başlamaq istəmirlər.

Sizcə, belə hallarda ümidsizliyi aradan qaldırmaq üçün nə etmək lazımdır?

**Birinci: Allahı yada salıb Ona təvəkkül etmək**

Qurani-kərimdə ümidsizliyə qalib gəlməyin ilk addımı kimi Allaha təvəkkül edib Ona ümid bağlamaq göstərilir:

وَ مَن يَتَوَكَّل عَلَى اللّٰهِ فَهُوَ حَسبُه...

*"Kim Allaha təvəkkül etsə, (Allah) ona kifayət edər".*

*(Təlaq surəsi, 3-cü ayə)*

Mömin insan başa düşür ki, həyatın hər anında onu himayə edən bir varlıq vardır. Həmin varlıq insana şah damarından da yaxındır. Nə vaxt lazım bilsə, ona yardım edəcək. Beləliklə də, çətinliklər insanı nəinki ümidsiz etməyəcək, əksinə, çətinliklərlə mübarizədə iradəsini daha da möhkəmləndirəcək. Çünki o, həyatdakı çətinliklərin Allah tərəfindən bir sınaq olduğunu və bu sınaqdan başıuca çıxacağı təqdirdə onu çox böyük mükafat gözlədiyini başa düşəcək.



**İkinci: Qətiyyət və ciddilik**

Ümidsizliyə qalib gəlmək yolunda atılacaq ikinci addım işlərdə qətiyyət və ciddilikdir. Ola bilər insanın görmək istədiyi hər hansı bir iş ilk cəhddə uğursuz alınsın. Belə olan halda qətiyyən ruhdan düşmək olmaz. İlk cəhddəki uğursuzluqdan nəticə çıxararaq ikinci cəhddə uğur qazanmaq olar.

Tarixdə oxuyuruq ki, Səkkaki müxtəlif metallardan zərif əşyalar düzəltməyi bacaran mahir bir sənətkar olmuşdur. Bir gün çox gözəl bir qıfıl düzəldib şəhər başçısının yanına aparır. Şəhər başçısı qıfılı gördükdə onun gözəlliyinə heyran qalıb Səkkakini tərifləməyə başlayır. Elə bu vaxt bir alim içəri daxil olur. Başçı alimi görən kimi Səkkakini və onun düzəltdiyi qıfılı unudub alimlə söhbət etməyə başlayır.

Başçının alimə necə dəyər verdiyini görən Səkkaki qərara gəlir ki, nəyin bahasına olursa olsun, elm ardınca gedib alim olmalıdır. Bəs o, bunu necə edə bilərdi? İlk günlər həddən artıq əziyyət çəkir. Hətta bircə cümləni də düzgün yadda saxlaya bilmirdi. Buna görə də başqaları tərəfindən ələ salınırdı. Üstəlik, mədrəsəyə gedib balaca uşaqlarla bir yerdə dərsdə oturmalı idi ki, müəllimdən nəsə öyrənə bilsin.

O, artıq ümidsizliyə qapılmaq üzrə idi ki, bir gün şəhərdən kənarda gözü ortası oyulmuş iri bir daş parçasına sataşır. Daşın yuxarı tərəfindən su damcıları onun üstünə axaraq daşı oymuşdu. Səkkaki bunu gördükdə öz-özünə deyir: “Mənim beynim nə qədər küt olsa da, bu daşdan daha küt ola bilməz. Yavaş-yavaş da olsa, oxuduqlarımı beynimə yeritməliyəm”. Bundan sonra o, daha ciddi şəkildə dərslə məşğul olmağa başlayır. Qətiyyət və ciddiliyi nəticəsində öz dövrünün ən böyük alimlərindən birinə çevrilir. Qeyd edək ki, onun yazdığı bəzi kitablar yüz illərlə tədris olunmuşdur.

## Sinif işi

Aşağıda verilmiş atalar sözlərini oxuyun. Onların hansının insana ümid verdiyini, hansının ümidsizliyə sövq etdiyini bildirin:
1. Səndən hərəkət, Allahdan bərəkət.
2. Çıxan qan damarda qalmaz.
3. İslanmışın yağışdan nə qorxusu!
4. Qaradan o tərəfə rəng yoxdur.
5. Balığı sudan nə vaxt tutsan, təzədir.
6. Zülmət gecənin işıqlı bir sabahı var.
7. Ziyanın yarısından qayıtmaq da xeyirdir.

## Özünü sına

1. Paxıllıq nə deməkdir və qibtə ilə fərqi nədir?
2. Paxıllıq xəstəliyini aradan qaldırmağın yolları nədir?
3. Ümidsizliyə qalib gəlməyin iki əsas yolunu qeyd edin.

## Daha çox bilək

*Ümidsizliyin ən pis növü Allahın mərhəmətindən ümidsiz olmaqdır. Allah Onun mərhəmətindən ümidsiz olmağı ən böyük günahlardan hesab edərək buyurur:*

*"Allahın mərhəmətindən ümidinizi kəsməyin. Allahın mərhəmətindən yalnız kafirlər ümidini üzər!"*

*(Yusuf surəsi, 87-ci ayə)*

وَلا تَيأَسوا مِن رَوحِ اللَّهِ إِنَّهُ لا يَيأَسُ
مِن رَوحِ اللَّهِ إِلَّا القَومُ الكافِرونَ.

*Yəqin ki, siz də bu sualla qarşılaşmısınız: Allahın mərhəmətindən ümidsiz olmaq insanı necə küfrə aparıb çıxara bilər?*

*Bu suala cavab verməzdən qabaq yaxşı olar ki, bir misala diqqət yetirək.*

*Bəzi xəstəliklərin müalicəsi ilə bağlı həkimlər xəstələrə tövsiyə edirlər ki, müəyyən dərmanlar qəbul etməklə yanaşı, bır sıra yeməklərdən pəhriz saxlasınlar. Əgər xəstə insan həkimin dediklərinə əməl edərsə, xəstəliyə qalib gəlib sağlamlığına qovuşa bilər.*

*Elə xəstələr də olur ki, müalicəsindən xəbərsiz olduğuna görə bir daha sağalmayacağını düşünüb çox tez ümidlərini itirirlər. Elə təsəvvür edirlər ki, daha sağala bilməzlər. Belə olan halda onlar fikirləşirlər ki, bundan sonra müəyyən yeməklərdən pəhriz saxlasalar da, saxlamasalar da, artıq bunun bir faydası olmayacaq, onsuz da artıq iş-işdən keçmişdir. Buna görə də nə pəhriz saxlayırlar, nə də müalicəni davam edirlər. Bu cür düşünən insanlar üçün hətta ən adi bir xəstəlik də çox təhlükəli ola bilər.*

*Allahın mərhəmətindən ümidini üzən insan eynilə sağalacağından ümidini kəsmiş xəstəyə bənzəyir. Ümidsizliyə qapılmış insan hər hansı bir günah iş gördükdə dərhal tövbə edərək Allahın mərhəmətinə sığınmaq əvəzinə ümidsizliyə qapılaraq özünü Cəhənnəmin dibində təsəvvür edir. Elə bilir ki, tövbə etsə də, etməsə də, daha onun üçün heç bir fərqi olmayacaq, onsuz da cəhənnəmlikdir. Bu düşüncə ilə özünə deyir ki, Cəhənnəmə gedəcəyi halda, nəyə görə istədiyi bütün işləri görməsin? Nə üçün günah sayılan bəzi əməllərdən çəkinsin? Bu yanlış düşüncə ilə yavaş-yavaş istənilən günaha əl atır.*

*Sizcə, belə bir insanı hansı aqibət gözləyir?*

# On altıncı dərs

## Dostluq

Həyatımız boyunca hamımız müxtəlif ehtiyaclarla qarşılaşırıq. Təmiz havaya olan ehtiyac, təmiz suya olan ehtiyac, yeməyə olan ehtiyac, yaşayış yerinə olan ehtiyac və s.

Məlum məsələdir ki, insanın ehtiyacları təkcə cismani və maddi sahələrlə kifayətlənmir. Mənəvi ehtiyaclar cismani ehtiyaclar qədər önəm kəsb etməsə də, onlardan geri də qalmır.

İnsanın mənəvi və psixoloji ehtiyaclarından biri sevgi ehtiyacıdır. Mehriban olan Allah bizi elə yaradıb ki, başqalarını sevirik. İstəyirik ki, başqaları da bizi sevsin. İnsanın sevgiyə olan ehtiyacı o qədər önəmli məsələdir ki, kimsə dünyanın bütün nemətlərinə sahib olsa, ancaq heç kim tərəfindən sevilməsə, özünü xoşbəxt hiss edə bilməz.

## Sinif işi

Sizcə başqalarını sevmək və başqaları tərəfindən sevilmək nemətindən düzgün şəkildə necə faydalana bilərik?

**Dostluğun meyarları**

Ətrafınızda olan insanlar arasında ən çox kimi sevirsiniz?

Heç indiyədək özünüzdən soruşmusunuzmu ki, nə üçün onu başqalarından daha çox sevirsiniz?

Bəzi insanlar başqalarını sevmək üçün bir sıra zahiri meyarları əsas götürürlər. Məsələn, gözəlliyi, gözəl səsə malik olmağı, geyim tərzini, maddi vəziyyəti və s. Bu kimi meyarlar hissiyyata qapılmaqdan irəli

gəlib olduqca təhlükəlidir. Belə ki, biz kimisə sevdikdə ona olan sevgimiz yanlış cəhətlərini görməyimizə imkan vermir. Buna görə də ona çox asanlıqla etimad edirik.

İnsanın bu vəziyyəti ilə bağlı olaraq həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) belə buyurur:

*"Hər hansı bir şeyə olan sevgin səni (onun eyiblərini görməkdən) kor və kar edir."*[1]

حُبُّکَ لِلشَّیءِ یُعْمِی وَ یُصِمُّ

Qəzet və jurnallarda bəzi insanların kimlərisə zahiri meyarlara görə sevib dost olmasından, sonra isə dostlarına olan etimadına görə onların istəyinə əsasən rəftar edən insanlar barəsində kifayət qədər hadisələr qeyd edilir. Bu cür insanlar çox asanlıqla aldanırlar. Üzdə özlərini yaxşı insanlar kimi göstərən bəzi fırıldaqçılar onların qəlbini ələ alaraq belə şəxslərdən sui-istifadə edirlər.

Bu cür münasibətlərin daha bir mənfi cəhəti onların davamlı olmamasıdır. Kiminsə sadəcə zahiri görünüşünə görə onunla dostluq edən insanın dostluğu nə vaxta qədər davam edə bilər? Zahiri baxımdan ondan daha üstününü gördükdə birinci dostunu unudub ikinci şəxslə dostluq etməyə başlayacaq. Qəflətən qırılan dostluq münasibətinin taleyi necə olacaq və belə hallar insanların psixologiyasına necə təsir edəcək?

Bu cür uğursuz dostluqların nəticəsi üzgünlük, depressiya və digər psixoloji problemlər olacaq. Buna görə də dostluğu zahiri meyarlar əsasında müəyyənləşdirən insan ilk andan özünü bu kimi çətinliklərə hazırlamalıdır.

## Sinif işi

Müəlliminizin köməyi ilə zahiri meyarlara görə dostluq etməyin digər arzuolunmaz nəticələri barədə sinifdə fikir mübadiləsi aparın.

1. Mən la yəhzuruhul-fəqih, c. 4, səh. 380

## Dostluq üçün düzgün meyarlar

Sizcə, dost seçimi üçün düzgün meyarlar hansılardır?

Bir gün həzrət Muhəmməd peyğəmbər (s) öz səhabələrindən imanın ən möhkəm tutacağının nə olduğunu soruşur.

Bəziləri cavab verir ki, imanın ən möhkəm tutacağı namazdır. Bəziləri deyirlər ki, imanın ən möhkəm tutacağı orucdur. Bəziləri həcc, bəziləri də cihad olduğunu bildirir.

Həzrət Peyğəmbər (s) buyurur:

“Dediklərinizin hamısı gözəl və bəyənilmiş əməllərdir. Ancaq imanın ən möhkəm tutacağı Allaha görə dostluq edib Allaha görə düşmən olmaqdır. İmanı möhkəmləndirən iş Allah dostları ilə dost olub Allah düşmənləri ilə düşmənçilik etməkdir”.[1]

Sizcə, bütün varlıqlarını Allah tərəfindən əldə etmiş, lakin şeytanın ardınca gedən insanlarla dostluq etməyə dəyərmi? Onlar sevilməyə layiqdirlərmi? Öz mehriban Allahına qarşı sadiq olmayan insanlar sizinlə dostluqda sadiq ola bilərlərmi? Deməli, dostluq üçün ilk meyar dostluq edəcəyimiz şəxsin Allaha yaxın olub Ona itaət etməsidir.

Həzrət Peyğəmbərdən (s) nəql edilmiş bir hədisdə deyilir:

“İsa peyğəmbərin (ə) həvariləri[2] ondan kimlərlə dostluq edəcəklərini soruşurlar. İsa peyğəmbər (ə) buyurur: “O insanlarla dostluq edin ki, onları gördükdə Allah yadınıza düşür, davranışları sizə axirəti xatırladır”.

Dost seçimində ikinci meyar odur ki, dostluq edəcəyimiz insanlar bizimlə öz şəxsi maraqlarına görə dostluq etməsinlər, bizi həqiqətən də sevib dostluq etsinlər. Hamımız ata-anamızı səmimi-qəlbdən sevirik, çünki bilirik ki, biz dünyaya gələndən onlar bizi heç bir təmənna güdmədən seviblər.

Peyğəmbərlərə, imamlara, qayğıkeş müəllimlərimizə olan sevgimiz də eynilə bu qəbil sevgilərdəndir. İnsanlar dünya və axirət səadətinə çatsınlar deyə, onlar bütün çətinlikləri gözə alırlar və bu yolda qətiyyən şəxsi maraq güdmürlər.

1. Kafi, c. 2, səh. 126
2. Həvarilər İsa peyğəmbərin (əleyhissəlam) dostları və yetirmələridir.

İmam Muhəmməd Baqir (ə) buyurur:

"Yaxşı insan olub-olmadığını bilmək istəsən, qəlbinə nəzər sal. Əgər görsən ki, Allaha itaət edənləri sevir, Ona asi olanlara nifrət edirsən, bil ki, yaxşı insansan və Allah da səni sevir. Ancaq görsən ki, Allaha itaət edənlərdən acığın gəlir, lakin Ona asi çıxanları çox istəyirsən, bil ki, yaxşı insan deyilsən və Allah da sənə nifrət edir".[1]

## Sinif işi

Müəlliminizin köməyi ilə dost seçimində düzgün meyarlar barədə sinifdə fikir mübadiləsi aparın.

Bizim zahiri meyarlara daha çox diqqət yetirməyimizə səbəb olan amillərdən biri görməkdir. Sözsüz ki, göz qəlbimizin əsas aynalarından biridir. Belə ki, gördüklərimiz başqalarına bağlanmağımıza böyük təsir göstərir. Şeytan insanları aldatmaqdan ötrü məhz qəlbin bu aynasından daxil olmağa çalışır. Bütün bacarığını işə salır ki, bəlkə bu yolla insanı aldada bilsin.

İmam Sadiq (əleyhissəlam) haram baxışlar barəsində buyurur:

"Haram baxış şeytanın zəhərli oxlarından biridir. O bu yolla insanın qəlbində şəhvət toxumu səpir. İnsanı azdırmaq üçün sadəcə bu kifayətdir. Bir çox ötəri baxışların uzun-uzadı peşmançılığı vardır".[1]

Zahiri və təhlükəli dostluq tələlərinə düşmək istəmiriksə, baxışlarımızı nəzarətdə saxlamalıyıq. Göümüzü qorumağın ən gözəl yolu gözü yaradanın onun üçün müəyyənləşdirdiyi qaydalara riayət etməkdir:

1. Şəhvət məqsədilə olub-olmamasından asılı olmayaraq, kişinin naməhrəm qadının bədəninə baxması haramdır. Onun əlləri (biləkdən barmaqların ucuna qədər olan hissəyə) və üzünə baxmaq isə yalnız şəhvət qəsdi olmadan halaldır.

---

1. Kafi, c. 2, səh. 127.
2. Kafi, c. 5, səh. 559; Mən la yəhzuruhul-fəqih, c. 4, səh. 18.

2. Qadının naməhrəm kişinin bədəninə baxması haramdır.

3. İnsanın təhrik olmasına səbəb olan film və şəkillərə baxmaq haramdır.

4. Həm kişilər, həm də qadınlar başqalarını təhrik edəcək qədər dar geyinməməlidirlər. Bu cür geyinmək haramdır.

5. Kişinin naməhrəm qadınla heç kəsin görməyəcəyi xəlvət yerdə birlikdə olması düzgün deyil. Belə yerdə namaz qılmaq da düzgün deyil.

6. Kişilərin qadın həkimə, qadınların isə kişi həkimə müraciət etməsi bədənə toxunuş olacağı və ya baxılacağı təqdirdə yalnız zərurət halında mümkündür.

7. İynə və ya sistem vurdurmaq üçün tibb bacısına yalnız o vaxt müraciət edilə bilər ki, bədənə toxunuş, yaxud haram baxış olmasın.

8. Qadının naməhrəm kişi ilə əl verib görüşməsi (eləcə də əksinə) haramdır.

## Etibarlı sığınacaq

Nəzərə almaq lazımdır ki, haram baxış insanı çirkinliklərə doğru apara bilər. Məhz buna görə şeytan bu zəhərli ox vasitəsilə çoxsaylı hiylələrini işə salır ki, daha çox insanı yolundan azdıra bilsin. O, belə haram baxışların necə nəticə verəcəyini bildiyi üçün bir an da olsun öz vəsvəsələrindən əl çəkmir. İnsanları yolundan azdırmaq üçün dayanmadan çalışır.

Hikmət sahibi olan Allah möminlərə belə vəsvəsələrdən qorunmaq üçün aşağıdakı tövsiyəni verir:

وَ اِمَّا يَنزَغَنَّکَ مِنَ الشَّيطانِ نَزغٌ
فَاستَعِذ بِاللّهِ اِنَّهُ سَميعٌ عليمٌ ۝

*“Əgər sənə şeytandan bir vəsvəsə gəlsə, Allaha sığın. Şübhəsiz ki, Allah (hər şeyi) eşidəndir, biləndir!”*

*(Əraf surəsi, 200-cü ayə)*

Əgər Allah bizə kömək etməzsə, şeytanın vəsvəsələri qarşısında heç cür müqavimət göstərə bilmərik. Deməli, hər an Allahdan kömək istəməliyik ki, bizə bu vəsvəsələrə qarşı müqavimət göstərə bilmək imkanı versin. Unutmamalıyıq ki, Allah hər an bizi görür, vəziyyətimizdən xəbərdardır.

## Özünü sına

1. Yanlış meyarlarla seçilmiş dostluqla bağlı iki nümunə qeyd edin.
2. Həzrət Peyğəmbərin (s) hədisinə əsasən, insanlarla dostluq etməyin ən önəmli meyarı nədir?
3. Şeytanın vəsvəsələrinə qarşı müqavimət aparmağın yolu nədir?

## Təklif

Quranın son surəsinə müraciət edərək onun ümumi məzmununu bir neçə sətirdə yazıb dərsdə sinif yoldaşlarınız üçün oxuyun.

## Daha çox bilək

**Allahın düşmənlərilə düşmənçilik**

Yəqin ki, siz də indiyə qədər hamı ilə dostluq etməyə çalışan və necə deyərlər, heç kimi əlindən buraxmaq istəməyən insanlarla qarşılaşmısınız.

İslam dini "təvəlla" (Allahın dostları ilə dostluq etmək) və "təbərra" (Allahın düşmənləri ilə düşmənçilik etmək) prinsiplərini özünün iki ən vacib prinsipi olaraq görür və onları bir-birindən ayrı təsəvvür etmir. Başqa sözlə desək, bir müsəlman heç vaxt iddia edə bilməz ki, mənim bütün insanlarla yaxşı münasibətim var və yaxşı, yaxud pis insan olmasından asılı olmayaraq onların hamısını eyni səviyyədə istəyirəm.

İndi qeyd edəcəyimiz əhvalat bu mövzuya aiddir:

Xəlifə Harun ər-Rəşidə xəbər verirlər ki, Səfvan dəvələrinin hamısını satıb. Bundan sonra xəlifənin həcc səfərinə gedərkən yükünü daşımaq üçün başqa bir şey fikirləşmək lazımdır.

Harun öz-özünə fikirləşir ki, Səfvanın həcc səfərində xəlifənin bütün əşyalarını dəvələri ilə daşıyacağına dair müqavilə bağladıqdan sonra birdən-birə bütün dəvələrini satması qeyri-adi bir işdir. Göstəriş verir ki, Səfvanı dərhal hüzuruna gətirsinlər.

- Eşitmişəm ki, dəvələrini satmısan.

- Doğrudur, ey xəlifə!

- Niyə?

- Daha qocalıb əldən düşmüşəm. Özüm dəvələrə baxa bilmirdim, övladlarım da lazımi qədər kömək etmirdilər. Fikirləşdim ki, ən yaxşısı budur dəvələri satım.

- Düzünü de görüm, dəvələri niyə satmısan?

- Səbəb elə sizə dediyimdir.

- Mən sənin dəvələri nə üçün satdığını yaxşı bilirəm. Yəqin ki, Musa ibn Cəfər sənin mənimlə bağladığın müqavilədən xəbər tutub və səni bu işdən çəkindirib. Sən də onun göstərişinə əsasən, dəvələri satmısan. Sənin gözlənilmədən atdığın bu addımın əsl səbəbi budur.

Sonra Harun səsinin tonunu daha da yüksəldərək deyir: “Səfvan, əgər köhnə dostum olmasaydın, başını bədənindən ayırardım!”

Harun tamamilə doğru düşünmüşdü. Səfvan qəddar Abbasi xəlifəsinin yaxın adamlarından olsa da, Əhli-beytə (ə) böyük hörməti var idi. O, xəlifə Harunla həcc səfərində onun bütün yüklərini öz dəvələri ilə daşıyacağına dair müqavilə bağladıqdan sonra bir gün İmam Musa ibn Cəfərlə (ə) qarşılaşır. İmam ona buyurur: “Səfvan bir işindən başqa sənin bütün işlərin yaxşıdır”.

- O bir iş hansıdır, ey Peyğəmbər balası?

- Dəvələrini o adama (Haruna) kirayə verməyin.

- Ey Peyğəmbər balası, mən dəvələrimi haram səfər üçün kirayə verməmişəm ki! Harun həcc səfərinə getmək istəyir, mən də dəvələrimi həcc səfəri üçün kirayə vermişəm. Üstəlik, heç özüm də onunla getməyəcəyəm, bəzi xidmətçilərimi göndərəcəyəm.

- Səfvan, səndən bir söz soruşum. Sən dəvələrini ona kirayə vermisən ki, işin axırında da ondan kirayə haqqı alasan. Elə deyil?

- Doğrudur, ey Peyğəmbər balası!

- Deməli, sən ən azından Harun sənin kirayə haqqını ödəyənə qədər onun sağ qalmasını istəyəcəksən?

- Bəli, ey Peyğəmbər balası!

- Kim hər hansı səbəbə görə zalımların sağ qalmasını arzulayarsa, o özü də onlardan sayılar. Zalımlarla birlikdə olan isə Cəhənnəm odunda yanar.

Bu söhbətdən sonra Səfvan bütün dəvələrini bir yerdə satmaq qərarına gəlir. O bu işin hətta onun ölümü ilə nəticələnə biləcəyini təxminə etsə də, öz qərarından dönmür.

# İlahi!

*Ey arzulayanların qəlbinin arzusu!*
*Ey (Səni) sevənlərin ən böyük istəyi!*
*Səndən Özünün və Səni sevənlərin sevgisini istəyirəm.*
*Səndən məni Sənə yaxınlaşdıracaq hər bir işin sevgisini istəyirəm.*
*Allahım!*
*Özünü mənə Səndən başqa hər şeydən daha çox sevdir! Sənə olan sevgimi Sənin razılığını qazana bilməyim üçün vasitə qərar ver!*
*Allahım! Mənə Öz mərhəmət və sevgi gözünlə bax! Məndən üz çevirmə! Məni xoşbəxtlərdən et, ey mehribanların ən mehribanı!*

*İmam Səccadın "Sevənlərin münacatı" duasından bir hissə*

# İstifadə edilmiş ədəbiyyat siyahısı

*1. Nəhcül-bəlağə, Əmirəl-möminin Əlinin (ə) xütbə, məktub və hikmətli kəlamları.*
*2. Səhifeyi-Səccadiyyə (İmam Zeynül Abidinin (ə) duaları), Əli ibn Hüseyn ibn Əli.*
*3. Əlamuddin, Hüseyn ibn Əbülhüseyn Deyləmi, Qum, Alul-beyt nəşriyyatı, 1408 h.q.*
*4. Biharul-ənvar, Məhəmmədbaqir Məclisi, Beyrut, Əl-Vəfa nəşriyyatı, 1403 h.q.*
*5. İmam Xomeyninin həyatından qeydlər, Qulaməli Rəcai, İmam Xomeyninin əsərlərinin tərtibatı müəssisəsinin mətbəəsi, 1385 h.ş.*
*6. Tühəfül-üqul, Həsən ibn Əli ibn Şöbə, Qum, Darul-hədis nəşriyyatı, 1385 h.ş.*
*7. Ət-Təmhis, İbn Əli Məhəmməd ibn Həsən İskafi, Qum, İmam Məhdi mədrəsəsinin mətbəəsi.*
*8. Təhzibül-əhkam, Şeyx Tusi, Darul-kutubil-İslamiyyə nəşriyyatı, 1365 h.ş.*
*9. Vilayət hədisi, Ayətullah əl-üzma Seyyid Əli Xamneinin tövsiyələr toplusu*
*10. Şərhi-Nəhcül-bəlağə, İbn Əbilhədid, Daru-ehyail-kutubil-ərəbiyyə,*
*11. İmam Xomeyni əsri, Əhmədrza Hacəti, Qum, Bustane-ketab nəşriyyatı, 1381 h.ş.*
*12. Ğürərül-hikəm və dürərül-kəlim, Əmirəl-möminin Əlinin (ə) kəlamları.*
*13. əl-Ğeybə, Şeyx Tusi, Qum, Cəmkəran məscidinin mətbəəsi, 1387 h.ş.*
*14. Kafi, Şeyx Kuleyni, Darul-kutubil-İslamiyyə nəşriyyatı, 1388 h.ş.*
*15. Kəmaluddin və təmamunnemət, Şeyx Səduq, Qum, Ustadlar birliyi idarəsinin mətbəəsi, 1405 h.q.*
*16. Addım-addım hicab seçiminə doğru, Mehdi İsmaili Sadyani, Qum, Şəhabəddin nəşriyyatı, 1390 h.ş.*
*17. Məsnəvi, Cəlaləddin Məhəmməd Rumi – Mələvi*
*18. Müstədrəkül-vəsail və müstənbətül-məsail, Alul-beyt nəşriyyatı, 1408 h.q.*
*19. Əl-Müstədrəku ələs-səhiheyn, Əbu Abdullah Məhəmməd ibn Abdullah Hakim Neyşaburi, Darul-mərifət mətbəəsi, 1418 h.q\1998 m.*
*20. Mən la yəhzuruhul-fəqih, Şeyx Səduq, Qum, Ustadlar birliyi idarəsinin mətbəəsi, 1404 h.q.*

## Hörmətli müəllimlər, valideynlər və şagirdlər!

**Biz sizin rəylərinizi qiymətləndirir və onlardan gələcək kitablarımızdakı dəyişikliklər və təkmilləşdirmələr etmək üçün istifadə edəcəyik. Zəhmət olmasa rəylərinizi aşağıdakı e-poçt ünvanına göndərin:**

**info.amag77@gmail.com**